Məhəmməd Nərimanoğlu

Bilal Ənsər

# TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORUNUN QISA XRONİKASI

"Adiloğlu" nəşriyyatı
Bakı 2009

6160

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Az
N 55

Məsləhətçi:
**Cavid QURBANOV,**
*Azərbaycan Respublikasının Milli Məclisinin üzvü*

Redaktor:
**Rafiq FƏRƏCOV,**
*«Vətən səsi» qəzetinin redaktoru*

N 55 **Məhəmməd Nərimanoğlu, Bilal Ənsər.**
«Türklərə qarşı törədilmiş erməni terrorunun qısa xronikası». Bakı, «Adiloğlu»-2009,188 səh.

Kitabda böyük Türk dünyasına qarşı ermənilərin zaman-zaman apardığı şovinist siyasətləri nəticəsində törətdikləri terror və faciələr qısa xronika və publisistik yazılarda öz əksini tapmışdır. Xronika «Vətən səsi» qəzetinin ayrı-ayrı saylarında dərc olunmuş materiallar əsasında çap olunmuşdur.

N $\frac{4722110018}{121\text{-}2009}$ qrifli nəşr

©M. Nərimanoğlu, 2009

*Erməni şovinist millətçilərinin xalqımıza qarşı təcavüzü bu gün də davam edir, onun ağır nəticələri isə yüz minlərlə soydaşımızın taleyində özünü göstərməkdədir. Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində çoxillik zəngin təcrübəsi olan erməni millətçi-ideoloqları, xaricdəki erməni lobbisi ölkəmizə və xalqımıza qarşı daha incə və məkrli metodlardan istifadə etməklə təbliğat müharibəsi aparır, uydurma tezislər və faktlarla dünya ictimaiyyətini çaşdırmağa, onu yalanlarla aldatmağa, işğal faktını unutdurmağa çalışırlar.*

***İlham ƏLİYEV,***

***Azərbaycan Respublikasının Prezidenti***

# SON YÜZ İLDƏ
# 86 DƏFƏ TÖRƏDİLMİŞ SOYQIRIMI

## Ermənistanda yaşamış azərbaycanlıların sonuncu deportasiyasından ötən 21 il ərzində dünya bu haqsızlığa hələ də göz yumur

***Azərbaycanlıların Ermənistandan tam deportasiya edilməsindən 21 il ötür. 1988-ci il noyabrın sonu - dekabrın birinci ongünlüyündə indiki Ermənistan ərazisində yaşayan 250.000 azərbaycanlı (rəqəm BMT-nin Qaçqınlar üzrə Ali Komissiyasınındır), 18.000 kürd və min nəfər rus (rəqəmlər Azərbaycan Respublikası keçmiş Ali Sovetinin Qaçqınlar üzrə Komissarlığınındır) zorla daimi yaşayış yerlərindən deportasiyaya məruz qalıb. 600 min nəfərə yaxın məcburi köçkün (50 min ahısqa türkü, 100 min nəfər isə sərhəd zonalarından çıxanlardır) öz doğma torpaqlarını tərk etmişdir.***

***

*Bu deportasiya əməliyyatı ilə Ermənistan dövləti 8 min kvadrat kilometr ərazidə (172 yaşayış məntəqəsi) yaşayan azərbaycanlı sakinlərini tarixi torpaqlarından qovub.*

*Ermənistan hökuməti tərəfindən həyata keçirilən deportasiya əməliyyatı zamanı 216 azərbaycanlı qətlə yetirilib; o cümlədən, 2 nəfərin diri-diri başı kəsilib, 11 nəfər diri halda, 2 nəfər isə*





*öldürüldükdən sonra yandırılıb, 1 nəfər asılıb, 3 nəfər doğranıb, 29 nəfər avtomoblin təkərləri altına atılıb, 41 nəfər döyülərək öldürülüb, 1 nəfər özünü öldürüb, 1 nəfər elektrik cərəyanına qoşularaq öldürülüb, 49 nəfər dağlarda donub, 10 nəfər infarktın qurbanı olub (onlardan biri hamilə qadın olub), 8 nəfər itkin düşüb. Öldürülənlərin 57-si qadın, 23-ü uşaqdır (rəqəmlər keçmiş SSRİ Daxili İşlər Nazirliyinin istintaq materiallarından götürülüb).*

*Hazırda Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı yaşamır və Ermənistan dünyada ən monoetnik dövlətə çevrilib.*

*İndiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illər ərzində bir dövrü əhatə edir. Azərbaycanlıların deportasiyası nəinki Azərbaycanda, eləcə də Ermənistan və başqa ölkələrdə çap olunmuş kitablarda kifayət qədər öz əksini tapıb. Erməni alimi Zaren Karkadyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illərdə" kitabında yazır: "1820-ci ilədək indiki Ermənistan ərazisindəki 2300 yaşayış məntəqəsindən 2000 min nəfər azərbaycanlılar yaşayıb".*

*Belə ki, Azərbaycanın parçalanması ilə nəticələnən - 1828-ci il İran və Rusiya arasında bağlanmış "Gülüstan" müqaviləsindən sonra indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar vaxtaşırı deportasiyaya məruz qalıb. 1986-cı ildə İrəvanda dərc olunmuş "Ermənistan və ətraf rayonların toponimləri lüğəti" adlı kitabda yazıldığı kimi, "indiki*

*Ermənistan ərazisində yaşayan ermənilərin 70 faizi 1828-1830-cu illərdə Türkiyə və İrandan gəlmiş mühacirlərdir".*

*1911-ci ildə Peterburqda nəşr olunmuş məşhur tədqiqatçı Y.Şavrovun "Zaqafqaziyada rus işinə təhlükə" kitabından oxuyuruq: "1928-1930-cu illərdə Zaqafqaziyaya İrandan 40 min, Türkiyədən isə 84.600 erməni köçürülərək, erməni millətinin cüzi olduğu İrəvan quberniyasının ən yaxşı torpaqlarında yerləşdirilib".*

*XX əsrdə isə Ermənistan ərazisindən azərbaycanlıların kütləvi deportasiya əməliyyatı - 1905, 1918-1920, 1948-1956, 1988-ci illər, - dörd mərhələyə bölünür. Statistik və arxiv sənədlərində təsdiqini tapmış məlumatlara görə, bu əməliyyatlar nəticəsində indiki Ermənistan ərazisində yaşayan bir milyon beş yüz mindən çox azərbaycanlı tarixi torpaqlarından qovulub. Bu dövrdə Ermənistanın ərazisində azərbaycanlılar yaşayan 940 yaşayış məntəqəsindən 698-nin adı Ermənistan hakimiyyəti tərəfindən dəyişdirilərək, erməni adları ilə əvəz olunub. Addəyişmə azərbaycanlıların bu respublikanın ərazisindən tam deportasiya olunmasından sonra da davam etdirilib. Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın 1991-ci il 9 aprel tarixli fərmanı ilə son 91 azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilərək, erməni adları ilə əvəzlənib. (prezidentlik iddiasında olan L.Ter-Petrosyanın prezident seçilərsə, Dağlıq Qarabağ problemini beynəlxalq prinsiplər əsasında həll edilməsinə çalışacağı barədə verdiyi süni*





*bəyanatların arxasında dayanan çirkin, bəd niyyət bizə məlumdur). Son yüz ildə Ermənistanda yaşamış azərbaycanlılar ən azı, 86 dəfə soyqırıma məruz qalıb və nəticədə "Ermənistan azərbaycanlıları və onların acı taleləri" adlı kitabda deyildiyi kimi, beş yüz minədək azərbaycanlı qətlə yetirilib.Tiflisdə nəşr olunan "Revolyutsionnıy Vostok" jurnalı 1923-cü il aprel sayında yazırdı: "Daşnak hökuməti öz hakimiyyəti dövründə Ermənistandakı azərbaycanlıların 60 faizini qırıb". Həmin jurnal 1936-cı ildə isə yazır: "Təkcə 1914-1918-ci illərdə İrəvan quberniyasında 88 azərbaycanlı kəndi dağıdılıb, 1920 ev yandırılıb, 131.970 kişi öldürülüb". Gürcüstanda nəşr olunan "Qruziya" qəzetinin 1918-ci il noyabr tarixli nömrəsindən: "1918-ci ilin noyabrınadək Sisyan rayonunun 15 azərbaycanlı kəndində ermənilər tərəfindən 625 nəfər öldürülüb və bu kəndlərə 51.390.000 manat ziyan dəyib".*

*Azərbaycanlıların qəddarlıqla, amansızcasına öldürülməsi faktları yüzlərlədir. Məsələn, Azərbaycanın tanınmış aşığı Aşıq Nəcəfin qətli səhnəsi indi də el arasında "insan qətlinin qəddarlıq nümunəsi" kimi söylənir. Erməni komandiri el aşığını yüzlərlə insanın gözü qarşısında kürəyində samovar qaynadaraq yandırıb. Aşıq Nəcəfin son nəfəsində ağrılarını büruzə vermədən erməni komandirinin zövcəsinə dediyi şer indi də aşıq şerinin nümunəsi kimi oxunur.*

*Ermənistan hökuməti azərbaycanlıların Ermənistan ərazisindən tam deportasiyasından sonra daha da azğınlaşaraq*

*Dağlıq Qarabağda və ətraf yeddi rayonda yaşayan həmvətənlərimizi də zorla öz ev-eşiyindən didərgin saldı. Bütün bunlara baxmayaraq, Ermənistandan deportasiya olunmuş azərbaycanlılarla bağlı məsələ hansısa beynəlxalq təşkilatın belə ciddi müzakirə mövzusu olmayıb. Yalnız BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının 2004-cü ilin aprelində deportasiya və məcburi köçkün məsələlərinə həsr olunmuş konfransında Ermənistandan deportasiya olunmuş insanların taleyi gündəlikdə olub. Konfransda vurğulanıb ki, təkcə beynəlxalq təşkilatların ədalətli qərarları Ermənistandan qovulan azərbaycanlıların öz tarixi torpaqlarına qaytarılmasına səbəb ola bilər. İnsanların vətən eşqi və böyüyüb başa çatdığı doğma yurdlara həsrət hissi də heç zaman yaddaşlardan itmir. Belə ki, hətta ölüm astanasında olan, indiki Ermənistandan 1988-ci ildə deportasiya edilmiş yüzlərlə el ağsaqqalı və ağbirçəyinin" kaş, məni öz kəndimizdəki qəbirstanlıqda, doğmalarımın yanında torpağa tapşıraydılar" kəlmələri isə beynəlxalq qurumlar tərəfindən nəinki eşidilmir, əksinə bir milyona yaxın soydaşımızı bu vəziyyətə salan terrorçu və işğalçı Ermənistana havadarlıq edilir. Belə olmasaydı, münaqişənin ədalətli, beynəlxalq prinsiplər əsasında həllinə göz yuman beynəlxalq təşkilatlar Ermənistandan qovulmuş, deportasiya olunmuş soydaşlarımızın Avropa Məhkəməsinə etdikləri müraciətləri də cavabsız qalmazdı.*

*Əziz oxucular!*





*Hələ səhifələrində dəhşətlərlə tanış olacağınız, erməni daşnak terrorçularının zaman-zaman, daha doğrusu, son yüz ildə türklərə qarşı törətdiyi soyqırımların xronikası toplanmış bu kitabdakı şəkillərə şərh verməyə ehtiyac yoxdur. Buradakı fotoların dili olsaydı, çox şeyləri açar, qaniçən, qəddar, faşist xislətli erməni terrorçularının əməllərindən daha çox danışar və deyərdi ki, diri-diri türk qadınının sinəsini praçalayaraq körpəsini süngüyə keçirib, «baxın, bu, turk cocuğudur, o, böyüməyəcək və bizim dığalar, ondan qorxmayacaq!» - deyə, şaqqanaq çəkib güləcək.*

*Ümumiyyətlə, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ona bitişik daha 7 rayonunu (hələ Qazax rayonunun işğal olunmuş ərazilərini bura əlavə etmirik) işğala məruz qoyaraq, bir milyondan artıq soydaşımızı qaçqın-köçkünə çevirəndən millətimizə qarşı etməni terrorçuları tərəfindən törədilən dəhşətlər barəsində nə qədər çox yazılsa, nə qədər çox sənədli filmlər çəkilsə, yenə də onların «əsl simasını» üzə çıxarmaq çox çətindir. Ona görə də dünənin və bu günün dəhşətləri unudulmamalı, gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.*

*Bu işdə qələm sahiblərinə maddi və mənəvi dəstək olanlarımıza - vətənpərvər eloğlularımıza, xüsusən Qənbər Şəmşiroğluna Tanrı kömək olsun!*

**Məhəmməd NƏRİMANOĞLU**

## YANVAR AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**1 yanvar 1906-cı il** - Ermənilərin silahlı quldur dəstələri Ağdam rayonunun Papravənd kəndinə hücum etmiş, kişilərin başlarını kəsmiş, hamilə qadınların qarınlarını xəncərlə yararaq uşaqların başlarını üzmüşlər.

**Yanvar 1915-ci il** - Türkiyənin Muş şəhəri yaxınlığında olan Kırköy kəndinin sakini Mişak Taviryanın başçılığı ilə silahlı ermənilər Qarameşə kəndinin kişilərini qətlə yetirdikdən sonra qadınları zorlamışlar. Malababa və Həşkərvan kənd erməniləri 4 türk kəndinin sakinlərinin hamısını, 9 kəndin əhalisini isə qismən qətlə yetirmişlər. Kazanan kəndinin camaatını isə bir yerə toplayıb diri-diri yandırmışlar.

**2 yanvar 1918-ci il** - Erməni silahlı quldurları Gürcüstanın Axalkələki rayonunda müsəlman kəndlərinə hücum edib əllərinə keçənləri vəhşicəsinə qətlə yetirmişlər.

Katranlı kəndinə (Türkiyədə) hücum edib qonşu kəndlərdən gətirdikləri 1400 uşağı qətlə yetirərək odda yandırmışlar.

**3 yanvar 1919-cu il** - Erməni silahlıları tərəfindən Ağdaş şəhəri yandırılmış, sakinlərinin çoxu qılıncdan keçirilmişdir. Cəbrayıl rayonunun Qarakənd erməniləri Ağdam-Karyagin yolunda qaçqın azərbaycanlıları qırmışlar.

**Yanvar 1919-cu il** - Ermənilər gələcək planlarını həyata





keçirmək üçün Borçalı qəzasının Loru nahiyyəsinin neytral zona hesab edilməsinə nail olublar. Sonralar Barana, Allahverdi, Cəlaloğlu və Voronsovka rayonları Ermənistana verilmişdir.

**6 yanvar 1919-cu il** - Silahlı erməni quldurları Zəngəzurun Rəzdərə, Əsgərli, Vəlilər kəndinə basqın edib evləri talamış, od vurmuş, malları aparmışlar.

**8 yanvar 1919-cu il** - Andranik Ozanyanın silahlı dəstələri Zəngəzurun 4 kəndini talan etmiş, 17 kəndini isə mühasirəyə almışlar.

**10 yanvar 1919-cu il** - Andranikin başçılığı ilə quldur erməni dəstələri Zəngəzurun 20 kəndini dağıtmış, var-yoxlarını talan etmişdir. Qadınların əksəriyyəti erməni caynağına düşməmək üçün intihar etmişlər. Erməni əlinə keçənlər isə cəhənnəm əzabına düçar olmuşlar.

**28 yanvar 1919-cu il** - "Şəraitdən asılı olmayaraq ələ keçən türkü qətlə yetirməli" tələbinə əməl edən silahlı ermənilər Gəncənin Zağalı kəndinə hücum edib 15 nəfər qadın və uşağı vəhşicəsinə öldürmüşlər.

Göyçə mahalında etnik təmizləmə aparmışlar. 20 kənddə 15 min evi talan etmişlər.

**6 yanvar 1920-ci il** - Naxçıvanın Paraça kənd erməniləri qonşu kəndlərdən kömək alaraq Bılax kəndinə hücum etmişlər. 3 saat davam edən döyüşdə 50 kişi, 50 qadın və 25 uşaq öldürülmüşdür.

**7 yanvar 1920-ci il** - Silahlı ermənilər Türkiyənin Donuxlu

kəndinə hücum edib 12 ailənin bütün üzvlərini erməni kəndi olan Zeytuna aparmış, əksəriyyəti qocalar, qadınlar və uşaqlar olan bu girovları nümayişkaranə qətlə yetirmişlər.

**12 yanvar 1920-ci il** - 450 nəfərdən ibarət erməni saqqallıları Türkiyənin Antəpə rayonunun Arabdar kəndinə basqın edib sakinləri qırmışlar.

**19 yanvar 1920-ci il** - Erməni quldurları Şuşa istiqamətinə hücuma keçib qarşılarına çıxan bütün kəndləri qarət etmiş, əllərinə keçən qocanı, uşağı, qadını vəhşicəsinə qətlə yetirmişlər.

**20 yanvar 1920-ci il** - Silahlı ermənilər Zəngəzurun Xocaqan və Qaladərə kəndləri arasındakı bütün yaşayış məntəqələrini darmadağın etmiş, sakinləri qılıncdan keçirirlər.

**21 yanvar 1920-ci il** - 10 min nəfərdən ibarət erməni qoşunu Zəngəzurun Dürdənli bölgəsinə basqın edərək darmadağın, kütləvi qırğın törətmişlər.

**22 yanvar 1920-ci il** - Erməni quldurları Hacı Qərib və Makra azərbaycanlı kəndlərinə hücum edib evləri talan edir. Əl-ayağı tutanlar Burcanarlı kəndində sığınacaq tapır. Böyük Vedidə 3 nəfər qətlə yetirilmiş, 21 ulaq yükü olan əşyalar aparılmışdır.

**23 yanvar 1920-ci il** - Erməni quldurları Ənincəşməz kəndində 5 nəfəri öldürmüş, 600 baş qoyunu və 2 qadını aparmışlar. Kərimqulubəyməzə kəndində isə 2 nəfəri qətlə





yetirmiş, 3 nəfəri yandırmışlar.

**3 yanvar 1935-ci il** - İndiki Ermənistan respublikasının ərazisində görünməmiş tarixi cinayət törədilmiş, kütləvi şəkildə türk mənşəli toponimlərə də təcavüz edərək erməniləşdirməyə başlanmışdır. Sonralar bu, yüzlərcə adların dəyişdirilməsinə səbəb olmuşdur.

**2 yanvar 1947-ci il** - 1872-ci illərdə əsası qoyulub fəaliyyətə başlamış Tiflisdəki Azərbaycan Dram Teatrı gürcü və erməni şovinist millətçilərinin təzyiqi nəticəsində fəaliyyətini dayandırdı.

**27 yanvar 1973-cü il** - Amerika Birləşmiş Ştatlarının Kaliforniya ştatındakı Santa-Barbara şəhərində terrorçu 78 yaşlı Qurgen Yanikyan tərəfindən Türkiyənin Los-Anjeles şəhərindəki Baş konsulu Mehmet Baydar, konsul Bahadır Dəmir qətlə yetirilmişlər.

Ömürlük həbs cəzasına məhkum olunmuş erməni terrorçusu bir neçə ildən sonra səhhətinin ağır olması bəhanəsiylə azadlığa buraxılmışdır.

**2 yanvar 1978-ci il** - "Yeni Erməni Müqaviməti" təşkilatı tərəfindən Belçikanın Brüssel şəhərindəki türk bankı binasında partlayış törədilmişdir.

3 yanvar 1978-ci il - "Yeni Erməni Müqaviməti" təşkilatı tərəfindən terrorçu dəstə Böyük Britaniyanın London şəhərində türk bankına bomba atıb partlayış törətmişdir.

**10 yanvar 1980-ci il** - İranın Tehran şəhərindəki "Türkiyə Hava Yolları" aviakompaniyası binasında daşnaksütyun partiyasının tələbi ilə güclü partlayış törədildi.

**14 yanvar 1981-ci il** - Fransanın Paris şəhərində türk səfiri Əhməd Əlibəylinin maşınında partlayış baş vermişdir. Hadisəni terrorçu Aleks Yenikomeçyan qrupu törətmişdir.

**13 yanvar 1982-ci il** - Kanadanın Toronto şəhərində Türkiyə səfirliyi binasında ASALA təşkilatının üzvü tərəfindən dağıdıcı partlayış törədilmişdir.

**28 yanvar 1982-ci il** - ABŞ-ın Kaliforniya Ştatının Los-Anjeles şəhərində Türkiyə Baş Konsulu Kamal Arıkan iş başında qətlə yetirilmişdir. Livanlı 19 yaşlı qatil Hampiq Susanyan ömürlük həbs edilib, köməkçisi Krikor Saliva isə türmədən qaçıb Livanda gizlənmişdir.

22 yanvar 1983-cü il - Parisdə fransız polisi "Türkiyə Hava Yolları"nın Orli yaxınlığında 1 kq partlayıcı maddə tapmışdır. ASALA məsuliyyəti öz üzərinə götürdü. Terrorçu erməni binaya əl qumbarası atmış, bina zədələnsə də, insan tələfatı olmamışdır.

**25 yanvar 1988-ci il** - Silahlı ermənilərin təzyiqi nəticəsində Zəngəzurun Qafan və Mehri rayonlarından qovulmuş yüzlərcə qaçqın Azərbaycana gəlmişdi.

**2 yanvar 1990-cı il** - Ağdamdan Şuşaya 5 avtobus azərbaycanlı gedərkən ermənilər atəşə tutmuşlar, daşa





basmışlar. 30 nəfəri yaralamışlar.

**3 yanvar 1990-cı il** - Stepanakert şəhərində ermənilər leytenant Əzizovu girov götürmüşlər. Cəmilli kənd sakini 23 yaşlı Yunis Abbasovu, Kərkicahanda isə 2 nəfəri yaralamışlar.

**4 yanvar 1990-cı il** - Erməni terrorçuları Əskəran və Ağdam arasındakı körpünü dağıtmışlar.

**6 yanvar 1990-cı il** - Ağdam şəhər avtovağzalında ermənilər güclü partlayış törətmişlər. 2 azərbaycanlı ölmüş, 2 nəfər isə yaralanmışdır.

**9 yanvar 1990-cı il** - Şuşa şəhərində Hraçik Sərkisyanın başçılığı ilə erməni terrorçuları bir neçə nəfər azərbaycanlını girov götürmüşlər.

**12 yanvar 1990-cı il** - Silahlı ermənilər Todana hücum edib, 4 nəfər azərbaycanlını qətlə yetirmişlər. Həmin vaxt Xanlar rayonunun Quşçu kəndində isə onlarca azərbaycanlı öldürülmüşdür.

**13 yanvar 1990-cı il** - Saqqallı ermənilərin intensiv təzyiqləri nəticəsində Kərki kəndi mühasirəyə alınıb, top və qradlardan intensiv atəşə tutulmuşdur.

**15 yanvar 1990-cı il** - Laçının Hacılar kəndində Allahverdi Əbdüləzimov, Sədərəkdən 1 nəfər, Hacıkənddə 22 yaşlı Hacıyev Səbuhi qətlə yetirilmişlər. Todanda 2, Kərikicahanda 3 nəfəri öldürmüşlər.

**16 yanvar 1990-cı il** - Ermənistandan Goranboyun Şəfəq

kəndinə 9 vertalyot erməni yaraqlısı gətirilib. Todan kəndində 2 azərbaycanlı yaralanıb, bir nəfər qətlə yetirilmişdir. Laçında da 1 nəfər öldürülmüşdür.

**19 yanvar 1990-cı il** – Silahlı ermənilər 20 yanvara keçən gecə Kərki və Sədərək kəndinə hücum etmişlər. Naxçıvana top və qradlardan atəş açılmışdır. Sədərəkdə 10 nəfər qətlə yetirilmişdir. Onların arasında 4 və 6 yaşlı uşaqlar da varmış.

**20 yanvar 1990-cı il** – İkimilyonluq dinc əhaliyə divan tutmaq üçün əksəriyyətini Stavropol və Krasnodar erməniləri təşkil edən sovet ordusu hissələri Bakıya soxularaq misli görünməmiş qırğın törətmişlər. Qanlı Şənbə gecəsində 131 nəfər qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 321 nəfər itgin düşmüş, 841 nəfər isə həbs edilmişdir.

**30 yanvar 1990-cı il** - Erməni terrorçuları 5 nəfər Gədəbəy sakinini girov götürmüşlər. Bir neçə gündən sonra onların meyidi tapılmışdır. Güllü kəndinin sakini Hüseyn Cəfərov da ermənilər tərəfindən oğurlanmışdır.

**9 yanvar 1991-ci il** - Şuşa-Laçın yolunun 5 kilometrliyində erməni terrorçuları "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı Salatın Əsgərovanı, podpolkovnik S.M. Larionovu, mayor İ.U. İvanovu, serjant İ.İ. Qoyeki qətlə yetirmişlər. Həmin yerdə daha 8 nəfər də öldürülmüşdür.

Azərbaycan Ali Məhkəməsinin qərarı ilə canilər M.M.Mkırtıçyan, Q.A.Petrosyan, A.A.Manqasaryan,





Q.M.Harutyunyan və Q.Q.Arustamyan 23 mart 1993-cü ildə ölüm cəzasına məhkum olunmuşlar.

**1 yanvar 1992-ci il**– "Qarabağ" təşkilatının rəhbərliyi ilə silahlı erməni qruplaşmaları Ağdamın Əhmədavar və Çuxurməhlə kəndlərinə basqın etmiş, yerli sakinlərdən bir neçə nəfəri qətlə yetirmiş, 28 nəfəri yaralamışlar. Ermənilər Topxana tərəfdən Şuşanı top atəşinə tutmuşlar. Nəticədə məscid və 7 ev zədələnmişdir.

**4 yanvar 1992-ci il** – Şuşa şəhəri Əsgəranın Şuşikənd kəndindən raket atəşinə tutulmuşdur. Kərkicahanda 2 azərbaycanlı həlak olmuşdur. Sırxavənd, Bağbanlar, Meşəli kəndləri ermənilərin aramsız atəşinə məruz qalmışlar.

**8 yanvar 1992-ci il** – Krasnovodskiyə gedən gəmidə ermənilər güclü partlayış törətmişlər. Nəticədə 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır .

**11 yanvar 1992-ci il** - Erməni yaraqlıları Füzuli rayonunun Cuvarlı, Qoqa, Xocavəndin Axullu kəndlərinə basqın etmişlər. Ölən və yaralananlar olmuşdur.

**15 yanvar 1992-ci il** - Rus hərbçiləri Ordubad ərazisindəki hərbi postdan "Laz" avtobusunu atəşə tutmuşlar. 3 nəfər girov götürülmüş, Əylis kəndində 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**18 yanvar 1992-ci il** – Silahlı ermənilər Şuşanın Nəbilər kəndinə basqın edərək kəndi talamışlar. Ölən və itkin düşənlər

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

də olmuşdur.

**22 yanvar 1992-ci il** - Ermənilər Şuşanın Qeybalı və Ağdamın Xıdırlı kəndinə basqın etmişlər. Ölənlər və yaralananlar olub.

**23 yanvar 1992-ci il** - Şuşaya 10 top mərmisi və 40 "Alazan" raketi atılmışdır. Şəhərdə güclü dağıntılar olmuşdur.

**28 yanvar 1992-ci il** - Erməni terrorçuları tərəfindən Ağdam-Şuşa marşrutu ilə uçan vertolyot vurulmuşdur. Əksəriyyəti qadın və uşaqlar olan 47 nəfər sərnişin, o cümlədən bir ailə həlak olmuşdur.





## FEVRAL AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

***Ermənilər qara günlərin törədiciləri adlandırsaq yanılmarıq. Qafqazda, Yaxın Şərqdə elə bir qanlı hadisə yoxdur ki, orada erməni barmağı olmasın. Onlarca, yüzlərcə belə misallar çəkmək olar. Hələ Qarabağ hadisələri ərəfəsində Muxtar Vilayətin lider ermənilərindən biri A.Manuçaryan mitinqlərin birində bəyan etmişdi ki, türkləri bizə güllə atmağa məcbur edəcəyik.***

***A. Qalstyan isə onun səsinə səs verərək, daha dərinə gedir və ermənilərə deyir ki, heç vaxt türk dövləti olan Azərbaycanın qoyduğu qayda-qanuna tabe olmayın.***

***Erməni öncülləri daim belə olub, indi də belədirlər. Onlar öz mənfur çağırışları ilə milləti həmişə ölümə sürükləyirlər. Ancaq son anlarda da həmişə uduzurlar.***

***Budur, yalnız fevral aylarında ermənilərin türklərə qarşı törətdikləri cinayətlərdən bir neçəsi:***

**5 fevral 1905-ci il** - Bakı şəhərinin Sabunçu qəsəbəsində Ağa Rza Babayev, həmçinin Realni və texniki peşə məktəbinin 7-ci sinif şagirdləri Yakov Lebedyev, İvan Volkov öldürülmüşlər.

Erməni alimi C.Libarityanın yazdığına görə, (1904-1906) erməni terrorçuları 105 nəfəri qətlə yetirmişlər.

**6 fevral 1905-ci il** - Bakının Mixaylovski şəhər xəstəxanasında milyonçular B.Lalayev, A.Babayants, İ.Ter-Osipovun təhriki ilə 18 nəfər öldürülüb, 33 nəfər yaralanıb. Onların 34 nəfəri azərbaycanlı olub.

**7 fevral 1905-ci il** - Bakıda erməni terrorçuları tərəfindən 100 nəfərə yaxın azərbaycanlı qətlə yetirilib.

**6-9 fevral 1905-ci il** - Bakıda "erməni-müsəlman" qırğını ayın 6-da başlandı. Ermənilər Babayevi öldürdüklərinə görə, azərbaycanlılar da erməni Artyomu öldürürlər. Bu kütləvi qırğına səbəb olur. Həmin gün hər iki tərəfdən 13 nəfər qətlə yetirildi. Bakı qubernatoru Nakaşidze qırğının qarşısını almaq əvəzinə gizli surətdə hər iki tərəfi silahlandırırdı.

**20-21 fevral 1905-ci il** - İrəvan şəhərində quruplaşmış erməni dəstələri daşnaksütyun təşkilatının rəhbərliyi ilə görünməmiş qırğınlar törətmiş, müsəlmanlar vəhşicəsinə qətlə yetirilmişlər.

**21 fevral 1914-cü il** - Türkiyənin Qars və Ərdəhan şəhərlərində Türkiyə Parlamentinin deputatı "Hınçaq" təşkilatının üzvü Stepan Ter-Danelyanın rəhbərliyi ilə 30 minə qədər türk qətlə yetirilmiş, körpələri odda yandırmışlar.

**Fevral 1915-ci il** - Rus qoşununun Van şəhərini tez zəbt etməsi üçün ermənilər qiyam qaldırmış, türk kişilərinin





cəbhədə olduğundan istifadə edərək kəndlərə hücum edib qadın və uşaqları qırmışlar. Van şəhərinin müsəlman məhəlləsini yandırmışlar.

**12 fevral 1918-ci il** -Türkiyənin Ərzurum şəhər dəmiryol stansiyasında erməni silahlıları 10 nəfər günahsız türk sakinlərini güllələmişlər.

**17 fevral 1918-ci il** - Türkiyənin Təpəköy kənd sakinləri cinsindən və yaşından asılı olmayaraq bütünlüklə Andranikin başçılığı ilə qılıncdan keçirilmişdir.

**20 fevral 1918-ci il** - Ərzurumda ermənilər 270 türkü Yakutiya qarnizonunun hamamına doldurub öldürmüşlər.

**25 fevral 1918-ci il** - Ərzurum dəmiryol stansiyasında erməni quldurları 10 türkü qətlə yetirmişlər.

**5 fevral 1919-cu il** - Saqqallı silahlı ermənilər Abdulluq kəndinə daxil olub 25 uşağı, 15 qadını, 50 kişini vəhşicəsinə öldürmüşlər. Abdulyan kəndində isə 144 evi yandırıb, 560 kişini, 15 qadını, 25 uşağı, Gilani-Turani kəndində 10 kişini, 1 qadını və 1 uşağı qətlə yetirib, yandırmışlar.

**6 fevral 1919-cu il** - Erməni quldurları Mehman kəndinə hücum edib 29 kişini, 10 qadını, 12 uşağı öldürmüş, 37 evi yandırmışlar.

**7 fevral 1919-cu il** - Kelantı kəndinə hücum edən erməni quldurları 15 kişini, 3 qadını, 5 uşağı qətlə yetirmiş, meyidləri təhqir etmişlər.

**8 fevral 1919-cu il** - Qaramanlı kəndində erməni başkəsənləri daşnaksütyun təşkilatının rəhbərliyi ilə 15 uşaq və 36 qadını qətlə yetirmiş, 80 nəfəri diri-diri torpağa basdırmışlar.

**2 fevral 1920-ci il** - Türkiyənin Şuragəl şəhərinə erməni quldurları basqın edib, 1350 nəfəri qətlə yetirmişlər. Daşnakçılar Zaruşat şəhərinə də basqın edib, 2 min 150 nəfəri qətlə yetirmiş - suda boğmuşlar.

**6-7 fevral 1920-ci il** - Silahlı ermənilər qəflətən Qarğabazar kəndinə hücum edib 26 uşaq, 34 qadın, 13 kişini öldürmüş, 38 kişi və 15 qadını girov aparmışlar. Evləri qarət edib tamamilə yandırmışlar. Gəncə qəzasının Şişqaya, Sadarağac və Hacı Qəriblər kəndlərini talan ediblər. Dağlara qaçanların 30 nəfəri soyuqdan donub ölmüşdür.

**10 fevral 1920-ci il** - "Osmanlı" arxiv sənədlərinə əsasən Türkiyənin Çıldır sahəsində daşnakçıların iştirakı ilə 100 nəfər türk qəddarcasına qətlə yetirilmişdir.

**28 fevral 1920-ci il** - Daşnaksütyün təşkilatının rəhbərliyi ilə Türkiyənin Pozantı şəhərində 40 nəfər türk öldürülmüşdür.

**7 fevral 1975-ci il** - Beyrut şəhərində Türkiyə Məlumat Agentliyinin və Türkiyə Turizm Bürosunun binasında bomba partladılmış livanlı polis işçisi yaralanmışdır.

ASALA-nın "Dustaq Qurgen Yanikyan Qrupu" hadisədə məsuliyyəti öz üzərinə götürmüşdür.

**20 fevral 1975-ci il** - Beyrutda "Türkiyə Hava Yolları" Avia





kompaniyasının nümayəndəliyi qarşısında maddi ziyana səbəb olan bomba partladılmış, məsuliyyəti "Dustaq Qurgen Yanikyan Qrupu" öz üzərinə götürmüşdür.

**16 fevral 1976-cı il** - Beyrut şəhərində Türkiyə səfirliyinin birinci katibi Oktar Cirit Hampa küçəsindəki barda qətlə yetirilib. ASALA məsuliyyəti öz üzərinə götürüb.

**2 fevral 1980-ci il** - Brüssel şəhərindəki "Türkiyə Hava Yolları" və "Aeroflot" aviakompaniyalarının binası qarşısında bir-birindən beş dəqiqə sonra bomba partlayışları baş vermişdir.

**6 fevral 1980-ci il** - Berndə Türkiyə səfiri Doğan Türkməni erməni terrorçusu Maks Klinçyan yaralamışdır.

**2 fevral 1983-cü il** - Brüsseldə "Türkiyə Hava Yolları" aviakompaniyasının nümayəndəliyində "Yeni Erməni Müqavimət Təşkilatı"nın qoyduğu bomba partlayışı baş vermişdir.

**28 fevral 1983-ci il** - Parisdə Türkiyənin "Marmara" Səyahət Bürosunun binasında ASALA təşkilatı tərəfindən bomba partlayışı baş vermiş, 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**12 fevral 1988-ci il** - DQMV -nin Ermənistana verilməsi tələbi ilə Stepanakertdə ermənilərin ilk mitinqi keçirilmişdir. \

**21 fevral 1988-ci il** - DQMV-nin Xalq deputatlarının növbədən kənar sessiyası Azərbaycanın Konstitusiyasını

pozaraq, vilayəti Ermənistana birləşdirmək haqqında qərar qəbul etdi.

**22 fevral 1988-ci il** - Əsgəran qəsəbəsi yaxınlığında toqquşma baş vermiş, 2 azərbaycanlı öldürülmüş, 19 nəfər yaralanmış, bir gün ərzində Stepanakertdən 3 min azərbaycanlı qovulmuşdur.

**23 fevral 1988-ci il** - Ermənilər Dağlıq Qarabağa yaxın olan Qafanda yaşayan minlərlə azərbaycanlını döyüb incidərək dədə-baba yurdlarından qovmuşlar.

**27 -29 fevral 1988-ci il** - Təhrikçi ermənilər Sumqayıtda da kütləvi qırğın törətdilər. Erməni Eduard Qriqoryan təkbaşına 7 erməni öldürmüşdü. Ümumiyətlə, 32 nəfər həlak olmuş, 400 nəfər isə yaralanmışdır.

**Fevral 1990-cı il** - Qarabağ hərbi komendantlığının verdiyi məlumata görə, Dağlıq Qarabağa bitişik rayonlarda 61 nəfər öldürülmüşdür. Onların 13 nəfəri hərbçi idi.

**18 fevral 1990-cı il** - Şuşa-Bakı avtobus reysində partlayış baş verib, 13 nəfər yaralanıb. Terror işi törətmək üçün Azərbaycana 400 erməni və erməni mənşəli terrorçu göndərilmişdir.

**3 fevral 1991-ci il** - İcevanın Sevkar (Qaradaş) kəndindən ermənilər Qazax rayonunun Sofulu kəndini avtomat silahlardan atəşə tutmuşlar.

**7 fevral 1991-ci il** - Ağdam - Mardakert yolunda ermənilər





avtomaşını gülləyə tutub, milis rəisinin müavini İ.Məmmədovu yaralamışlar.

**8 fevral 1991-ci il** - Erməni quldurları Füzuli rayonunun Yuxarı Veysəlli kənd sakini Q.Vəliyevi yaralasalar da, onu girov apara bilməmişlər.

**9 fevral 1991-ci il** - Erməni quldurları Xocalı sakini N.Zamanovu yaralamışlar.

**10 fevral 1991-ci il** - Erməni casusu E.Yesayan Xocalı ərazisində yaxalanmış, onun üstündən partlayıcı maddə, mitinq kasetləri, Azərbaycanın əleyhinə yazılmış çoxlu ədəbiyyat tapılmışdır.

**17 fevral 1991-ci il** - Yeğcaoq erməniləri tərəfindən Şuşanın Göytala kəndi aramsız atəşə tutulmuşdur.

**19 fevral 1991-ci il** - Mardakertin Talış kəndindən bir qrup silahlı erməni Tapqaraqoyunlu kənd çobanı İ.Paşayevə hücum edib 100 baş qoyunu aparmışlar.

**20 fevral 1991-ci il** - Silahlı erməni quldurları Xanlar rayonunda Vaqif adına sovxozun direktoru Gürzalı Musayevi və sürücü D.İmanovu vəhşicəsinə qətlə yetirmişlər.

Laçın-Yevlax yolunda hərbçilər və erməni milisləri maşını yoxlayıb yola saldıqdan sonra, 300-400 metr keçməmiş, maşında partlayış olub, 2 azərbaycanlı qətlə yetirilib.

**24 fevral 1991-ci il** - Ermənilər Laçın-Yevlax yolunda Şuşadan Ağdama gedən 64-90 AQF maşınına həmlə etmiş,

sürücü E.Əliyev və 6 nəfər sərnişin ağır yaralanmışdır.

**25 fevral 1991-ci il** - Erməni vəhşiləri Cəmilli kəndinin 14 yaşlı sakini Elşən Sadiqovu vəhşicəsinə qətlə yetirmişlər.

**7 fevral 1992-ci il** - Erməni yaraqlıları Papravənd yaxınlığındakı "Qarabağ" sovxozuna hücum edib 200 baş qoyun aparmışlar.

**9 fevral 1992-ci il** - Ermənilər Stepanakertdəki 81-ci alayın əsgərləri ilə Malıbəyli kəndinə hücum edib 1 nəfəri öldürüb, 16 nəfəri isə yaralamışlar.

**12 fevral 1992-ci il** - Ermənilər Quşçular və Malıbəyli kəndinə soxularaq bütün evlərə od vurub talan edirlər. Ölən və yaralananlar barədə məlumat verilmir.

**13 fevral 1992-ci il** - Ermənilər Malıbəyli və Quşçular kəndini zəbt etdikdən sonra Xocalını top və raketlərdən atəşə tutmuşlar. Gəncə yaxınlığından 38-ci diviziyanın əsgərləri avtomatlardan atəş açaraq 3 nəfəri yaralayıb və onları girov aparmışlar. Silahlı ermənilər Qaradağlı kəndinə hücum edib kütləvi qırğın törətmişlər. 90 azərbaycanlı girov götürülüb, onlardan 41-i qadın olub. 200 nəfər qətlə yetirilib.

**16 fevral 1992-ci il** - Şuşa güclü top atəşinə tutulub. Ermənilər Əlibəyli kəndi yaxınlığındakı zastava komandirini Berd rayonuna çağırıb öz tərəflərinə keçməyi tələb etmişlər.

Sədərək yaxınlığında rus əsgərləri öz postlarını ermənilərə təhvil vermişlər.





**19 fevral 1992-ci il** - Ermənilərin silahlı quldur birləşmələri Qafan rayonundan Qubadlı rayonuna hücum etmiş, 2 əsgər qətlə yetirilmiş, 5 nəfər yaralanmışdır. Əliquluuşağı kəndi yaxınlığındakı zastavadan 2 BTR, 2 top və 400 baş mal-qara aparmışlar. Tərtər rayonu güclü raket atəşinə tutulub, İ.Cəlilov ölmüş, E.Məmmədov itkin düşmüşdür. Şuşada 35 ev dağıdılmış, E.Əhmədov yaralanmışdır. Naxçıvanda general Slaboşeviçin yavəri avtomatla 2 nəfəri yaralamışdır. Şuşa güclü top atəşinə tutulmuş, onlarca ev dağıdılmışdır.

**21 fevral 1992-ci il** - Gəncədə rus desantçıları 2 nəfəri avtomatla qətlə yetirmiş, şəhərdən 23-cü diviziyanın 22041 saylı hərbi hissəsi texnikası ilə çıxarılmışdır.

**22 fevral 1992-ci il** - Şuşa Xankəndi və Topxanada yerləşdirilmiş PDM-lərdən atəşə tutulub. Xocalı da atəşə tutulub. Nəticədə 3 nəfər həlak olub, 9 nəfər yaralanıb.

Cəmilli kəndində ermənilərin silahlı basqını nəticəsində 2 polis qətlə yetirilib, 4 nəfər yaralanıb. Erməni yaraqlıları Füzuli rayonunun Veysəlli kəndinə 4 PDM, 4 ZTR və T-72 tankı ilə hücuma keçib, 8 nəfəri qətlə yetirmişlər.

Yuxarı Veysəlli kəndinə ermənilər hücum etmiş, 3 nəfəri öldürmüş, 12 nəfəri isə yaralamışlar. 3 nəfər itgin düşmüşdür. Qubadlı rayonunun Məlikəhmədli kəndinə hücum nəticəsində 1 nəfər həlak olmkuş, 2 nəfər yaralanmışdır.

**23 fevral 1992-ci il** - Erməni yaraqlıları uzaqvuran toplarla

Şuşanı atəşə tutmuşlar. 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmış, 12 ev tamamilə dağıdılmışdır.

**26 fevral 1992-ci il** - Tərtərin Qapanlı, Qaradağlı, Əskipara, Seyidimli kəndlərini ermənilər aramsız atəşə tutmuş, 4 nəfəri qətlə yetirmiş, 9 nəfəri isə yaralamışlar.

Gecə saat 12-dən başlayaraq 366-cı alayın köməkliyi ilə ermənilər əvvəlcə Xocalı aeroportunu tutmuş, yaxın evlərə od vurub yandırmış, adamları tankların altına salıb əzmişdilər.

**28 fevral 1993-cü il** - Rusiyanın Qudermes dəmiryolu stansiyasında ermənilər Kislovodski -Bakı qatarında partlayış törətmişlər. Nəticədə 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**1 fevral 1994-cü il** - Bakı dəmiryolu stansiyasında erməni terrorçuları Kislovodsk-Bakı sərnişin qatarındakı törətdikləri partlayış nəticəsində 3 nəfər ölmüş, 20 nəfər yaralanmışdır.

**9 fevral 1994-cü il** - Erməni terrorçuları Xudat dəmiryolu stansiyasında sərnişin vaqonlarında partlayış törətmişlər.

1988-1994-cü illərdə 18 mindən çox vətəndaşımız həlak olmuş, 50 mindən çoxu yaralanmış və şikəst olmuşdur. Qaçqın və məcburi köçkünlərin sayı 1 milyondan çoxdur. 4959 nəfər itkin düşüb, onların 71-i uşaq, 326 qadın, 358 isə yaşlıdır.

***

**6 fevral 1905-ci il** - Erməni-müsəlman qırğını başlayır, üç gün davam edir və 13 nəfər azərbaycanlı qətlə yetirilir.





**6-7 fevral 1920-ci il** - Ermənilər Qarğabazar kəndinə hücum edir 26 uşaq, 34 qadın, 13 kişi qətlə yetir, 38 kişi və 15 qadını girov aparmışlar.

**12 və 21 fevral 1988-ci il** – Ermənilər Xankəndində (Stepanakert) ilk mitinq və DQMV-in Ermənistana birləşdirilməsini tələb etmişdilər.

**22 fevral 1988-ci il** - ermənilər ağdamlı Əlini və Bəxtiyarı qətlə yetirmiş 19 nəfəri yaralamışlar. Stepanakertdən 3 min azərbaycanlını silah gücünə qovmuşlar.

**27-29 fevral 1988-ci il** - Eduard Qrikoryan Sumqayıtda 7 erməni qətlə yetirmiş və bu da Sumqayıt iğtişaşına səbəb olmuş, nəticədə 32 nəfər qətlə yetirilmiş, 400 nəfər yaralanmışdır.

**24 fevral 1991-ci il** - ermənilər Cəmilli kəndinə basqın etmiş, 14 yaşlı Elşən Sadıqovu qətlə yetirmişlər.

**7 fevral 1992-ci il** - silahlı ermənilər "Qarabağ" sovxozuna basqın edib 200 baş qoyunu aparmışlar.

**9 fevral 1992-ci il** - Malıbəyliyə hücum edən ermənilər bir nəfəri qətlə yetirmiş, 16 nəfəri isə yaralamışlar.

**22 fevral 1992-ci il** - ermənilər Füzuli rayonunun Veysəlli kəndinə hücum edir və 8 nəfəri qətlə yetirirlər.

**26 fevral 1992-ci il** - Xocalı hadisəsi baş verir. 335 nəfər şəhid olur, (33 uşaq, 106 qadın) 487 nəfər ömürlük şikəst olur.

150 nəfər itgin düşür. 1000 nəfər girov aparılır, 2 uşaq hər iki valideynini itirib.

## MART AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**1918-ci ilin martında** Dronun başçılığı ilə ermənilər İrəvan quberniyasında 24 azərbaycanlı kəndini darmadağın edib.

**01 mart 1918-ci il** - Bakı şəhərində 10 mindən çox azərbaycanlı qəddarcasına qətlə yetirilib.

**01 mart 1992-ci il** - Xocalı qırğınından sonra əsirlərdən 120 nəfəri güllələnib.

**02 mart 1977-ci il** - Asala terror təşkilatının üzvləri Livanda Türkiyə səfirliyinin hərbi və inzibati attaşeləri Nahid Karakaya və İlhan Özbabacana məxsus maşınları partladıblar.

**03 mart 1988-ci il** - Bakının Xutor qəsəbəsində erməni milisi bir azərbaycanlını qətlə yetirib.

**03 mart 1992-ci il** - Xocalı faciəsi zamanı girov götürülmüş azərbaycanlıların 70 nəfərini güllələyiblər.

**04 mart 1981-ci il** - Fransada Türkiyə səfirliyinin əmək üzrə attaşesinə basqın edilib və bir nəfər odlu silahla qətlə yetirilib.

**04 mart 1992-ci il** - Ağdam müdafiə batalyonundan 7 əsgər həlak olub, 10 nəfər yaralanıb, 2 nəfər itgin düşüb.

**08 mart 1918-ci il** - Bir dəstə erməni qulduru Nehrəm





kəndinə hücum edib, bir neçə nəfər azərbaycanlını qətlə yetirib.

**08 mart 1992-ci il** - Ermənilər Ağdam-Əsgəran arasındakı Qaraqaya postuna hücum edib, iki döyüşçünü qətlə yetiriblər.

**09 mart 1983-cü il** - Yuqoslaviyada Türkiyənin səfiri Qalib Balkar iki erməni tərəfindən qətlə yetirilib.

**10 mart 1918-ci il** - Naxçıvan şəhərində bir qadın qətlə yetirilib.

**10 mart 1980-ci il** - Romada "Türkiyə Hava Yolları" yerləşən binanın qarşısında ermənilər iki bomba partladıblar. Nəticədə iki nəfər həlak olub və 14 nəfər ağır bədən xəsarəti alıb.

**10 mart 1988-ci il** - Ermənilər Masis (Zəngibasar) rayonunun Mehmandar kəndində 5 nəfər azərbaycanlını qətlə yetiriblər.

**10 mart 1991-ci il** - Martuni rayonunun Qaradağlı kəndinə hücum edərək fermada iki nəfəri qətlə yetiriblər.

**11-12 mart 1918-ci il** - Silahlı ermənilər Ərzurumda 3 minə yaxın türkü bir yerə yığıb və iki gün ərzində onları bir-bir qətlə yetiriblər.

**12 mart 1981-ci il** - İranda naməlum ermənilər Türkiyə səfirliyinə basqın edib və səfirliyin iki keşikçisini qətlə yetiriblər.

**12 mart 1985-ci il** - Kanadada 3 erməni dişinə qədər silahlanıb Türkiyə səfirliyinə basqın edib. Gözətçi öldürülüb.

Səfirliyi 4 saat girov saxladıqdan sonra terrorçular təslim olublar.

**12 mart 1992-ci il** - Ağdam şəhəri artilleriya atəşinə tutulub. Nəticədə 11 nəfər həlak olub və 30 nəfər yaralanıb.

**13 mart 1918-ci il** - Naxçıvanın Zaviya kəndinə silahlı basqın olub və bir neçə nəfər qətlə yetirilib.

**14 mart 1991-ci il** - Ağdam-Şuşa marşrutu ilə işləyən sərnişin avtobusu Əsgəran yaxınlığında atəşə tutulub, 3 nəfər həlak olub, 2 nəfər yaralanıb.

**14 mart 1992-ci il** - Ağdam rayonunun Baş Güneypəyə kəndində 10 nəfər qətlə yetirilib. Şuşa "Qrad"larla atəşə tutulub, 15 ev yanıb, 20 ev dağılıb, 10 nəfər isə müxtəlif dərəcədə xəsarət alıb.

**16 mart 1918-ci il** - Naxçıvanda 1 qadın və bir kişi qətlə yetirilib. Qaraxanbəyli kəndində də bir neçə nəfər öldürülüb.

**17-21 mart 1918-ci il** - Ermənilər rus matros və əsgərləri ilə birləşərək Bakının Şamaxı yolunda, Qoşaqala qapısında, Gənclər meydanında 10 min müsəlmanı (çoxu qadın və uşaq olub) qətlə yetiriblər.

**18-28 mart 1918-ci il** - Şamaxı şəhərində ermənilər 5 minə qədər qadın və uşağı iki məscidə doldurub od vurublar.

**20 mart 1918-ci il** - Tatevos Əmirov 3 erməni yaraqlısı ilə "İsmailliyə" soxularaq oranı yandırıb. İşçiləri güllələyib. "Açıq söz" redaksiyası və "Kaspi" mətbəəsini də yandırıblar.





**21-23 mart 1918-ci il** - Erməni yaraqlıları üç gündə Naxçıvanın Zaviya, Əlixanlı, Xoşlu kəndlərinə basqın edərək talayıb bir nəfəri də öldürüblər.

**22 mart 1982-ci il** -ABŞ-ın Boston şəhərindəki Türkiyənin Fəxri Konsuluna məxsus hədiyyələr mağazası ermənilərin atdıqları bomba ilə partladıldı və sahibi Orhan Gündüz yaralanıb.

**23 mart 1919-cu il** - Silahlı ermənilər Xankəndindəki hərbi hissəyə, Abdal Gülablı, Malıbəyli və Əsgəran kəndlərinə hücum edib xeyli adam öldürüblər.

**24 mart 1990-cı il** - Ermənilər Qazax rayonunun Pirili kənd sakini Məcid Əhmədovu, 75 yaşlı Dadaş Əliyevi, həyat yoldaşı Pakizəni, qızları Havaxanım və Alyanı vəhşicəsinə öldürüblər. 2 yaşlı Pərvizi parça-parça edib yandırıblar. Almənımməd Məhərrəmovu öldürüb ot tayasına qoyub sonra tayaya od vurublar. Çaylı kəndindən də həmin gün 3 nəfəri qətlə yetiriblər.

**25 mart 1988-ci il** - Vedibasarın Şirazlı, Xalisə, Şidli kəndlərinə silahlı basqın edilib, Seyid Ağbal ağa daşqalaq edilib, südəmər körpə tapdanaraq öldürülüb, onlarca azərbaycanlı xəsarət alıb.

**26 mart 1982-ci il** - Livanda türk kinosu nümayiş etdirilərkən kinoteatr partladılıb, 2 nəfər qətlə yetirilib, 16 nəfər isə ağır bədən xəsarəti alıb.

**28 mart 1984-cü il** - İranda bir neçə erməni türk obyektlərinə hücum edib, bombalayıb, maşınları yandırıb, 2 nəfəri də yaralayıblar.

**28 mart 1990-cı il** - Naxçıvanın Gərməçataq kəndinə silahlı basqın edilib, 9 ev yandırılıb, Vəli Zeynalov öldürülüb.

**29 mart 1990-cı il** - Sədərək kəndi atəşə tutulub, 12 yaşlı qız uşağı qətlə yetirilib.

**31 mart 1918-ci il** - Naxçıvanın Binənikar, Qızılca, Saltax, Noraşen, Xoşkəşen kəndləri hücuma məruz qalıb, əhalinin əksəriyyəti öldürülüb.

**31 mart 1991-ci il** - 500 erməni Qazağın Xeyrimli kəndinə basqın edib, bir sakin, bir hərbi qulluqçu yaralanıb.

**24 mart 1921-ci il** - Soğomot Tehlaryan Berlinin küçələrinin birində Tələt paşanı güllə ilə qətlə yetirib. Həbs olunub. Məhkəmədən 24 saat sonra o, azadlığa buraxılıb.

Beləliklə, əldə etdiyimiz faktlara görə, ermənilərin çirkin əməlləri nəticəsində yalnız mart aylarında 28.256 nəfər türk qətlə yetirilmiş, yüzlərcə adam ağır bədən xəsarəti almış, yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, yandırılmışdır.

***

Demək, nə qədər ki, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonu "sahib" çıxmış ermənilərin gölünə daş atılmayıb Türk dünyasının başı bir o qdər də qalmaqalda olacaq.

Axı ermənilər bir yandan terror aksiyalarını artırır, bir





yandan isə türklərin qoltuğuna girib öz fəaliyyətlərini davam etdirirlər. Ermənilərin Türkiyədə dini lideri Mutafyan 43 Qrikoryan kilsəsinin fəaliyyətinə rəhbərlik edir. Onların öz mətbuat yayımları, fondları, xəstəxanaları, məktəbləri var. Erməni və türk dillərində gündəlik işıq üzü görən "Zamanaq" ("Zaman"), "Nor Marmara" ("Yeni Mərmərə"), 5 min tirajla çap olunan həftəlik "Aqos" ("Şırım") qəzetləri, 8 min tirajla işıq üzü görən "Lraber" ("Xəbər") bülleteni (pulsuz paylanır), erməni dilində çap edilən 6 jurnal erməni oxucularının istifadəsinə verilir və ermənilərin problemləri qabardılaraq dərc edilib ermənilərə çatdırılır. 19 erməni məktəbi fəaliyyət göstərir və onlara onlarca daşnaksütyun ermənisinə dərs deyirlər.

Mutafyan gəmidə oturub gəmiçi ilə döyüşür. İndi də Türkiyə Universitetindən birində xristian Teoloji Bölümünün açılmasını, türk ordusunda və polisində ermənilərin yüksək vəzifədə xidmət etməsini tələb edir.

Fransız Qraf de Şole deyib: "Ermənilərin yoxsulluğunu və iztirablarını görəndə qəlbimdə çox böyük mərhəmət hissi oyansa da, onlara heç vaxt qanım qaynamırdı. Çünki onlarda mənfur bir biclik, biabırçı bir əclaflıq və rüsvayçı bir alçaqlıq vardı".

*31 mart azərbaycanlıların soyqırımı günüdür*

## Ermənilərin niyyətləri hardan qaynaqlanır

XIX əsrin əvvəllərinədək türklərin, o cümlədən azərbaycanlıların himayədarlığı ilə özlərinin fiziki mövcudluqlarını tam təminatlı saxlayan ermənilərin sonra ənənəvi xəyanət yollarını davam etdirərək başqa dövlətlərin əlində alətə çevrilmələri bəşəriyyətin məkrli olayları sırasında bəlkə də öndə durur. Əsası İsrail Ori tərəfindən qoyulan ifrat erməni şovinizminin sözügedən əsrin əvvəllərindən başlayaraq terrorla müşayiət olunan separatizminin kökündə Türkiyə və Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq dururdusa, buna rəvac verənlərin əsas məqsədi daha çox məhz I Pyotrun ideyasını gerçəkləşdirmək olmuşdur.Tarixə “erməni xəstəliyi” kimi daxil olan “Böyük Ermənistan” xülyasını reallaşdırmaq üçün, guya türklər tərəfindən soyqırıma məruz qaldıqlarını antitürk qüvvələrin fəaliyyət proqramının tərkibinə daxil etdirmək üçün, heç bir xalqın özünə rəva bilmədiyi çirkin vasitələrdən istifadə edən ermənilərin çar Rusiyasının siyasəti ilə 1840-cı ildə ləğv edilmiş Azərbaycan xanlıqlarının yerində quberniyalar yaradılarkən İrəvan və Naxçıvan xanlıqlarına mənsub ərazilərin bir hissəsində “erməni vilayətinin”





yaranmasından sonra separatçı iddiaları daha da artmış və onlar bundan ruhlanaraq yeni iştahalara düşmüşlər. Özlərini daim çarın sadiq təəbələri kimi qələmə verən bu tayfanın xalq statusunu almasının ilkin amillərindən biri də məhz türklərə, müsəlmanlara qənim kəsilmələri olmuşdur. Bu qanlı olaylar 1905-1907, 1918-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində, 1915-ci ildə isə Türkiyənin bir çox əyalətlərində kütləvi şəkildə həyata keçirilmişdir. 1915-ci ildə Türkiyənin I Dünya Müharibəsinə cəlb edilməsi ermənilərin özgə torpaqları hesabına dövlət yaratmaq niyyətlərinin hərəkətverici qüvvəsi olmuşdur. Belə ki, bir neçə dövlətin, o cümlədən Rusiyanın Türkiyəyə qarşı müharibə etməsi ermənilər üçün çoxdan gözlənilən əlverişli tarixi məqam idi və onlar bundan maksimum bəhrələnməyə can atırdılar.

1915-ci ildə erməni vəhşiliyinin tüğyan etdiyi Vanda, Trabzonda, Ərzurumda, Ərzincanda, Vitlisdə yaşayan 3 milyon 300 min türk əhalidən müharibədən sonra 600 min adamın qaldığını özünün “Osmanlı imperiyasının tarixi” kitabında təəccüblə yazan Amerika tarixçisi Stenford S.Şoun onu da vurğulayır ki, erməni quldur dəstələri kürdlər yaşayan kəndlərə də basqınlar edir, qadınlara, qocalara, uşaqlara aman vermədən bütün əhalini qılıncdan keçirirdilər. Minlərlə türk və kürd kəndlisi tikə-tikə doğranır, yandırılırdı.

Bu vəhşiliklər, əlbəttə, Osmanlı hökumətini təcili tədbirlər

görməyə vadar etməyə bilməzdi və ali baş komandanlığın əmri ilə 24 aprel 1915-ci ildə Daxili İşlər Nazirliyi İstanbulda və Türkiyənin digər iri şəhərlərində bütün erməni komitələrinin, terror təşkilatlarının dərhal bağlanması haqqında sərəncam vermişdi. “Dinc ermənilərin” imperiyanın içərisinə köçürülməsi isə heç də soyqırım deyildi, əksinə bu, onların erməni terrorçu dəstələrindən və ölkədəki işğalçı qüvvələrdən qorunması məqsədinə hesablanmış zərurət idi.





## ERMƏNİLƏRİN SİYASİ ŞƏRAİTƏ UYĞUN MANEVRLƏRİ

Tarixi mənbələrdən məlumdur ki, rəşadətli türk qoşunlarının sarsıdıcı zərbələrinə duruş gətirə bilməyən çar qoşunları həm də 1917-ci il inqilabının təsiri altında geri qayıdarkən onlarla birlikdə minlərlə erməni əsgəri də Zaqafqaziyaya keçmiş və bu dəfə Azərbaycan ərazilərində nizami ordu halında qırğınlar törətməyə başlamışlar. Həmin hərbi birləşmələrin bir qolu da artıq Bakıda siyasi hakimiyyəti qamarlayan Şaumyanın tabeliyində olmuşdur. Erməni siyasətində bir məqamı da nəzərə almaq lazımdır ki, onlar siyasi şəraitə uyğun manevrləri heç bir əxlaq gözləmədən həyata keçirirlər. Şaumyan da minlərlə daşnak əsgərini kommuna bayrağı altına toplamaqla əslində hakimiyyət bolşeviklərin deyil, daşnakların əlində olmasını reallaşdıra bilmişdi. Məhz bu siyasətin nəticəsi idi ki, Bakı kommunasının silahlı dəstələrinin mütləq əksəriyyətini ermənilər təşkil edirdi. Ruslardan ibarət dəstələrin isə komandir heyəti əsasən erməni zabitlərdən, yaxud bolşevik-daşnaklardan ibarət olmuşdur. Bütün bunların nəticəsində təkcə Bakıda 30 mindən artıq azərbaycanlı xüsusi amansızlıqla öldürülmüş, Şamaxı qəzasının 58 kəndi yandırılmış, 8 mindən çox adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının

122 kəndi yerlə-yeksan edilmiş. Qarabağın dağlıq hissəsində 15—dən çox, Zəngəzurda 115 azərbaycanlı kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə qəddarcasına divan tutulmuşdu.

İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış və yandırılmışdır. O vaxt İrəvan azərbaycanlılarının müraciətlərində göstərilmişdir ki, bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 1920 azərbaycanlı evi yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir.

Belə bir şəraitdə "Böyük Ermənistan" ideologiyasının silah gücünə həyata keçirilməsi təkcə bolşevik daşnakların deyil. Rusiyada hakimiyyətdə olan sovetlərin də marağına uyğun idi. Bütün bunlarla yanaşı gələcək faciələrin baş verə biləcək ardıcıllığında xalqımızın durumu məlum idi.

Belə ki, uzun illər hərbi xidmət keçməyən, əsasən dini xürafatın tələbi ilə formalaşan psixologiya sahiblərinin çağdaş siyasi proseslərdən xəbərdar, peşəkar hərbi təlim keçmiş ifrat millətçi psixologiyaya mənsub düşmənlə üz-üzə dayanması qorxulu idi. 1918-ci il martın sonlarında çoxdan gözlənilən bəhanə ilə Bakıda müsəlmanlara qarşı əsil soyqırımı həyata keçirən ermənilərin daha sonra kommuna bayrağı altında paytaxta yaxın ərazilərdə də analoji aksiyalar keçirməsi Azərbaycan xalqının tarixinə soyqırımı kimi düşsə də dünya ictimaiyyəti soyqırımı törədənləri - erməniləri həmişə məzlum, əzabkeş xalq kimi tanımışdır ki, bunun da əsas səbəbi





ermənilərin davamlı təbliğatının öz ünvanına çatması olmuşdur.

Onu da unutmağa haqqımız yoxdur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 15 iyul və 31 avqust 1918-ci il tarixli qərarlarına əsasən Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə fövqəladə istintaq komissiyası təşkil edilmişdir və həmin komissiya Azərbaycanın müxtəlif bölgələrində dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədən quldur dəstələrin fəaliyyətini qiymətləndirməli, eləcə də zorakılığın bütün hallarını dəqiq qeydiyyatdan keçirməli, qırğının hansı şəraitdə törədildiyini təyin etməli, dəyən maddi ziyanın qədərini müəyyənləşdirməli idi. 1919-cu ilin martında məsələyə yenidən baxılmış və müvafiq qərar qəbul olunmuşdur. Amma Azərbaycanda bolşevik işğalından sonra bir çox milli məsələlər kimi bu məsələ də aradan götürülmüş və "Xalqlar dostluğu" sosialist ideologiyasının təməl prinsiplərindən biri kimi qəbul olunaraq təbliğ edilməyə başlanmışdır.

Azərbaycanlıların soyqırımı sovet hakimiyyəti illərində də davam etdirilmişdir.

Amma bu dəfəki forma tam başqa olmuşdur. Belə ki, 1934-37-ci illərdəki repressiya, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyası, 1992-ci ildə Xocalı soyqırımı və sayı-hesabı bilinməyən digər qanlı

aksiyalar məhz azərbaycanlıların soyqırımına məruz qalmasının danılmaz faktlarıdır.Uzun illər haqqında danışılmayan qanlı faciə ilə bağlı ən böyük siyasi sənəd yalnız hadisədən 80 il sonra qəbul edilmişdir. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla ilk dəfə olaraq dövlət səviyyəsində 1918-ci ilin mart qırğınlarına siyasi qiymət verildi. Fərmanda deyilirdi: "1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi əks olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəniyyət abidələri məhv edilmişdir".

Prezident İlham Əliyevin 31 Mart azərbaycanlıların





soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətində də ermənilərin müxtəlif illərdə də dinc azərbaycanlılara qarşı soyqırımı həyata keçirmələri, soydaşlarımızın yurd-yuvalarından didərgin salınmaları, ərazilərimizin işğalı, erməni şovinist millətçilərin xalqımıza qarşı təcavüzünün bu gün də davam etməsi qeyd olunmaqla, yanaşı, belə bir zamanda dövlətin və hər birimizin qarşısında duran başlıca vəzifələr göstərilir. Müraciətdə deyilir: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən İrandan və Osmanlı imperiyasına daxil olan ərazilərdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-ci və 1918-ci illərdə Azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, Dağlıq Qarabağa muxtariyyət statusu təmin edilməsi, 1948-1953-cü illərdə sovet rəhbərliyinin qərarı ilə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından deportasiyası xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".

Bəli, gec də olsa, haqq öz yerini tutmaqda, erməni vandalizminin iç üzünü bəşəriyyətə göstərməkdədir. Doğma torpaqlarımıza qayıdış məsələsində bu da mühüm amildir.

**Nəsib QARAMANLI**

## AZƏRBAYCANLILARIN SOYQIRIMINA DÜNYA HƏLƏ DƏ GÖZ YUMUR

Neçə on illərdir ki, Ermənistan Türkiyə və Azərbaycana qarşı öz məkrli siyasətini həyata keçirməkdə davam edir. Hələ on birinci əsrin sonundan başlayaraq ermənilər səlibçilərə kömək edib müsəlmanları qırmaq üçün özləri də onlara qoşulmuşlar. Bu zamandan da ermənilər müsəlmanların əhatəsində qalmış, yalnız rusların bölgəni zəbt etməsi ilə özlərinə dinbir qardaş tapmışlar.

Qonşu torpaqlarına göz dikən ermənilər sovet dövründə də öz istilaçılıq siyasətini davam etdirərək Azərbaycanın xeyli ərazisini zəbt etmişlər. Son 17 il ərzində isə ermənilər minlərlə azərbaycanlını şəhid və əlil edib, tarixi abidələrimizi, müqəddəs inanc yerlərimizi, meşələrimizi, yüz illərin canlı şahidi olan qəbiristanlıqlarımızı, məktəb və klublarımızı, neçə-neçə kənd və şəhərlərimizi tar-mar edib dağıtmışlar.

Ermənilər tarixən qonşu dövlətlərlə münasibətimizin pozulmasına da çalışmışlar. Onlara da arxalanaraq öz məkrli siyasətlərini həyata keçirmişlər: 20 Yanvar, 26 Fevral... buna canlı misaldır. Ermənilərin azərbaycanlılara, ümumiyyətlə, türk dünyasına qarşı düşmənçiliyi çox qədimdən gəlir. Xürrəmilər dövründən başlanan bu olay bu günə qədər də davam edir.





Hələ 18 mart 1921-ci ildə görkəmli amerikalı alim H.Briston öz həmkarının birinə yazmışdır ki,... daşnaklar hakimiyyətdə olduqları zaman kürdlərə, türklərə, tatlara hücum edir, əllərindən gələni əsirgəmir, müsəlmanlara qarşı zorakılığa əl atır... onları qırır, evlərini talan edir, nəhayət türkləri onlara cavab verməyə vadar edirdilər. Bu da amerikalılarda ermənilərə qarşı tam ikrah hissi oyatdı.

Amerikalı alim bu sözləri 1918-20-ci illərdə ermənilərin azərbaycanlıların başına gətirdikləri hadisələri dəqiqliyi ilə öyrəndikdən sonra yazmışdır.

1918-ci ildə, martın sonuna qədər, İrəvan qəzasında 32, Sürməlidə 75, Eçmiədzində 84, Yeni Bayazetdə 84 kənddə 15 min ev yerlə yeksan edilmiş, sakinlərin əksəriyyəti qılıncdan keçirilmiş, əsil soyqırım törədilmişdir. İyun ayına kimi isə 200 azərbaycanlı kəndi qarət edilib, 100 min nəfər qətlə yetirilmişdi.

Yeni Bayazitdən bir erməni öz xatirələrində qürurlanaraq yazıb: "Mən Basarkeçərdəki türk əhalisini məhv etdim. Hərdən gülləyə heyfim gəlirdi. Bu köpəklərə qarşı ən düzgün vasitə odur ki, döyüşdən sonra bütün sağ qalanları toplayıb su quyularına doldurasan və üstündən çoxlu daş yığasan ki, onlar bir də yer üzündə qalmasınlar. Mən belə də etmişəm. Kişiləri, qadın və uşaqları bir yerə topladım, əvvəlcə hamısını quyuya atdım, sonra isə quyunu ağzınadək daşla doldurub işlərini bitirdim".

Zəngəzurda da ermənilər, eyni vaxtda, 115 kəndi məhv edib, 7729 nəfər yerli sakinləri öldürmüşlər ki, onların da 2196 nəfəri azyaşlı uşaq olub. Göyçə mahalında isə 22 kənd darmadağın edilmiş, 60 min adam qətlə yetirilmişdir.

1919-cu ildə İrəvan quberniyasında yaşayan yerli müsəlmanlar amerikalılara müraciət etdikləri məktubda qeyd ediblər ki, müsəlmanların 88 kəndi darmadağın edilib, 1920 ev yandırılıb, 131970 nəfər qətlə yetirilib.

Həmin illərdə ermənilər Azərbaycanın ayrı-ayrı regionlarında da qırğınlar törətmişlər. Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Lənkəranda törədilmiş qırğınlar buna canlı misaldır.

1918-ci ilin martında ermənilər Bakıda müsəlmanlar yaşayan bütün məhəllələrə basqın edib, 3-4 gün ərzində 17 mindən çox bakılı müsəlmanı qətlə yetiriblər. Bakıya yeridilmiş ordunun 70 faizini erməni quldurları təşkil edirdi. Sonra quldurlar İçərişəhərə daxil olub. Bir quldur martın 28-də müsəlman həyətinə daxil olub və 8 qadını, 1 körpəni güllələyir.

Martın 30-da ermənilər Lənkərana yola düşəcək "Evelina" gəmisinə daxil olaraq müsəlmanları tərksilah ediblər. Özləri də rus gəmilərinə təbliğatçılar göndəriblər ki, azərbaycanlılar Bakıda yaşayan rusları qırırlar. Bu şaiyəyə inanan matroslar ermənilərə qoşularaq martın 31-də Bakıda ağlasığmaz qırğın törətmişlər.





Bu hadisələrlə bağlı "Yeni Qafqaziyyə" qəzeti belə informasiya dərc etmişdir: "İsmailiyyə"nin binası , "Açıq söz" və "Kaspi" mətbəələri tamamilə məhv edilmiş və yandırılmışdır. Bakının ən böyük camisi top mərmiləri ilə dəlmə-deşik edilmişdir".

Ermənilər eyni vaxtda Şamaxıda da böyük qırğınlar törətmişlər. Bölgənin 53 kəndi darmadağın edilmiş, 8027 azərbaycanlı, o cümlədən, 4190 kişi, 2560 qadın, 1277 nəfər uşaq işgəncələrlə öldürülmüşdür. Hamazaspın rəhbərliyi ilə erməni quldur dəstələri Quba bölgəsində ağlasığmaz qırğınlar törətmişlər. İnsanlığın düşməni olan Hamazaspın rəhbərlik etdiyi erməni dəstələri 2 gün ərzində 2000 nəfər kişi, qadın və uşağın ömrünə son qoymuşdur.

Beləliklə, 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Astarada, Salyanda və Hacıqabulda görünməmiş qırğınlar törətsələr də, ermənilərin bu cinayətinə dünya ictimaiyyəti göz yummuş, ona heç vaxt siyasi qiymət verən olmamışdır. Yalnız Ümummilli liderimiz Heydər Əliyev 1998-ci ilin martında imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla bu vəhşilikləri soyqırım kimi tanıtmış və ona siyasi qiymət vermişdir.

Fərmanda vurğulanır ki, 1813-cü və 1928-ci illərdə imzalanan «Gülüstan» və «Türkmənçay» müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın

bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi və beləliklə Azərbaycan torpaqlarının işğalına zəmin yaradıldı.





## ANDRANİK ÖZANYAN VƏ ONUN QULDUR DƏSTƏLƏRİ

Erməni terrorçuları, daşnak quldurlar zaman-zaman öz məkrli niyyətlərini həyata keçirmək məqsədilə azərbaycanlılara və türklərə qarşı düşmən mövqeyində durmuş, qanlı cinayətlər törətmiş, "Dənizdən-dənizə", "Böyük Ermənistan" yaratmaq iddialarından əl çəkməmişlər. Tarixi mənbələr göstərir ki, ermənilər ayrı-ayrı dövrlərdə Rusiyanın müəyyən dairələrinin əlində Azərbaycana, Türkiyəyə və digər türk xalqlarına qarşı terrorçuluq alətinə çevrilmişlər.

Erməni daşnakları Azərbaycana qarşı 1905-1906, 1918-20-ci illərdə kütləvi vəhşiliklər törətmiş, qəsəbə və kəndlərimiz yandırılmış, talan edilmiş, günahsız insanlar fəlakətlərə düçar olmuşlar.

1918-ci ilin martında Stepan Şaumyanın rəhbərliyi ilə ermənilər Bakıda, Azərbaycanın müxtəlif bölgələrində, habelə Qərbi Azərbaycanda qanlı cinayətlər törətmiş, qədim oğuz ellərini viranə etmiş, hər yanı qan gölünə çevirmişlər.

Şaumyan və onun əlaltılarından xeyir-dua alan quldur, türk qanına susayan tayqulaq Andranik xalqımıza qarşı xəyanət toru hazırlayırdı. Onun ilk qurbanları Zəngəzurun dinc sakinləri oldu. O zaman Dərələyəz, Göyçə mahalı, İrəvan quberniyasının

əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Andranikin quldur dəstələri müsəlman kəndlərini odlara qalayır, uşaqları diri-diri tonqala atır, xüsusilə qocalara, qadınlara olmazın əzab-əziyyət verir, Tanrının qəzəbindən qorxmurdular.

1918-ci ilin martında ermənilər Dro, Silikov, Delegiz, general Aratov və digər qaniçən cəlladların başçılığı ilə güclü qoşunla Sürməli, İrəvan, Eçmiadzin, Bayazit və digər azərbaycanlılar və türklər yaşayan ərazilərdə analoqu olmayan qırğınlar törətmiş, bir çox yerlərdə zor və hiylə ilə soydaşlarımızı bir yerə toplayıb onları diri-diri yandırmış, ah-nalələrdən ləzzət almışlar...

1918-ci ilin Novruz bayramında qədim Oğuz ellərində nə bayram tonqalları çatılmış, nə də qazanlar asılmışdı. Hay-haray qoparan günahsız insanlar erməni zülmündən qurtulmaq üçün Ulu Tanrıdan imdad diləyirdi.

Ermənilər Dərələyəz, Vedibasar, Zəngibasar, Göyçə ərazisindəki azərbaycanlı kəndlərində kütləvi qırğınlar törətdilər. Hər gün bu terror hadisələri ilə bağlı Stepan Şaumyana, Andranikə doğru-düzgün informasiyalar göndərilir, onların tövsiyyə və göstərişləri ilə xəyanət, zülm, işgəncə tonqalı daha da güclənirdi.

A.Lalayanın yazdığına görə, daşnak başkəsənlərindən biri öz "şücaətləri"ni belə təsdiq edirdi: "Mən heç bir şeyə fərq





qoymadan Basarkeçərdə türk əhalisini məhv etdim.

Hərdən gülləyə heyifim gəlir. Bu itləri öldürməyin ən doğru yolu döyüşdən sonra bütün sağ qalanları toplayıb onları quyulara doldurmaq, onların bu dünyada qalmamaları üçün üstlərinə ağır daşlar tökmək lazımdır. Mən belə də etdim: bütün kişi, qadın və uşaqları quyuya doldurub üstünü daşla doldurdum".

İrəvan quberniyasının müsəlman əhalisi də amansız terrora məruz qalmışdı. İrəvan qəzasında azərbaycanlılar ermənilərdən demək olar ki, iki dəfə artıq idilər. Daşnak hökuməti "Böyük Ermənistan" yaratmaq xatirinə on minlərlə adamı məhv etdi.

Ermənilər Vedibasarda da kütləvi qırğın törətdilər. Ancaq burada polkovnik Doluxanovun dəstəsi yerli sakinlərin müqavimətlərinə rast gəldi. Andranikin sağ əli sayılan general Dronun (o zaman hərbi nazirin köməkçisi vəzifəsini tuturdu) başçılığı ilə Doluxanova yardım göndərildi. Ancaq Abbasqulu bəy Şadlinskinin başçılığı ilə Azərbaycanın özünümüdafiə dəstələri qalib gəldi. Ermənilər döyüş meydanında mindən artıq meyid qoyaraq qaçdılar.

1918-ci ilin martında, Novruz bayramı ərəfəsində Göyçənin Şırşırlı kəndindən olan, Azərbaycan xalqının qatı düşməni polkovnik Silikovun rəhbərliyi altında daşnak hökumətinin qoşunları Basarkeçər rayonu ərazisinə hücum etdilər. Erməni daşnak ordusunun qoşunları Göyçə mahalının 22 kəndini

darmadağın etdi və Almalı, Çamırlı, Yarpızlı, Qanlı, Kərkibaş, Çaxırlı və Böyük Məzrə kəndləri yandırıldı. Andranikin ordusu hər kənddə 5-6 gün dayanır, oranı darmadağın etdikdən sonra başqa kəndlərə keçirdi. Bu kimi cinayətlər barədə Göyçə mahalından 26 kəndin əhalisinin 1919-cu il martın 2-də Gəncə qubernatoruna yazdıqları ərizədə ətraflı məlumat verilir.

Silikovun qaniçən daşnak dəstəsi Basarkeçərin Zod kəndinə daxil olan zaman kənd camaatından 750 pud taxıl və 100 sentner ət tələb etdi. Kənd sakinləri etiraz edib bildirdilər ki, onlar həmin miqdarda ərzağı vermək imkanına malik deyillər. Silikov kənd camaatından rədd cavabı aldıqdan sonra onları təhqir etdi və Zod kəndinin sakini Məcid Süleyman oğlunu öldürdü, 4 nəfəri isə yaraladı. Bu dəhşətli hadisədən sonra kənd camaatının səbir kasası tükəndi. Onlar başda polkovnik Silikov olmaqla 4 nəfər zabiti və 15 nəfər daşnakı cəhənnəmə vasil etdilər.

Bu hadisədən sonra daşnak ordusunun yerli əhaliyə qarşı vəhşiliyi daha da şiddətləndi. Zodlu Səməd ağa, Tanrıverdi oğlu Ələkbər ermənilər tərəfindən işgəncə ilə qətlə yetirildi. Daşkəndli Aşıq Nəcəfin ölümü daha dəhşətli oldu, ermənilər aşığın qollarını qandallayıb, kürəyinə qaynar samovar bağladılar. Aşıq Nəcəf fəryad qopara-qopara həyata əlvida dedi. Beləliklə, erməni millətçilərinin azərbaycanlılara qarşı yeritdiyi genosid siyasətinin ikinci mərhələsi minlərlə





azərbaycanlının qırılması və öz doğma yurdlarını tərk etməsi ilə başa çatdı. Sağ qalan az qism əhali isə öz ata-baba yurdlarından baş götürüb qaçdı. Mart ayında Gəlbəcər istiqamətində Azərbaycana doğru üz tutan göyçəlilər çovğuna düşdü, neçə-neçə insanlar şaxtadan donub öldü. Kəlbəcərdəki “Sümüklü dərə” və digər yerlər o qanlı illərin yadigarıdır...

## APREL AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**02 aprel 1918-ci il** – Bakıda qırğın dayandırıldı, 12 min müsəlman qətlə yetirildi.

**02 aprel 1993-cü il** - Kəlbəcər işğal olundu.

**03 mart 1981-ci il** - Danimarkada Türkiyə səfirliyinin əmək üzrə attaşesi Cavid Dəmir gecə vaxtı öz mənzilinə daxil olduğu zaman terrorçu erməni tərəfindən ağır güllə yarası aldı.

**09 aprel 1909-cu il** - Türkiyənin Adana şəhərində 2 gənc,1 ahıl türkü öldürmüşlər. Daha sonra silahlı ermənilər 100 nəfər türkü də qətlə yetiriblər.

**05 aprel 1918-ci il** - Ermənilər Naxçıvan şəhərinin Xoylu məhəlləsini top və pulemyotlardan atəşə tutublar.

**05-06 aprel 1920-ci il** - General Bağdasarovun başçılığı ilə quduzlaşmış ermənilər Qazax rayonuna hücum etmiş və Yaradulla, Qaracan, Çaxmaqlı kəndlərini darmadağın etmiş, əhalinin çox hissəsini qətlə yetirmişlər.

**05 aprel 1989-cu il** - Bakı və Xankəndi (Stepanakert) ermənilərindən 25 nəfərdən (ikisi qadın) ibarət quldur dəstə Qubadlı rayonuna soxularkən Azərbaycanın daxili qoşunları tərəfindən yaxalanmışlar.





**05 aprel 1990-cı il** - Mirbəşir-Kəlbəcər marşurutu ilə hərəkət edən avtobus erməni quldurları tərəfindən güllləbaran edilib, Bağlıpəyə kənd sakini Aslan Xıdırov öldürülüb, 2 nəfər ağır yaralanıb.

**05 aprel 1992-ci il** - Gədəbəyin Mütudərə kəndi iriçaplı pulemyotlardan atəşə tutulub.

**07 aprel 1991-ci il** - Ermənilər Qubadlı rayonunun Yuxarı Çivikli kəndinə silahlı hücum edib Şahin Hüseynovu qətlə yetirmiş, Qərib Nəzərovu girov aparmışlar. Bir hərbçi-leytenant da öldürülmüşdür.

**07 aprel 1992-ci il** - Saat 6-da Kəlbəcərin Ağdaban kəndi şiddətli hücuma məruz qalıb. 126 evdən 45-i yandırılıb, 1000 baş qaramal, 4000 baş qoyun, 7 yük maşını, 2 traktor, 6 minik maşını ermənilərin talanına məruz qalıb. 83 nəfər həlak olub, 19 nəfər yaralanıb, 6 nəfər əsir alınıb, 50 nəfər isə itkin düşüb.

**08-21 aprel 1918-ci il** - Xırdalandan başlanan döyüş Hacıqabulda başa çatıb, çoxlu azərbaycanlı öldürülüb, dağıntılar törədilib.

**08 aprel 1992-ci il** - Kanadada Türkiyə səfirliyinin ticarət attaşesi Kani Güngor öz qarajında ASALA terrorçusu tərəfindən yaralanıb. Daşaltı kəndindən Şuşaya hərəsi 15 kq olan 3 mərmi atılıb, 6 nəfər yaralanıb. Hər mərminin içində 3,5 sm uzunluğunda dəmir parçalar aşkar edilib. Alimlər onun kimyəvi silah olduğunu sübut ediblər.

**08 aprel 1984cü il** - Livanda ASALA öz məlumatında Türkiyəyə uçan təyyarələrə hərbi hədəf kimi baxacağı haqqında bütün dünya aviaşirkətlərinə xəbərdarlıq etmişdir.

**08 aprel 1988-ci il** - "Jiquli" maşınında beş nəfər silahlı erməni Zəngibasarın Sarvannar kəndinə hücum edib camaatdan kəndi tərk etməyi tələb edirlər. Rədd cavabı aldıqda ermənilər maşını camaatın üstünə sürürlər. 3 nəfər ağır yaralanır. Belə olduqda cavanlar onlara hücum edib tərksilah edir, döyürlər. Milislər 50 nəfər azərbaycanlını həbs edir.

**04 aprel 1992-ci il** - Zəngilan rayonunun Ağkənd və Qazançı kəndləri gecəyarısı Ermənistan tərəfindən atəşə tutulub. Şəmşəddin rayonundan Tovuz rayonunun kəndləri atəşə tutulub və bir nəfər yaralanıb. Kəlbəcərin Çapar kəndindən isə Ağdaban kəndi atəşə tutulub.

**09 aprel 1992-ci il** - Qafan rayonu tərəfdən Zəngilanın 3 kəndi atəşə tutulur. Goranboyun Şəfəq və Qaraqoyunlu kəndlərinə T-72 tankı, BTR və BMP-lərlə hücuma keçirlər.

**10 aprel 1992-ci il** - Ağdərə rayonunun Marquşavan, Marağa kəndləri uğrunda güclü döyüş gedir, çoxlu itgi olur.

**11 aprel 1918-ci il** - Naxçıvanın Qaraxanbəyli kəndinin erməniləri bir neçə azərbaycanlını öldürüb, 4 nəfəri də girov aparırlar. Başqa kəndlərə də hücum təşkil edib 150 nəfəri qətlə yetirir, bir nəfər naxçıvanlını da öldürürlər.

**11 aprel 1992-ci il** - Erməni birləşmələri Füzuli rayonunun





Maskalaşen və Qırmızıbazar yaşayış məntəqələrindən üç istiqamətdə (Cəmilli kəndində 3, Füzuli istiqamətində isə 4 döyüşçümüz öldürülür). Şuşanın Kosalar, Qaybalı kəndlərinə, Qubadlı və Tovuz rayonlarına da hücum edirlər.

**12 aprel 1915-ci il** - Vəhşiləşmiş ermənilər silahsız türkləri kəndlərdən dağlara qovmuş, əllərinə keçəni vəhşicəsinə qətlə yetirmişlər.

**12 aprel 1992-ci il** - Füzuli rayonunun Cəmilli və Qacar kəndlərinə, Gövşadlı, Qaradağlı və Ariş kəndlərinə hücum edib 2 nəfəri girov aparmışlar.

**13 aprel 1919-ci il** - Nizami erməni qoşunları Yeni Bəyazid qəzasının Göyçə mahalına hücum etmiş, azərbaycanlıları o torpaqdan qovmaq istəmişlər. 60 min əhalisi olan Göyçədə 22 müsəlman kəndi dağıdılmış, əhaliyə görünməmiş, əzab, işgəncə verilmişdir.

**13 aprel 1992-ci il** - Saat 11-də Şuşanın Şuşikənd və Muxtarkənd kəndləri tanklardan atəşə tutulmuşdu. Qazax rayonunun da 4 kəndi atəşə tutulub, 1 nəfər həlak olub, 9 nəfər yaralanıb.

**14 aprel 1919-cu il** - 5000 nəfərdən ibarət nizami erməni qoşunu Göyçə mahalının Böyük Məzrə, Qoşabulaq, Ağalı və Daşkənd kəndlərini dağıtmış, əhalinin böyük əksəriyyətini qətlə yetirmişlər.

**14 aprel 1990-cı il** - İcevan rayonunun Aygevit və Çoğaz

kəndlərindən Qazağın Barxudarlı və Fərəhli kəndləri atəşə tutulmuşdur.

**14 aprel 1992-ci il** - Əsgəran rayonundan Papravənd, Şelli, Qalayçılar atəşə tutulub, 2 nəfər həlak olub.

**15 aprel 1918-ci il** - Ermənilər Anzur kəndinə hücum edib talayıblar.

**15 aprel 1992-ci il** - Xocavənd rayonunun Muğanlı kəndində güclü atışma baş verir, 2 nəfər yaralanır. Həmin gün Zəngilan və Tərtər rayonuna da hücumlar olur.

**16 aprel 1992-ci il** - Füzuli rayonunun Cəmilli və Qacar kəndləri atəşə tutulub. Ağdamın Abdal-Gülablı, Goranboyun Şəfəq və Qaraçinar kəndləri də uzunmüddətli iriçaplı silahlardan atəşə tutulub.

**17 aprel 1980-ci il** - Roma şəhərində 3 erməni terrorçusu Türkiyənin Vatikandakı səfiri Vecdi Türelin evi yaxınlığında maşınına hücum edib səfiri və mühafizəçisi Tahsin Güvənci ağır yaralamışlar.

**17 aprel 1992-ci il** - Gecəyarısında Goranboyun Todan kəndi pulemyotlardan və PDM-lərdən atəşə tutulub. 10 dəfədən çox vertalyotlarla Kəlbəcər rayonunun sərhədi pozulub.

**19 aprel 1918-ci il** - Ermənilər Qaraxanbəyli kəndindən ətrafda olan müsəlman kəndlərini atəşə tutublar.

**19 aprel 1991-cu il** - Şuşa şəhərinin yaxınlığındakı Ağa





körpüsündə, postun 15 metrliyində güclü partlayış olub.

**19 aprel 1992-ci il** - Xankəndindən Şuşa "Kristal" və "qrad" tipli raketlərlə atəşə tutulub. Ağdam rayonunun 4, Cəbrayılın 2 kəndləri və Tərtər rayonu ermənilər tərəfindən intensiv atəşə tutulub.

**20 aprel 1990-cı il** - Mehri-Kərcivan dəmiryolunda erməni quldurları tərəfindən 502 və 3501 saylı qatarlar atəşə tutulub, onlarca adam zərər çəkib.

**20 aprel 1992-ci il** - Hadrutdan Füzuliyə 12 raket atılıb. Ağdamın 3 kəndində də atışma olub.

**22 aprel 1990-cı il** - İcevan rayonundan 4 avtomatlı erməni Qazax-İcevan dəmiryolu körpüsünü partlatmaq istərkən müqavimətə rast gələrək qaçmışlar.

**23 aprel 1918-ci il** - Qaraxanbəyli kəndi yaxınlığında 3 nəfər azərbaycanlı güllə ilə öldürülüb.

**23 aprel 1991-ci il** - Saat 4-də Şuşa intensiv top atəşinə tutulub. Yuxarı Gövhərağa məscidi və 20 ev dağıdılıb, 4 nəfər yaralanıb.

**24 aprel 1918-ci il** - Ermənilər Xoşlu və Nehrəm kəndlərinə hücum edib 2 nəfəri öldürür, 1 nəfəri girov aparıblar.

**24 aprel 1965-ci il** - İrəvanda 400 min erməni "Qarabağ bizimdir" "1915-ci ilin qisasını alaq",-deyə "Naxçıvan da Ermənistan torpağıdır" şüarları ilə nümayişə çıxmışlar.

**24 aprel 1982-ci il** - Almaniyada türklərə məxsus bir neçə ticarət müəssisəsi, "Yeni erməni müqavimət təşkilatı"nın qoyduğu, bomba nəticəsində böyük dağıntıya məruz qalır.

**24 aprel 1992-ci il** - Ağdamın Şelli, Abdal-Gülablı və Papravənd kəndləri atəşə tutulub, 2 nəfər həlak olub, 10 nəfər yaralanıb, Goranboyun Sarısu kəndində bir hərbçimiz yaralanıb.

**25 aprel 1992-ci il** - Zəngilanın Kollu, Günqışlaq, Seyidlər və Pirveyisli kəndləri atəşə tutulub, bir nəfər həlak olub.

**26 aprel 1984-cü il** - ASALA Türkiyədə Baş Nazir Turqut Özalın Tehran səfərini həyata keçirəcəyi təqdirdə irimiqyaslı terror aktı keçiriləcəyini bildirib.

**27 aprel 1991-ci il** - Silahlı ermənilər Qubadlı rayonunun Məzrə kəndini yandırmış, hərbçilər onları geri oturtmuşlar.

**28 aprel 1984-cü il** - İranda Türkiyə səfirliyində katibə işləyən Şadiyə Yöndəri iş yerinə aparan İşık Yöndərin maşınını iki erməni terrorçuları atəşə tutmuşlar, İşık Yöndər qətlə yetirilmişdir.

**29 aprel 1918-ci il** - 1800 nəfərlik qoşun hissəsi 6 top, 2000 güllə ilə azərbaycanlılar yaşayan İrəvanətrafı kəndləri atəşə tuturlar, 50 araba ilə Gümrüdən Ahılkələyə aparılan 3000 qadın, kişi, qoca və uşağı ermənilər qətlə yetirirlər.

**29 aprel 1992-ci il** - Ermənilər Şuşanın Kosalar kəndində 4 nəfəri qətlə yetirir, 15 nəfəri yaralayır. Füzuli rayonunun 6 kəndi hücuma məruz qalır, 1 nəfər həlak olur, 1 nəfər yaralanır,





böyük dağıntılar olur.

**30 aprel 1992-ci il** - Ağdərə rayonunun Narışdar kəndində 5 nəfər həlak olmuş, Kərkicahandan Hacı talasına hücum edilir, 4 nəfər həlak olur, 12 nəfər yaralanır. Eyni gündə Füzuliyə, Goranboya, Qazağa da hücum edilir.

**30 aprel 1988-ci il** - Gürcüstanın Boqdanovka (keçmiş Xocabəy) rayonunun erməniləri ümummilli erməni hərəkatı ilə 29 avtobusla Ağbaba (Amasiya)kəndlərinə hücum edirlər, daxili qoşun qarşılarını alır.

**30 aprel 1918-ci il** - Hamazaspın 50 nəfərlik qoşunu Giləzidən Müşgür nahiyyəsinə qədər evləri yandırır, əhalini qırır, 600 baş mal-qaranı qarət edir, Qozlu dərədə 200 nəfər öldürülür, Qusarda 2 min adam qətlə yetirilir.

Zəngəzur qəzasının Qarakilsə, Dəstəşrət, Zavazadur kəndlərinə hücum edərək 25 nəfər azərbaycanlını öldürür, 310 min manatlıq ziyan vururlar.

## MAY AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**10 may 1905-ci il** - Naxçıvanda erməni-müsəlman qırğınında 100 nəfər azərbaycanlı qətlə yetirilmişdi.

**23 may 1905-ci il** - Qubernatorun göstərişi ilə İrəvanda, Eçmiədzində, Gümrüdə, Qırxbulaqda, Qazançıda, Kamanda qırğınlar baş verdi. Yüzlərcə adam qətlə yetirildi.

**27 mayl 1915-ci il** - Türkiyədə türklərə qarşı soyqırıma başlayan ermənilər türk ordusuna da xaincəsinə zərbələr endirdilər.

**27 may 1916-cı il** - Erməni quldurları Ərzincan vilayətinin Avcıçayırı kəndində əllərinə keçən türkləri qətlə yetiriblər. Yalınkaş kəndində yalnız 4 qoca kişi və bir neçə qadın sağ qalmışdı.

**1 may 1918-ci il** - Şiştəpə və Düzkənd kəndlərində 100 erməni atlısı 60 uşaq və qadını qətlə yetiriblər.

**4 may 1918-ci il** - Bənənigar kəndində 1, Qızılca kəndində iki azərbaycanlı öldürülüb.

**19 may 1918-ci il** - Badamlı kəndində ermənilər bir neçə azərbaycanlını öldürüb, 18 baş qaramalı aparıblar.

**21 may 1918-ci il** - Ermənilər Dərəzəmin və Noraşendə 6





kişini və bir qadını girov aparıblar.

**24 may 1918-ci il** - bir neçə azərbaycanlı kəndinə hücuma keçib 2 nəfəri öldürüb, 1 qadın, 3 kişini yaralayıb, 100-ə qədər mal-qaranı aparıblar.

**26 may 1918-ci il** - Naxçıvan şəhərinin kənarında 2 azərbaycanlını qətlə yetiriblər.

**27 may 1918-ci il** - Qaraxanbəyli kəndindən Naxçıvan şəhərini aramsız atəşə tutublar.

May ayında Quba qəzasında ermənilər 122 kəndi dağıdır, 60 kişi, qadın və uşağı öldürür, 53 nəfəri yaralayır. Zəngəzur qəzasında isə kəndləri dağıtmış, 95 azərbaycanlını qətlə yetirmişlər.

**17 may 1976-cı il** - Ermənilər Almaniyanın Frankfurt, Essen və Köln şəhərlərində Türkiyə konsulluqlarında bomba partlatmış və aradan çıxmışlar.

**28 may 1976-cı il** - Türkiyənin "Qaranti" bankının İsveçrə filialı və Türkiyə səfirliyinin binası 2 bomba partlayışı ilə dağıntıya məruz qalmışdır.

**14 may 1977-ci il** - Türkiyə Bürosunun Parisdəki nümayəndəliyində bomba partladılmış, gözətçi yaralanmışdır. Cinayəti "Yeni Erməni Müqavimət Qrupu" törətmişdir.

**29 may 1977-ci il** - İstanbulun Yeşilgöy aeroportunda baş vermiş bomba partlayışı nəticəsində 5 nəfər ölmüş, 42 nəfər, o cümlədən bir ABŞ vətəndaşı yaralanmışdır. Girkəçi dəmiryol

vağzalında baş vermiş partlayışdan bir nəfər ölmüş, 10 nəfər yaralanmışdır. Bu cinayəti "28 May Erməni Təşkilatı" törətmişdir.

**19 may 1980-ci il** - Fransanın Marsel şəhərində ASALA və "Qara Aprel" erməni qrupları tərəfindən Türkiyə Konsulluğuna raket tuşlanmış, lakin o vaxtında zərərsizləşdirilmişdir.

**18 may 1981-ci il** – Türkiyənin ABŞ-ın Florida ştatındakı fəxri konsulu Naş Karahan tapançadan atəş açaraq 2 erməni terrorçusunu konsulluğa girməyə imkan verməmişdir.

**4 may 1982-ci il** - Türkiyənin Bostondakı Fəxri Konsulu Orhan Gündüz öz maşınında erməni terrorçusu tərəfindən qətlə yetirilib. Ronald Reyqanın səyinə baxmayaraq cani tapılmamışdır.

**24 may 1983-ci il** - Brusseldə Türkiyə səfirliyinin Mədəniyyət və İnformasiya Mərkəzi və Türkiyəyə məxsus "Mərmərə" Səyahət Bürosunun nümayəndəliyi qarşısında bomba partladılmış, milliyyətcə italiyalı direktor yaralanmışdır. Cinayəti ASALA törətmişdir.

**3 may 1988-ci il** - Azərbaycanın Tuğ kəndində ermənilər Ermənistan bayrağı asdıqlarına görə erməni-azərbaycanlı toqquşması baş verdi. Daxili qoşun hissələri qan tökülməsinin qarşısını aldı.

**8 may 1988-ci il** - Vedidə Şirazlı kolxozunun sədri Barseğyanın göstərişi ilə "Bakı-İrəvan" qatarına basqın edilmiş,





azərbaycanlılar döyülmüş, söyülmüş və əmlakları talan edilmişdir. Qatar bir saat saxlanılmışdır.

**11 may 1988-ci il** - Ermənilərin 400-500 nəfərdən ibarət dəstəsi Şirazlı kəndinə basqın edib 8 evi yandırır, 64 evi dağıdır, 330 ailənin əmlakı talan edilir, 2 nəfər qətlə yetirilir, 80 nəfər xəsarət alır.

***İrəvanda Məşədi Əzizbəyovun büstü sındırılır.***

***İrəvanda Mirzə Fətəli Axundov adına azərbaycanlı orta məktəbi və C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrının binaları daşa basılır, pəncərələr sındırılır.***

**12 may 1988-ci il** - Gecə saat 2-də Şirazlı kəndinin azərbaycanlı sakinləri Türkiyə sərhəddində çadır qurub yaşamağa məcbur edilir.

**13 may 1988-ci il** - Xankəndində ermənilər azərbaycanlılara basqın edir. 6 nəfər ağır xəsarət alır.

**14 may 1988-ci il** - Ermənistanın KP MK-nın II katibi Koçetkov və Nazirlər sovetinin birinci müavini S.Harutyunyan sərhəddən 20 nəfəri dilə tutub evlərinə gətirmək istəsə də, ermənilər onları kəndə buraxmayıblar.

**16 may 1988-ci il** - Stepanakertdəki pedoqoji institutdan azərbaycanlı tələbələr qovulub.

**6 may 1989-cu il** - Ermənistandan mükəmməl təlim görmüş saqqallı quldurlar Hadruta gətirilir.

**9 may 1989-cu il** - Xanlar rayonunda məskən salmış erməni

quldurları tez-tez nəzarət məntəqələrini pulemyot və avtomat atəşinə tuturlar.

**10 may 1989-cu il** - Qazax rayonunun Bağanis Ayrım və Bərxudarlı, Naxçıvanın bütün sərhədyanı kəndləri güclü top və minamyot atəşinə tutulur, xeyli ev dağıdılır, yaralanan və ölənlər olur.

**11 may 1989-cu il** - Gorus rayonu tərəfindən Qubadlının sərhəd kəndləri atəşə tutulur, bir nəfər ağır yaralanır.

**15-16 may 1990-cı il** - Tuğ kəndində ermənilərin güclü atəşləri nəticəsində A.İsmayılov ağır yaralanır, Şərur rayonunun Azıx kəndindəki hərbçilərin müşahidə məntəqələrindəki gözətçilər 15-20 nəfər silahlı ermənilərin hücumuna məruz qalırlar.

**21 may 1990-cı il** - Noyemberyan rayonunun Berdavan kənd sakinləri Kəmərli kəndinin quşçuluq fermasını atəşə tuturlar. Əsgəranın Fərrux kəndindən Ağdamın Şelli kəndi güllələbaran edilir.

**24 may 1990-cı il** - Xankəndində ermənilər hərbçiləri atəşə tuturlar. V.Kirillov adlı hərbçi həlak olur. 4 nəfər ağır yaralanır.

**26 may 1990-cı il** - Noyemberyan rayonunun Voskepar kəndindən Əskipara kəndinin uşaq bağçası atəşə tutulur. Kəlbəcərdən Bərdəyə gedən avtomobil dəstəsi ermənilər tərəfindən daş-qalaq edilir, xeyli adam xəsarət alır, avtomobillər sındırılır.





**27-31 may 1990-cı il** - Babək rayonunun Gərməçətaq, Xanlar rayonunun Oktyabr, Naxçıvan MR-ın Babək və Culfa rayonları ermənilər tərəfindən atəşə tutulur, ölən və yaralananlar olur. Ağdam-Şuşa yolu ilə hərəkət edən 17 maşın Əsgəran ərazisində daş-qalaq edilir. Köhnə Qışlaq və Sofulu kəndləri atəşə tutulur.

**5 may 1991-ci il** - Kəlbəcərin Dalqılınclı, Ağdaban, Kəmərli, Umudlu, Laçının Çağazur, Cicimli, Zabux kəndləri ermənilər tərəfindən atəşə tutulur.

**30 may 1990-cı il** - Silahlı ermənilər Ağdamın Əliqalın kəndinə basqın edib 2 nəfəri yaralamış, 3-nü isə girov aparmışlar.

**1 may 1992-ci il** - Zəngilanın Qazançı, Dərəli, Ağdərə kəndləri atəşə tutulur.

**3 may 1992-ci il** - Füzuli rayonunun 4 kəndi PDM, BTR və pulemyotlardan, Todan, Şəfəq kəndləri tanklardan, PDM-lərdən atəşə tutulub, bir əsgər həlak olub, bir nəfər isə yaralanıb. Əlibəyli kəndində 2 nəfər yaralanıb, 5 ev dağıdılıb. Sədərək və Şərurda xeyli dağıntı olmuş, 2 milis işçisi qətlə yetirilmiş, 11 nəfər yaralanmışdır.

**5 may 1992-ci il** - Ağdamın Çuxurməhlə kəndi ermənilər tərəfindən atəşə tutulub, 2 nəfər azərbaycanlı qətlə yetirilib.

**6 may 1992-ci il** - Ağdamın Şelli kəndi toplardan və zirehli texnikadan atəşə tutulub. Füzuli rayonunun Qacar, Divanalılar

kəndləri zirehli maşınlardan, rayon mərkəzi isə toplardan atəşə tutulub, 2 nəfər həlak olub, 5 nəfər yaralanıb. Naxçıvanda Sədərək, Havuş, Günnüt kəndləri erməni hücumlarına məruz qalıb, 10 nəfər yaralanıb. Künnüt kəndi geri alınarkən 3 nəfər həlak olub, 35 nəfər yaralanıb.

**7 may 1992-ci il** - Ağdam rayonunun Kuropatkin kəndinə ermənilərin basqını nəticəsinədə 5 nəfər yaralanıb. Füzuli rayonunun Hocaz kəndində 6 nəfər azərbaycanlı həlak olur, çoxsaylı da yaralananlar olur.

**8 may 1992-ci il - Şuşa işğal edildi.**

**8 aprel 1992-ci il** – Kəlbəcərin Ağdaban kəndi işğal olundu, 32 nəfər dinc sakin qəddarcasına qətlə yetirildi, 16 nəfər girov götürüldü, 130 ev odlara qalandı.

**9-10 may 1992-ci il** - Qazax rayonunun sərhəd kəndləri atəşə tutulub. Məzəm kəndində 6 ev yandırılıb. Cəfərli və Böyük Cəfərli kəndlərində evlərin əksəriyyəti dağıdılır, əhali arasında yaralananlar olur. Qazax şəhəri raket və top atəşinə tutlur, 5 nəfər yaralanır. Füzuli rayonunun 7 kəndi eyni vaxtda atəşə tutulur, evlər dağıdılır.

**11 may 1992-ci il** - Laçın rayonunda Zarıslı kəndi yandırılır. Laçın şəhəri iki tərəfdən top və raket atəşinə məruz qalır. Marquşavan kəndində 4 hərbi texnika minaya düşüb partlayır.

**12-13 may 1992-ci il** - Tərtərdə, Füzulidə, Goranboyda döyüşlər gedir, respublika Mülki Müdafiə Qərargahının verdiyi





məlumata görə Tərtər və Ağdam rayonlarında ermənilər tərəfindən "Sionid" kimyəvi silah işlədilib.

**15 may 1992-ci il** - Erməni milli ordu hissələri Laçın rayonunda strateji əhəmiyyəti olan Turşsu məntəqəsini işğal edib. Laçın top və qradlardan güclü atəşə tutulub, əhali şəhəri tərk edib.

**18 may 1992-ci il** - Naxçıvanın Sədərək rayonunda rus-erməni qoşunlarının geniş miqyaslı hücumu nəticəsində 10 nəfər azərbaycanlı həlak olub, 50 nəfəri yaralanır.

**18 may 1992-ci il - Laçın işğal olunub**.

## İYUN AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**20 iyun 1880-ci il** - Ərzurumun Sanasaryan məktəbinə asayişi bərqərar etməyə gəlmiş əsgərlər atəşə tutulmuş, 2 əsgər qətlə yetirilmiş, bir polis işgəncələrlə öldürülmüş, bir zabit ağır güllə yarası almışdır.

**28 iyun 1914-cü il** - Diyarbəkir vilayətinin Silvan şəhəri yaxınlığındakı Bağdərə kənd sakini Dano Doriyanın başçılıq etdiyi silahlı dəstə Şeytan Kaya adlı yerdə Həmid Əfəndinin mühafizə etdiyi böyük nəqliyyat karvanına qəflətən hücum edib və 500 nəfəri qətlə yetirmişdir.

**04 iyun 1918-ci il** - Quba bölgəsində silahlı ermənilər 9 nəfəri girov götürmüşlər. Onların 4 nəfərini buraxıb, 5 nəfərini isə qəddarcasına qətlə yetirmişlər.

**11 iyun 1918-ci il** - Gəncədə dişinə qədər silahlanmış ermənilər, 15 nəfər sıravi əsgəri girov götürmüş və hamısını parça-parça doğramışlar.Bu ayda- Kürdəmirə silahlı ermənilər basqın etmiş, 56 ev və dükana, 127 mülkə və məscidə od vurub yandırmış, yerli imamın evini dağıdıb qarət etmiş, Quran kitabının təfsiri (izahı) üzrə zəngin kitabxana dağıdılmış, çox sayda adam öldürülmüş, daşınması mümkün olan əşyaların hamısı talan edilmişdir.





Göyçayda 6 kəndə soxulmuş ermənilər talançılıq etmiş, Cəngi kəndində 5 mülk yandırılmış, 20 nəfər qətlə yetirilmiş, burun və qulaqları kəsilmiş, kəllə sümükləri sındırılmışdır.

Qaravəlli kəndinin 30 evi yandırılıb, 2 nəfər isə qəddarcasına öldürülmüşdür. Qarabucaq kəndində 121 evə od vurulmuş, 7 nəfər də qətlə yetirilmişdir. Mustafalı kəndində 6 mülk yandırılmışdır. Xəlil-Qasımbəyli kəndində də 9 evə od vurulub, 7 nəfər öldürülmüşdür.

Ərəb-Mehdibəy kəndində 84 mülk yandırılmış, 83 nəfər qətlə yetirilmiş, bir oğlan uşağı oğurlanmışdır. Sadalı kəndində də 33 mülk tamamilə yandırılmış, əmlakı talan edilmişdir.

**04 iyun 1919-cu il** - Şuşa şəhərinin yaxınlığında olan Üçmıxlar kəndində yerləşən Azərbaycanın hərbi hissəsinə qəflətən silahlı ermənilər hücum edib 3 azərbaycanlını qətlə yetirib, 4 nəfəri də yaralamışlar.

**19 iyun 1976-cı il** - Zəngəzurun Keşiklər, Həştab kəndlərinə, Ordubad şəhərinə, Vedibasarın azərbaycanlılar yaşayan kəndlərinə hücum edilib, kəndlər yandırılıb, evlər qarət edilibdir. Şuşanın Xanbağı kəndinə də silahlı basqın edilib, 2 nəfər günahsız adam qətlə yetirilmişdir.

**06 iyun 1977-ci il** - İsveçrənin Surix şəhərində Hüseyn Bülbülün dükanı erməni terrorçuları tərəfindən atılan bomba ilə dağıdılmışdır.

**09 iyun 1977-ci il** - İtaliyanın Vatikandakı türk səfiri Taha

Carim evi qarşısında iki terrorçu tərəfindən qətlə yetirilmişdir.

**02 iyun 1978-ci il** - İspaniyada Türkiyə səfiri öz iqamətgahından maşınla çıxan zaman üç silahlı erməni terrorçusunun hücumu nəticəsində səfirin arvadı Necla və istefada olan səfir Bəşir Balçıoğlu həlak olur, yaralanmış milliyyətcə ispan olan sürücü isə xəstəxanada rəhmətə getmişdir. Məsuliyyət ASALA-nın boynuna düşür.

**03 iyun 1981-ci il** - Amerika Birləşmiş Ştatlarının Los-Anjeles və San-Fransisko şəhərlərində nəzərdə tutulmuş Türk Xalq Rəqsləri ansamblının çıxışları erməni terrorçularının qoyduqları bombalara görə baş tutmamışdır.

**09 iyun 1981-ci il** - Cenevrədə Türkiyə konsulluğunun katibi Mehmed Savaş Yergüz konsulluğunun həyətində erməni terrorçusu Mardiros Jamqoçyan tərəfindən qətlə yetirilmişdir.

**11 iyun 1981-ci il** - Fransada Ara Toranyanın başçılığı ilə erməni terrorçuları "Türkiyə Hava Yolları" aviakompaniyasının nümayəndəliyini zəbt etmişlər. Türkiyə dövləti işə qarışdıqdan sonra Fransa dövləti terrorçuları qovmuşdur.

**19 iyun 1981-ci il** - Tehranda "Svaisseyr" aviakompaniyasının binasında "9 iyun təşkilatı" tərəfindən bomba partladılmışdır.

**07 iyun 1992-ci il** - Portuqaliyada Türkiyə səfirliyinin inzibati attaşesi Ergut Akbay və arvadı Hadi də öz evləri qarşısında erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.





**16 iyun 1983-cü il** - ermənilər İstanbulun bütün dünyada məşhur olan "Örtülü bazar"ına əl qumbaraları atmış, avtomatlardan atəş açmışlar. Nəticədə 2 türk vətəndaşı həlak olmuş, 21 nəfər isə yaralanmışdır.

**20 iyun 1984-cü il** - Avstriyada Türkiyə səfirliyinin Əmək və İctimai İşlər üzrə müşavirinin müavini Ərdoğan Özənə məxsus maşın partladılmışdır. Ərdoğan Özən həlak olmuş, 5 nəfər yaralanmışdır.

**11 iyun 1988-ci il** - Varovski qəsəbəsində Krasnodardan gəlmiş Aleksandr Ağabekyan milis serjantı Fazil İsmayılovu qətlə yetirib. Hadisə yerində cani yaxalansa da, camaatdan gizlədilib.

**15-17 iyun 1988-ci il** - Krasnoselo rayonunun Şorca və Gölkənd əhalisi milli zülmə etiraz əlaməti olaraq nümayiş və mitinq keçirmişlər.

**18 iyun 1988-ci il** - Zəngibasarın Aşağı Necili kəndinə hücum edən ermənilər talan törətmişlər.

**18-19 iyun 1988-ci il** - Ermənilərin Qarabağ hadisələrinə etiraz əlaməti olaraq Göyçə mahalının Şişqaya və Nərimanlı kəndlərində mitinq keçirilmişdir.

**19-20 iyun 1988-ci il** - Zəngibasarın Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvannar kəndləri erməni quldurlarının silahlı hücumuna məruz qalmış, döyülmüş, Türkiyə sərhəddinə qaçmağa məcbur edilərək əmlakları talan edilmişdir.

**20 iyun 1988-ci il** - Vedibasar və Əzizbəyov rayonlarında 2 mindən çox azərbaycanlı qaçqın Şuşaya gələrək oradan da qovulmuşlar.

**20-22 iyun 1988-ci il** - Ermənistanın Ləmbəli kənd sakinləri Qarabağ hadisələrinə etiraz əlaməti olaraq tətil, nümayiş keçirmişlər.

**9 iyun 1989-cu il** - Hamamlıya sığorta pulunu almaq üçün getmiş Rəhim Daşdəmirov armaturla vəhşicəsinə döyülərək öldürülmüşdür.

**1 iyun 1990-cı il** - Yeğeqnadzor rayonunun Xacik kəndindən İliç (Babək) rayonunun Ağbulaq kəndi atəşə tutulmuşdur.

**2 iyun 1990-cı il** - Əsgəran rayonunda Badara və Daşbulaq kəndləri arasındakı keçid dağıdılmışdır.

**3 iyun 1990-cı il** - Bakının Zoopark küçəsində yaşamış erməni K.Avetisovun evindən minalar, kimyəvi tərkibli maddələr, xeyli avtomat patronları tapılmışdır.

**5 iyun 1990-cı il** - Noyemberyan rayonunun kəndlərindən Qazağın Kəmərli və Barxudarlı kəndləri aramsız atəşə tutulmuşdur.

**7 iyun 1990-cı il** - İcevanın Haykovit kəndindən üç silahlı erməni Sofulu kəndinə soxularkən yaxalanmışlar.

**8 iyun 1990-cı il** - İki Azərbaycan vətəndaşı - K.Bayramov və Ç.Mustafayev Gürcüstanın Marneuli rayonunda "QAZ-24"





markalı avtomobildə 5 silahlı erməni tərəfindən girov götürülərək Ermənistana keçiriliblər. Möhkəm döyüldükdən sonra Mustafayev buraxılıb. Bayramov üçün 100 min manat almışlar.

**9 iyun 1990-cı il** - 30 silahlı erməni Şahbuzda C.Cabbarlı sovxozunun çobanlarına basqın edib, 90 baş qoyun, 60 silahlı erməni isə Kəlbəcərin Söyüdlü kəndinə basqın edərək 747 baş qoyun aparmışlar.

**11 iyun 1990-cı il** - Sovet əsgəri formasında Basarkeçərə gəlmiş 50 nəfər quldur Kəlbəcərin Yellicə kənd çobanlarına basqın etmiş, B.Cəbrayılovu və oğulları Eldarla Ələkbəri ağır yaralamışlar. Eldar xəstəxanada keçinmişdir.

Hadrut rayonunun Donsu kənd erməniləri Laçın rayonunun Alıcan kəndinə hücum edib 8 ev yandırmışlar.

**12 iyun 1990-cı il** - Basarkeçər ərazisindən silahlı ermənilər Daşkəsənin Zəylik kəndinə hücum ediblər. Tutulan 4 quldurdan 2 "AK" avtomatı, 2 karabin alınmışdır.

**13 iyun 1990-cı il** - Şuşalı sürücülər N.Muxtarov və A.Quliyevin avtomobilləri Stepanakert ərazisində daş-qalaq edilmiş, maşın tam yararsız hala salınmış, sürücülər isə ağır xəsarət almışlar.

**14 iyun 1990-cı il** - Meşəli kəndindən Əsgəran rayonuna qayıdan maşınlar daş-qalaq edilib, sıravi əsgər R.Koretski, Xocalı sakinləri N.Ağalarov və M.Həmidov ağır yaralanmışlar.

**21 iyun 1990-cı il** - Laçın rayonunun Köhnəkəndindən 10 uşağı, K.Səlimovu 14 yaşlı oğlu Elçinlə birlikdə ermənilər vəhşicəsinə öldürmüşlər.

**23 iyun 1990-cı il** - Gədəbəy rayonunun Hacılar kəndinə hücum edən ermənilər 31 baş mal-qaranı aparmış, Nərimanov adına kolxozun yüzlərlə mal-qarasını qırıb qaçmışlar.

**24 iyun 1990-cı il** -Kəlbəcərdə erməni quldur dəstəsi hərbi vertalyotu atəşə tutmuş, əsgərlərdən O.Ustinovu, V.Zaqonovu və Y.Şerbinini yaralamışlar. Hadisə zamanı 2 erməni qulduru öldürülmüş, ələ keçirilimiş V.Sərkisyan və S. Qazaryandan 860 ədəd avtomat patronu, 3 radioqəbuledici və partlayıcı maddələr müsadirə edilmişdir. 20-dən çox erməni yaraqlısı Kəlbəcərin "Tağı dərəsi" və "Üçtəpə" yaylaqlarında çobanlara hücum edərək 2 min baş qoyun, 13 baş qaramal, 4 at aparmışlar.

Qazağın Bağanis-Ayrım, Quşçu-Ayrım, Barxudarlı kəndləri Ermənistandan atəşə tutulmuş, İ.Qasımov yaralanmışdır.

**26 iyun 1990-cı il** -Erməni quldurları Gədəbəyin Göyəli kəndindəki milis postuna hücum etmiş, 61 yaşlı İ.Nuriyevi, M.Nağıyevi, 55 yaşlı İ.Orucovu öldürmüş, İ.Muradovu yaralamışlar. İ.İsmayılov isə itgin düşmüşdür.

**28 iyun 1990-cı il** - Ermənilər "Niva" maşınında Aşağı Əskipara kəndinə soxulub A.Əsgərovu girov aparmaq istəmişlər. 100-dən çox erməni Göyəli və Qaravəllər kəndlərinə də basqın etmişlər.

**30 iyun 1990-cı il** - Ermənistanın Azatamut, Aygevit Sevkar





istiqamətindən Qazağın Sofulu və Barxudarlı kəndləri atəşə tutulmuşdur. (nədənsə, hərbçilər cavab atəşi açmamışlar).

**03 iyun 1990-cı il** - Qazaxdan Ermənistana gedən Maz-5549 markalı yük maşınından Balacəfərli sərhəd postuna ermənilər əldəqayırma qumbara atmışlar. 2 erməni həbs edilmişdir. Hərbi əməliyyatlar, bombardmanlar partlayışlar nəticəsində təbii komplekslər məhv edilmişdir. 10 min hektar əkin sahəsi, 600 hektar meşə məhv edilmişdir.

**6 iyun 1990-cı il** - Qubadlının Yuxarı Cibikli postu vertalyotdan atəşə tutulmuş, bir nəfər həlak olmuşdur. Laçının Zabux, Cicimli, Cağazur, Malıbəyli, Güləbird kəndlərində yerləşən postları erməni vertolyotundan raketlərlə, minamyotlarla, qumbara və avtomotlarla atəşə tutulmuşdur.

**9 iyun 1990-cı il** - Ermənilər Tərtərin Qaradağlı kəndinə basqın edib 2 nəfəri öldürüb, 2 nəfəri də yaralamışlar. Hadrutun Zamzur kəndinə hücum edən ermənilər bir milis işçisini yaralamışlar.

**14 iyun 1990-cı il** - Qarabağda həbs olunmuş ermənilərdən məxfi sənəd əldə edilmişdir. Ödəniş cədvəlinə görə hər öldürülən azərbaycanlı üçün erməni yaraqlısına 2500-3000 manat mükafat verilirmiş.

**19 iyun 1990-cı il** - Şuşa avtomobil yolunda ermənilər güllə ilə bir hərbi qulluqçunu öldürür, bir nəfəri isə yaralayırlar.

**22 iyun 1990-cı il** - Sırxavənddə ermənilər bir azərbaycanlını qətlə yetirmişlər.

**25 iyun 1990-cı il** - Ağdərənin "Mahal yurd" yaylağında ermənilər M.F.Axundov adına kolxozun çobanını qətlə yetirmişlər.

**26 iyun 1990-cı il** - Murovdağa gedən İmarət Qərvənd kənd sakinlərinə hücum edən ermənilər birini qətlə yetirmiş, digərini isə yaralamışdı.

**28 iyun 1990-cı il** - Martuni rayonunun Qaradağlı kəndi şiddətli atəşə tutmuş, 6 nəfər qətlə yetirilmiş, 2 nəfər yaralanmış və 130 baş iribuynuzlu mal-qara aparılmışdır.





## İYUL AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**15 iyul 1890-cı il** - İstanbuldakı Kumqapı kilsəsinə yığışmış erməni quldurları kilsənin patriarxı Aşiqyanı otağından zorla çıxarıb faytonla kilsədən qaçırmışlar. Hadisə yerinə gələn əsgərlərin 16-ı quldurların açdığı atəşdən həlak olmuşdur.

**İyul 1893-cü il** - Türkiyənin Yozqat şəhərində qiyam etmiş ermənilər onlara qatılmayan Boğazkaya kənd ermənilərini və Talas kəndinin sakini zərgar Haconu qətlə yetirmişlər. Mədəndən Yozqata gedən poçt arabasının sürücüsünü və gözətçisini öldürmüş, 170 ədəd qızıl sikkə və xeyli pul aparmışlar.

**İyul 1894-cü il** - Qriqor və vanlı Vartanın başçılığı ilə quldur erməni dəstəsi İranla Türkiyə arasındakı Havaruz yaşayış məntəqəsinə hücum etmiş çoxlu sayda kişi, qadın və uşaq qətlə yetirmişlər. Hambarsum Boyacyanın başçılıq etdiyi erməni quldur dəstəsi Muş şəhəri yaxınlığında Bikrəm və Zadyan tayfalarına hücum edib, Hacının qarnını yırtıb, sonra tonqalda yandırmışlar. Cevizlidərə kəndində üç ailənin qadın və qızlarını zorladıqdan sonra qəddarcasına öldürmüş, 30 nəfərə isə ölənədək işgəncə vermişlər.

**21 iyul 1905-ci il** - "Daşnaq" quldur dəstəsinin üzvləri Osmanlı sultanı II Əbdülhəmidin karetasını partlatmış, 26 nəfəri öldürmüş, 58 nəfəri yaralamışlar.

**İyul 1919-cu il** - Vedi rayonunun Xastab, Ağbasyamaclar, Qocan, Sura, Hacı, Qurbanlar, Atgöz, Dəhla, Qurqərqə kəndlərinə ermənilər silahlı basqın etmiş, 300 ev dağıdılmış, 58 arvad-uşaq öldürülmüşdür.

**4 iyul 1919-cu il** - Erməni Sasenin alayı Qarnaqdağ tərəfdən Böyük Vediyə hücum etmişdir. Bunu görən yerlilər 2 nəfər elçi göndərsələr də, ermənilər onları öldürərək, kəndi bombalayıblar. Kəmərli kəndi tərəfdən də başqa bir alay hücuma qoşulur. Kənd əhalisindən çoxsaylı tələfat olsa da, düşmənlərin kəndə girməsinə imkan verilmir.

**22 iyul 1922-ci il** - Osmanlı dövlətinin Hərbi Dəniz Donanmasının naziri Camal Paşa və onun köməkçiləri Nüsrət, Sürəyya Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilmişlər.

**25 iyul 1922-ci il** - 2 erməni casusu Camal Paşanın Tiflisdəki evini gülləbaran edib, Paşanı qətlə yetiriblər.

**24 iyul 1923-cü il** - İsveçrənin Lozanna şəhərində sülh müqaviləsi bağlanmış, orada erməni məsləsinə aid heç bir bənd salınmadığı üçün qondarma bu məsələ gündəlikdən tamamilə çıxarılmış oldu.

**8 iyul 1979-cu il** - Parisdə türk obyektlərində 4 bomba partlayışı törədilmişdir:





a) "Türkiyə Hava Yolları" aviakompaniyası binasında;

b) Türkiyə səfirliyi attaşesinin binasında;

v) Türkiyə Turizm Bürosunun binasında;

q) "Türkiyənin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı"nda qoyulmuş bomba nəticəsində xeyli ziyan vurulmuşdur.

**1 iyul 1982-ci il** - Hollandiyanın Rotterdam şəhərindəki Türkiyənin Baş konsulu Kəmaləttin Dəmirər 4 erməni terrorçusunun hücumuna məruz qalmış və ağır güllə yarası almışdır.

**14 iyul 1983-cü il** - Brussel şəhərində erməni terrorçuları Türkiyə səfirliyinin inzibati attaşesi Dursun Aksoyu öz arabasında güllə ilə qətlə yetirmişlər.

**15 iyul 1983-cü il** - Parisdə Orli hava limanında "Türkiyə Hava Yolları" aviakompaniyasının şöbəsi qarşısında bomba partladılmış, 8 nəfər (4 fransız, 2 türk, bir amerikalı və bir isveçli) həlak olmuş, 60 (28-i türk) nəfər yaralanmışdır.

**27 iyul 1983-cü il** - Lissabonda 5 erməni quldunu Türkiyə səfirliyinə hücum etmiş, səfirin müavini Yurdsev Mınçıoğlunu və onun ailəsini girov götürmüşlər. Terrorçular tərəfindən partladılan mina nəticəsində Mınçıoğlunun oğlu Atasay yaralanmış, terrorçuların 4-ü həlak olmuş, 1 portuqaliyalı polis qətlə yetirilmiş, biri isə yaralanmışdır.

**3 iyul 1988-ci il** - Sumqayıtdan Əsgərana "qaçmış" ermənilərə ev tikmək adı ilə İrəvanın Politexnik İnstitutunun 65

tələbəsi "Arsax" inşaat dəstəsi adı ilə Qarabağa gəldi. "Qarabağ Komitəsi" tərəfindən möhkəm təlimatlandırılmış tələbələr Qarabağa səpələnərək, millətçilik ideyalarının təbliği ilə məşğul olmuşlar.

**4-5 iyul 1988-ci il** - İrəvanın "Zvartnos" təyyarə limanında erməni ekstremistləri ilə Sovet hərbi hissələri arasında şiddətli toqquşma olmuşdur. Ermənilərdən bir nəfər öldürüldüyü, xeylisinin yaralandığı halda, blokadada 19 min sərnişin təhqirlərə məruz qalmışdır.

**9 iyul 1988-ci il** - Ermənilər "Azərinform"a məlumat vermişlər ki, Ermənistandan qaçanların (qovulmuşların) sayı 20 min nəfərdir.

**11 iyul 1989-cu il** - Erməni quldurları Ağdərə (Mardakert) rayonu ərazisindən Tərtər (Mirbəşir) rayonundan Kəlbəcərə gedən avtomobil karvanının yolunu partladaraq, karvanı gülləbaran etmiş, 8 nəfəri qətlə yetirmiş, xeyli sərnişini ağır yaralamışlar. Kərkicahan yaxınlığında isə silahlı ermənilər hücum edərək, Orduxan Səfərovu, Əli Nəbiyevi vəhşicəsinə parça-parça etmiş, Natiq Salayevi ağır yaralamışlar.

**12-13 iyul 1989-cu il** - Azərbaycan Elmlər Akademiyası Genetika və Selleksiya İnstitutunun Qarabağ elmi eksperimental bazasının Ağdərə (Mardakert) rayonundakı inzibati binaları hücuma məruz qalmış, azərbaycanlıların bütün mənzilləri qarət edilmişdir. Qarabağ elmi eksperimental bazasının əsas binasını





100 erməni mühasirəyə alıb, azərbaycanlıları təcili olaraq oradan çıxmağı əmr etmişlər. Ağdərənin (Mardakert) raonunun Çapar kənd erməniləri Kəlbəcərin Ağdaban kəndinə hücum etmişlər. Ermənilərin başçısı Xaçik Sarkisyanı 7 quldurla birlikdə ağdabanlı qadınlar tutmuşlar.

**14 iyul 1989-cu il** - Ağdərənin (Mardakert) Leninavan kənd sakini Fərhad Sultanovun ailəsi ermənilərin silahlı hücumuna məruz qalmışdır.

**15 iyul 1989-cu il** - Xankəndində (Stepanakert) erməni millətçiləri Eyvaz Allahverdiyevin evinə bomba atmış, partlayış nəticəsində həyətdəki 4 avtomobil yandırılaraq külə döndərilmişdir.

**24 iyul 1989-cu il** - Kərçivan-Mehri sahəsinin 347-ci kilometrliyində Ermənistan dəmiryoluna mina qoyulmuşdur. 1000 nəfər sərnişi olan qatar vaxtından 15 dəqiqə gecikdiyinə görə, partlayış ermənilərin gözlədiyi nəticəni verməmişdir.

**29 iyul 1989-cu il** - Ermənistanın hüquq mühavizə orqanları işçiləri Culfa Maşinist Deposunun 8 maşinistini Mehri rayonuna aparıb işgəncə verərək yalan ifadə verməyə məcbur etmişlər.

**30 iyul 1989-cu il** - Əsgəran Rayon Daxili İşlər Şöbəsinin cinayət axtarışı bölməsinin rəisi Qərib Harutyunyan Meşəli kəndində azərbaycanlı Miryusifi güllə ilə qətlə yetirmişdir.

**31 iyul 1989-cu il** - Laçın rayonu ərazisində Ermənistandan Dağlıq Qarabağa tikinti materialları aparan maşınlar yoxlanılarkən hərbiçilər atəş açaraq, 7 azərbaycanlını yaralamışlar.

## AVQUST AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**22 avqust 1889-cu il** - Azərbaycanlılara məxsus Oşakan kəndi Eçmıədzin kilsəsi tərəfindən alınıb.

**4 avqust 1894-cü il** - Toqatdan İstanbula gedən poçt arabası 7 nəfər ermənininin hücumuna məruz qalmuş, sürücü Mehmed Əfəndinin başı kəsilmişdir.

**14 avqust 1896-cı il** - "Hnçaq" və "Daşnak" partiyalarına məxsus 23 erməni terrorçusu "Osmanlı bankı"nın rəisini vəhşicəsinə öldürmüş, sonra isə 6 işçini qətlə yetirmişlər. İstanbul Aleppo bazarının yanından keçən əsgərlərdən 27-si və 2 polis ermənilərin atdığı bomba ilə qətlə yetirilmiş, 24 nəfər yaralanmışdır. Kasımpaşada ermənilər silahsız camaata hücum edib, 23 türkü öldürmüş, 40 nəfəri isə yaralamışlar.

**22 avqust 1896-cı il** - Qaregin Pasdermançyanın (sonra Osmanlı Parlamentinin deputatı olub) başçılığı ilə 4 erməni qulduru "Osmanlı - bankı"na hücum edib, işçiləri girov götürmüşdür.

**29 avqust 1903-cü il** - Quba alayında Con Naxikyan əldəqayırma qumbara hazırlamaqla məşğul idi. Təsadüfi partlayış nəticəsində terrorçu məhv olur.





Yelizavetapol (Gəncə) şəhərindəki kilsə zəngindən sonra bir neçə min silahlı erməni toplaşaraq "Hnçaq" təşkilatının tələbi ilə dinc əhalini atəşə tutublar.

**8 avqust 1905-ci il** - Benk kəndinin 300 nəfər erməni qulduru Şuşadan Gəncəyə gedən karvanın qabağını kəsib talayır, müsəlmanları qırırlar. Quldurlara erməni əsgərləri də qoşulur. Azərbaycanlılardan Şuşanı tərk etməyi tələb edirlər. Abbas bəyi, qardaşını və bir neçə qulluqçunu qətlə yetirirlər.

**16-21 avqust 1905-ci il** - Şuşa şəhərində 60 nəfər azərbaycanlı qətlə yetirilib.

**20 avqust 1905-ci il** - Dişinə qədər silahlanmış erməni quldurları yaşayış sahələrinə hücum edir, adamları vəhşicəsinə qətlə yetirir, başlarını kəsir, qadınların qarınlarını yarır, cəsədlərin çoxunu dənizə atırlar.

**21 avqust 1905-ci il** - Silahlı erməni quldurları Şuşa qəzasına hücum edib məktəb təmiri ilə məşğul olan 17 nəfər azərbaycanlının başını kəsirlər.

**25-26 avqust 1905-ci il** - İkinci qızğın müharibə baş verir. 4 azərbaycanlı kəndi yerlə-yeksan edilir, 100 nəfər qətlə yetirir.

**17-30 avqust 1918-ci il** - Erməni quldurları tərəfindən Eçmiədzin, Sürməli, İrəvan, Yeni Bayazid qəzalarında 50 kənd talan edilib, dağıdılıb, sakinlər qətlə yetirilib.

**31 avqust 1918-ci il** - Beynəlxalq məhkəmədə ermənilər il ərzində 400 min azərbaycanlını, 120 min gürcünü, 15 min

kürdü, 22 min ləzgini qətlə yetirdiklərini boyunlarına alırlar.

**15 avqust 1919-cu il** - "Daşnaksütyun" partiyasının tələbi ilə ermənilər Türkiyənin Ərzurum şəhərində əksəriyyətini qadın və uşaqlar təşkil edən 426 nəfəri qətlə yetirib, yandırıblar.

**22 avqust 1979-cu il** - Cenevrədəki Türkiyə konsulu Niyazi Adalın maşınına qoyulan bomba partlayışı nəticəsində 2 nəfər İsveçrə vətəndaşı və konsul ağır bədən xəsarəti almışdır.

**27 avqust 1979-cu il** - AFR-da "Türkiyə Hava Yolları" aviakompaniyası binasında bomba partlayışı nəticəsində Danimarka vətəndaşı ağır yaralanmış, bina zədələnmişdir.

**5 avqust 1980-ci il** - Fransanın Lion şəhərindəki Türkiyə Konsulluğuna terrorçular atəş açaraq 2 nəfəri qətlə yetirib bir neçə adamı yaralamışlar.

**11 avqust 1980-ci il** - ABŞ-da "Türk evi" adlanan (Türk Konsulluğu) binaya 2 bomba atılmışdır.

**7 avqust 1982-ci il** - Türkiyənin "Esenboğaz" aeroportunda erməni terrorçuları tərəfindən ABŞ, AFR və Türkiyə nümayəndələri qətlə yetirilmiş, atışma nəticəsində 9 nəfər öldürülmüş, 82 nəfər yaralanmışdır.

**12 avqust 1982-ci il** - Parisdə erməni quldurları Türkiyə attaşesinə atəş açaraq xeyli ziyan vurmuşlar.

**27 avqust 1982-ci il** - Kanadanın Ottava şəhərində Türkiyə konsulluğu atəşə tutulur, polkovnik Atilla Altikan qətlə yetirilir.





**20 avqust 1988-ci il** - Ermənistandan qovulub Dağlıq Qarabağda məskunlaşmış azərbaycanlıları qovmaq üçün 10 min erməni yaraqlısı Xankəndinin küçələrinə çıxdılar.

**1 avqust 1989-cu il** - Hamlet Koçaryanın Zəngilanın Seyidlər kəndinə basqın edən quldur dəstəsi ələ keçirilmişdir.

**6 avqust 1989-cu il** - Əsgəranın Meşəli kəndində 5 azərbaycanlı qətlə yetirilib.

**8 avqust 1989-cu il** - Bakıdan gələn yük karvanı Kərçivanda basqına məruz qalmış, İliç rayonundan Səid Nəsirov, Qaraxanbəyli kəndindən Mirkamal Seyidov ağır yaralanmışlar.

**9 avqust 1989-cu il** - Daşaltı kədinin erməniləri Şuşa şəhərini aramsız olaraq avtomat atəşinə tutmuşlar.

**11 avqust 1989-cu il** - Əsgəran rayonunun Daşbulaq kəndində bir azərbaycanlı evi bombayla dağıdılmışdır.

**13 avqust 1989-cu il** - ermənilər Şuşa su kəmərini, Ağdam-Əsgəran dəmiryolu platformasını partlatmışlar.

**16 avqust 1989-cu il** - Şuşanın Qaladərəsi kənd sakini Armen Barseğyan və Pavel Voskanyanın mənzillərindən hərbi sursat, əl qumbarası və tüfənglər müsadirə edilmişdir.

**17 avqust 1989-cu il** - Şuşa-Ağdam avtobusu ermənilərin hücumuna məruz qalmış, 6 azərbaycanlı ağır yaralanmışdır.

**23 avqust 1989-cu il** - Mardakertdə Soltan Ağayevin "Niva" maşını sındırılmış, özü isə döyülmüşdür.

**28 avqust 1989-cu il** - Şuşadan Ağdam və Bakıya gedən 9 avtobus və bir yük maşını ermənilərin hücumuna məruz qalmış, 18 nəfər yaralanmışdır.

**3 avqust 1990-cı il** - Bakı-Noraşen sərnişin qatarı Kərçivanda daşa basılmış, A.Ağayev yaralanmışdır. Xaçın kəndindən 9 nəfər quldur erməni Şərur rayonunun Avuş kəndini atəşə tutmuşlar.

Marneuli rayonunun Ahlı kənd sakini ermənilər tərəfindən avtomatla qətlə yetirilmişdir.

**8 avqust 1990-cı il** - Erməni yaraqlıları Şahbuzun Badamlı, Şada və İcevanın Azamut kəndindən Qazağın Barxudarlı kəndləri atəşə tutulmuşdur.

**9 avqust 1990-cı il** - Silahlı ermənilər Kəlbəcərin Söyüdlü yaylağına basqın edib 279 baş mal-qaranı aparmışlar.

**10 avqust 1990-cı il** - 8 silahlı erməni Tovuz rayonunun Göyəbaxan kəndindən iki nəfəri girov aparmış, 790 baş mal-qaranı da oğurlamışlar. Əsgəran rayonunun Kosalar kəndinə gedən maşın karvanı ermənilər tərəfindən daş-qalaq edilmiş, 15 maşın sıradan çıxarılmışdır.

**11 avqust 1990-cı il** - Vardenis (Basarkeçər) rayonundan ermənilər Kəlbəcərin Alolar kəndinə basqın edib 45 mal-qara aparmışlar. Gəncə yaxınlığında isə Tbilisi-Ağdam avtobusu partladılmış, ölənlər və yaralananlar olmuşdur.

**17 avqust 1990-cı il** - Noyemberyan rayonundan Qazax





rayonunun Yuxarı Əskipara kəndi atəşə tutulur. F.Mehdiyev həlak olur, V.Həsənov və N.Eminov yaralanır.

**19 avqust 1990-cı il** - Noyemberyan rayonundan Əskipara-Qazax marşrutu ilə gedən avtobus atəşə tutulur. DİŞ-in əməkdaşı Ş.Çobanov və milis kapitanı A.Məmmədov həlak olur, 4 nəfər, o cümlədən iki serjant yaralanır. Əskipara kəndindən də 2 nəfər qətlə yetirilir.

**20 avqust 1990-cı il** – Noyemberyan və İcevan rayonlarının birləşmiş ordusu tərəfindən Qazax rayonunun 7 kəndi güclü top və minamyot atəşinə məruz qalır, kəndlər xarabazara çevrilir.

**24 avqust 1990-cı il** - Xankəndində ermənilər R.Ələkbərov idarə etdiyi QAZ-24 maşınından düşürülmüş və qaz balonu ilə ailə üzvlərini boğmağa çalışmışlar.Alolar kəndinin çobanı B.Ramazanovu oğurlamışlar. 25 avqustdan ayın sonuna qədər sıravi əsgər A.İsmayılov yaralanıb. Tovuzun Qoşakənd və Muncuqlu, Naxçıvanda Günnüt, Laçının Malxələf, Cicimli, Taycı kəndləri aramsız top və pulemyot atəşinə tutulmuşlar.

**2 avqust 1991-ci il** - Əsgəranın Badaya kəndi yaxınlığında təciliyardım maşını atəşə tutulur, 2 nəfər ağır yaralanır. Goranboyda 4 nəfər Gəncə sakini girov götürülür. 3 əsri qaytarmaq üçün 90 min manat pul tələb edilir.

**3 avqust 1991-ci il** - Şuşanın Cıdır düzündəki vertalyot meydançası atəşə tutulur.

**5 avqust 1991-ci il** - Laçın rayonunun Fərəcan kəndi avtomatlardan atəşə tutulur, 1 nəfər yaralanır.

**6 avqust 1991-ci il** - Hadrutun Dolanlar kəndində ermənilərin partlayıcı qurğusu ilə 2 nəfər həlak olur, 2 ev yandırılır, yaralananlar var.

**8 avqust 1991-ci il** - Nüvədi kəndi silahlı ermənilər tərəfində mühasirəyə alınır, aramsız atəşə tutulur, min nəfər sakin kənddən qovulur.

**10 avqust 1991-ci il** - Ermənilər Culfa rayonunun Dəmirli yaylağına basqın edir, "Qələbə" sovxozunun çobanı öldürülür və 1050- baş davar oğurlanır.

**15 avqust 1991-ci il** - DQMV Respublika Təşkilat Komitəsi rəhbərlərinə süi-qəsd edilmişdir. Atılmış qumbara ilə UAZ-469 maşınında 2 nəfər yaralanmışdır.

**18 avqust 1991-ci il** - Goranboya hücum edən silahlı ermənilər 2 nəfəri qətlə yetirmiş, 3 nəfəri yaralamışlar.

**21 avqust 1991-ci il** - Silahlı ermənilər Qazax rayonunda 3 nəfəri qətlə yetirmişlər.

**23 avqust 1991-ci il** - Şuşa-Cəmilli istiqamətində hərəkət edən avtobusu ermənilər güllələbaran edir, 4 nəfər qətlə yetirilir, 13 nəfər isə yanalanır.

**27 avqust 1991-ci il** - Ermənilər Goranboyun Rus Borisi kəndinə hücum edib maşınları və mal-qaranı oğurlamış, 3 naxırçını ölümcül döymüşlər. 200 nəfər erməni silahlısı Şəfəq və Gürzalar kəndlərinə hücum etmiş, milis postuna atəş açmışlar.





**29 avqust 1991-ci il** - Ermənilər Şəfəq kəndində 1 nəfəri qətlə yetirmiş, 3 nəfəri isə yaralamışlar. Füzulinin Aşağı Veysəlli kəndində içərisində 7 nəfər olan maşını Martuni rayonuna girov aparmışlar.

**30 avqust 1991-ci il** - Füzuli rayonunun Aşağı Veysəlli kəndində ermənilər 6 nəfəri girov aparmışlar.

**6 avqust 1992-ci il** - Ermənistan hərbi birləşmələri Gədəbəy rayonuna hücum etmiş 5 nəfər dinc əhalini qətlə yetirmişlər.

**23 avqust 1993-cü il** - Müasir tipli texnika ilə silahlanmış ermənilər Füzuli rayonuna hücum etmiş, yerli sakinləri silah gücünə qovmuşlar.

**25-26 avqust 1993-ci il** - Dişinə qədər silahlanmış ermənilər Cəbrayıl və Füzuli rayonunun bir hissəsini işğal etmişlər.

**31 avqust 1993-cü il** - Ermənilər Qubadlı rayonunu işğal etmişlər.

## SENTYABR AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**14 sentyabr 1829-cu il** - Ədirnə sülhünə görə ermənilər Azərbaycanın qərb hissəsinə köçürülməklə "yersiz gəldi, yerli qaç" deyiminin həyata keçirilməsinə zəmin yarandı.

**18 sentyabr 1894-cü il** - İstanbulda "Hnçaq" təşkilatı qanlı küçə qırğını təşkil etmiş, türk və kürdləri - qocaları, qadınları və uşaqları qırmışlar.

**16 sentyabr 1895-ci il** - Türkiyənin Zeytun (indi Süleymanlı) yaşayış məntəqəsindəki qiyam zamanı 50 zabit, şəhərin komendantı və 600 əsgər silahlı ermənilər tərəfindən mühasirəyə alınıb və erməni qadınlarının gözləri qarşısında hamısı qətlə yetirilib.

**26 sentyabr 1895-ci il** - İstanbuldan Trabzon şəhərinə gəlmiş yüzlərlə silahlı erməni şəhərin Şərq Meydanında dinc əhalini güllləbaran etmiş, əsgər Rəhimi və 21 sakini öldürmüşlər.

**30 sentyabr 1895-ci il** - İstanbulda 1000-dən çox erməni küçəyə toplaşaraq oradan şəhərin Babalı hissəsinə yürüş edir, yolüstü mayor Sərvəti balta ilə doğrayır, onlarca dinc əhalini və vəhşicəsinə qətlə yetirirlər.





**02 sentyabr 1903-cü il** - Türkiyənin Qars şəhərindəki Surp-Nişan kilsə zənginin səsinə minlərlə silahlı erməni toplaşır.

Duyuq düşən ordu hissəsi quldurları dağıtmağa müyəssər olur.

Həmin gün Bakıda da silahlı ermənilər kilsə zənginin səsinə meydana toplaşır. Yerli hakimiyyətin: "Dağılışın!" əmrinə ermənilər atəş açmaqla cavab verirlər. 45 silahlı quldur həbs edilir.

**09 sentyabr 1903-cü il** - Türkiyənin Qars şəhərində erməni quldurları tərəfindən Şərif Hacıbəyli qətlə yetirilir.

**12 sentyabr 1903-cü il** - Gəlmə və yerli ermənilər Şuşa şəhərində böyük qalmaqal salırlar.

**13 sentyabr 1903-cü il** - "Hnçaq" təşkilatının tapşırığını yerinə yetirmədiyinə görə erməni Potoyants öldürülür.

**12 sentyabr 1918-ci il** - Andranikin qoşunları Zəngəzurda 18 kəndi yandırıb, 500 kişi, qadın və uşağı qətlə yetirmişdir.

**19 sentyabr 1919-cu il** - Cəbrayıl rayonunda erməni quldurları 3 çobanı öldürmüş, birinin başın kəsmişlər.

**02 sentyabr 1920-ci il** - "Daşnaksütyün" partiyasının rəhbərliyi ilə Türkiyənin Qars və Ərzurum şəhərində ermənilər tərəfindən 480 nəfər türk, kürd və azərbaycanlı qətlə yetirilmişdir. İrəvanda, Şərur-Dərələyəzdə də yerli azərbaycanlılara əzab və işgəncələr vermişlər.

Bu dəhşətli faciədən qaçıb Olta çayını keçmək istəyən 1500 nəfərdən 650-si boğulmuşdur.

**09 sentyabr 1948-ci il** - Ermənistandan yerli azərbaycanlıları çıxarmaq üçün onlara köçürmə bileti vermişlər.

**26 sentyabr 1980-ci il** - Fransada olan Türkiyə səfirliyinin mətbuat üzrə müşaviri Səlcuq Bakalbaşı evinə gedərkən erməni terrorçuları tərəfindən güllələnmiş və ömürlük iflic olmuşdur.

**15 sentyabr 1981-ci il** - Danimarkada "Türkiyə Hava Yolları" aviakompaniyasının nümayəndəliyi qarşısında erməni terrorçuları tərəfindən bomba partladılmış, 2 nəfər ağır bədən xəsarəti almışdır.

**24 sentyabr 1981-ci il** - ASALA-nın üzvlərindən 4 nəfər Livan erməniləri silahlanaraq Fransada Türkiyə Konsulluğunun binasını zəbt etmiş, 57 nəfəri girov götürmüşlər. Konsul Kaya Snal və gözətçi Camal Özən yaralanmışlar. Özən xəstəxanada aldığı yaradan dünyasını dəyişmişdir.

**09 sentyabr 1982-ci il** - Bolqarıstanda Türkiyə Konsulluğunun inzibati attaşesi Bora Suelkan öz evi qarşısında erməni quldurları tərəfindən qətlə yetirilmişdir.

**01 sentyabr 1984-cü il** - Tehranda Türkiyə səfiri İsmət Birselə qarşı ermənilər tərəfindən təşkil olunmuş terrorun üstü açılmışdır.

**30 sentyabr 1985-ci il** - İstanbulda "Hnçaq" təşkilatının əsası qoyulub. Vanlı bankirin oğlu Mkırtıç Partakalyanın rəhbərliyi ilə erməni diasporunun terrorçu dəstəsi yaradılır.

**03 sentyabr 1988-cü il** - Erməni millətçiləri Kərkicahan





qəsəbəsini atəşə tutub, yerli azərbaycanlıların buranı tərk etmələrini tələb ediblər.

**12 sentyabr 1988-ci il** - 3000 nəfər azğınlaşmış erməni Xankəndində vilayət prokurorluğuna basqın edib, həbs olunmuş araqızışdırıcıların azad olunmasını tələb ediblər.

**18 sentyabr 1988-ci il** - Xankəndindən bir dəstə silahlı erməni Xocalıya basqın edib bir nəfəri qətlə yetirmiş, 25 nəfəri isə yaralamışlar.

**21 sentyabr 1988-ci il** - Xankəndində azərbaycanlılara məxsus 187 ev və xeyli miqdarda minik maşınları yandırılmış, talan edilmişdir.

**22 sentyabr 1988-ci il** - Xankəndində və Ermənistanın ayrı-ayrı şəhərlərində eyni vaxtda kütləvi tətillərə başlanmışdır.

**10 sentyabr 1919-cu il** - Quldur ermənilər Qubadlı rayonunun Seytas kənd sakini İlham Heydərovu vəhşicəsinə qətlə yetiriblər.

**16 sentyabr 1989-cu il** - Tbilisi-Bakı avtobusu erməni terrorçularının qoyduğu bomba nəticəsində partladılmış, 5 nəfər (2 kişi, 2 qadın, 1 uşaq) qətlə yetirilmiş və 27 nəfər ağır bədən xəsarəti almışdır.

**18 sentyabr 1989-cu il** - Silahlı ermənilər tərəfindən Ağdam rayonunun Qiyaslı kəndi atəşə tutulub 2 nəfər qətlə yetirilib, 4 nəfər ağır yara almışdır.

**20 sentyabr 1989-cu il** - Erməni quldurları Basarkeçər

tərəfdən Kəlbəcərin Söyüdlü kəndinə soxularaq 4 evə od vuraraq yandırır, sonra da şaxtada partlayış törədirlər.

**22 sentyabr 1989-cu il** - Azğınlaşmış ermənilər, Ağdam-Şuşa marşurutu ilə hərəkət edən avtomobil karvanını daşa basır, adamları yaralayır, maşınları əzirlər.

**26 sentyabr 1989-cu il** - Əsgəran rayonunun Ağbulaq kəndində öz toyundan evə qayıdan 23 yaşlı Bərxudar Əsgərovu ermənilər qətlə yetirirlər.

**02 sentyabr 1990-cı il** - Erməni quldurları Vayk, Sisyan, Babək, Tovuz rayonlarının kəndlərini eyni gündə atəşə tutmuşlar.

**05 sentyabr 1990-cı il** - Mardakert rayonunun Çıldıran kənd erməniləri Güneypəyə kəndini atəşə tuturlar, 13 yaşlı G.Novruzov ağır bədən yarası alır.

**07 sentyabr 1990-cı il** - Gorus rayonunun Xazanvar kəndindən Laçın rayonunun Hacılar və Qaydular kəndinə basqın edən silahlı ermənilər 156 baş mal-qara aparıblar.

**08 sentyabr 1990-cı il** - Laçın rayonunda yük maşını Hadrut rayonunun Dolu kənd erməniləri tərəfindən atəşə tutulur, maşında olan 3 qardaşdan Xanoğlan və Elman həlak olur, Elxan Süleymanov isə ağır bədən xəsarəti alır.

**09 sentyabr 1990-cı il** - Xankəndində 6 silahlı erməni Sahib Zamanovu əsir götürə bilmədikləri üçün yaralayırlar. Erməni həkimləri də ona ilk yardım etməkdən boyun qaçırırlar.

**10 sentyabr 1990-cı il** - Martuni rayonundan 5-6 yüz quldur





erməni hücum edərək, DİŞ-in rəis müavini N.Bəylərovu, əməliyyat müvəkkili A.Məmmədovu və milis serjantı F.Mirzəyevi girov aparmışlar.

**11 sentyabr 1990-cı il** -Martuni rayonunda erməni quldurları Əmirallar kənd sovetinin sədrini, onun 14 yaşlı oğlu Vüqarı və iki nəfər qadını odlu silahla yaralayırlar.

**12 sentyabr 1990-cı il** - Ermənilər Şahbuz rayon milis postunu atəşə tutmuş, Əsgəran rayonunda Xocalıya gedən avtobus daşqalaq edilmiş, 5 nəfər sərnişin ağır bədən xəsarəti almışdır.

**13 sentyabr 1990-cı il** - 60 nəfər silahlı erməni Əsgəranda Məhərrəmovu vəhşicəsinə döymüşlər. Ağdam-Şuşa sərnişin avtobusuna basqın edib bir neçə nəfəri yaralamışlar.

**14 sentyabr 1990-cı il** - Əsgəran rayonunun Fərrux və Ağbulaq kəndinin erməniləri milis işçiləri ilə birlikdə Ağdam rayonunun Cilli və Gülablı kəndlərini aramsız atəşə tutmuşlar.

**15 sentyabr 1990-cı il** - Erməni quldur dəstəsi Xankəndində radio-televiziya mərkəzini partlatmışlar.

**16 sentyabr 1990-cı il** - Ermənilər Qafan rayonu ərazisindən Zəngilanın Seyidlər kəndini avtomatlardan atəşə tutmuşlar.

**25 sentyabr 1990-cı il** - Fövqəladə vəziyyətdə olmasına baxmayaraq erməni quldurları Noyemberyan rayonundan Qazax rayonunun Quşçu Ayrım kəndlərini aramsız atəşə tutmuşlar.

**04 sentyabr 1991-ci il** - Xankəndinin birinci hərbi

postundan 20 əsgər və 2 zirehli maşın tərəfindən Kərkicahan qəsəbəsi aramsız atəşə tutulub.

**05 sentyabr 1991-ci il** - Silahlı ermənilər Kərkicahana hücum etmiş, Qubadlı rayonunun Novlu kəndindən bir nəfər girov aparmışlar.

**06 sentyabr 1991-ci il** - Silahlı ermənilər Goranboy rayonunun Şəfəq kəndində 2 milis işçisini yaralamışlar.

**07 sentyabr 1991-ci il** - Xocavənd rayonunun Tuğ kəndində 2 azərbaycanlı qətlə yetirilib. Xankəndinə gedən avtobus atəşə tutulub, 3 nəfər öldürülüb, 4 nəfər yaralanıb.

**08 sentyabr 1991-ci il** - Qaradağlı kəndinə gedən avtobus Martuni rayon erməniləri tərəfindən atəşə tutulub, 5 nəfər (4-ü qadın) həlak olur. Ağdam-Xocavənd avtobusu da atəşə tutulur, 4 nəfər qətlə yetirilir 20 nəfər isə yaralanır.

**10 sentyabr 1991-ci il** - Ordubad rayonunun yaylaqlarından erməni quldurları 1250 baş davarı oğurlayıb, 2 çobanı girov aparıblar. Bakıdan Naxçıvana gedən yük qatarı Nüvədi yaxınlığında atəşə tutulub, 3 nəfər girov aparılıb.

**11 sentyabr 1991-ci il** - Şahbuz rayonunun Yuxarı Remeşin kəndi silahlı ermənilərin basqınına məruz qalıb, 850 baş davar oğurlanmışdır.

**14 sentyabr 1991-ci il** - Goranboy rayonunun Buzluq və Baş Qışlaq kəndləri raket, top atəşinə tutulub, sonra 50-yə qədər maşın və 6 BTR-lə hücuma keçiblər, 4 milis işçisi, 10 yerli sakin həlak olub, 3 milis işçisi, 1 kənd sakini yaralanıb, 3 milis işçisi itgin düşübdür.





**16 sentyabr 1991-ci il** - Goranboy döyüşündən sonra 10 azərbaycanlının meyidi yandırılmışdır.

**19 sentyabr 1991-ci il** - Goranboyun Todan kəndi bütün gün ərzində toplardan aramsız atəşə tutulmuşdur.

**21 sentyabr 1991-ci il** - Qazax rayonunun Aşağı Əskipara, Goranboyun Todan, Buzluq, Ağdərənin İmarət Qərvənd kəndləri ermənilər tərəfindən atəşə tutulmuşdur.

**23 sentyabr 1991-ci il** - Əsgəranın Ağbulaq kəndində milis işçilərinin maşını atəşə tutulub, sürücü həlak olub, bir nəfər isə ağır yaralanıb. Xocavənd, Qaradağlı atəşə tutulub, Ağdamda avtomobillər daşa basılıb, Naxçıvanın Babək rayonunda çobanlar erməni quldurları tərəfindən atəşə tutulublar.

**24 sentyabr 1991-ci il** - Ağdərə rayonunun İmarət Qərvənd kəndi ermənilər tərəfindən atəşə tutulub, bir nəfər öldürüldükdən sonra yandırılıb, 1200 nəfər sakin meşələrə qaçmağa məcbur olub.

**25 sentyabr 1991-ci il** - Ağdamdan Xocalıya gedən avtobus yolda erməni quldurları tərəfindən saxladılıb, sonra ermənilər avtobusu iki tərəfdən daşa basıb, 15 nəfər döyülüb, avtobus aşırılıb. Həmin gün Kərkicahana da basqın edilib, bir nəfər öldürülüb, 9 nəfər isə ağır bədən xəsarəti alıb.

**27 sentyabr 1991-ci il** - Bakı-Naxçıvan qatarının hərəkəti dayandırılır. Şuşa Topxana tərəfindən güclü raket atəşinə tutulub, bir nəfər həlak olub, 6 nəfər yaralanıb, bir nəfər isə girov götürülüb Daşaltıya aparılıb. Ermənilər Erkəc kəndindən

Todanı top atəşinə tutublar. Sarısu kəndində bir uşaq yaralanıb, 4 ev dağıdılmışdır.

**29 sentyabr 1991-ci** il - Goranboyun Şəfəq kəndində 15 nəfər milis işçisi ermənilərin mühasirəsinə düşür. Qeyri-bərabər döyüşdə 2 nəfər həlak olur, 5 nəfər isə yaralanır.

**30 sentyabr 1991-ci il** - Hadrut erməniləri Cəbrayıl rayonunun Sirik kəndinə hücum edib, 3 nəfər azərbaycanlı milis yaralanıb. Şahbuzun Biçənək kəndindən 2 nəfər ermənilər tərəfindən girov götürülüb, tele-radio ötürücü stansiyası darmadağın edilib, ətrafla rabitə əlaqəsi tamamilə kəsilib.

**03 sentyabr 1991-ci il** - Ermənilər Noyemberyan rayonundan Fərəhli kəndini atəşə tutublar.

**19 sentyabr 1992-ci il** - Rusiya prezidentinin təklifi ilə Qafqaz respublikasının müdafiə nazirliyinin Soçidə olan görüşləri də bizə yaxşı heç nə verməmişdir.

**25 sentyabr 1992-ci il** - Noyemberyan rayonundan Qazax rayonunun Fərəhli kəndi atəşə tutulub, nəticədə Sayad Allahverdiyev qətlə yetirilib.

**29 sentyabr 1992-ci il** - Ermənilər Qubadlı rayonunun Səfyan posotuna hücum etmiş, 10 nəfər öldürülmüş, 16 nəfər isə yaralanmışdır.

**14 sentyabr 1993-cü il** - Erməni yaraqlıları Noyemberyan rayonundan Qazax rayonunun ərazisinə 20-dən çox mərmi atıb, nəticədə 5 nəfər həlak olub, 15 nəfər yaralanıb.





## OKTYABR AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**9 oktyabr 1895-ci il** - Erməni terrorçuları Türkiyənin Ərzincan şəhərindəki bazar meydanında müsəlman dindarlarını vəhşicəsinə güllələmişlər.

**18 oktyabr 1895-ci il** - Erməni sui-qəsdçiləri Ərzurumda qarovul rəisi Mehmed Əfəndini və 15 əsgəri vəhşicəsinə öldürmüş, Hınıs bölgəsində böyük hörmət sahibi olan Şeyx Haydar Əfəndini parça-parça edərək qətlə yetirmişlər.

**20 oktyabr 1895-ci il** - Türk ordusunun 40-cı alayının leytenantı Kilis kənd sakini Hasan ağa ailəsi ilə birlikdə Haçın kəndindən 15 km uzaqda olan Alayçayı kəndində ermənilərin hücumuna məruz qalaraq öldürülmüşdür.

**21 oktyabr 1895-ci il** - Ermənilər Kertel türk kəndinə basqın edib 57 ev yandırmış, Karabacaq Osmanı öldürmüşlər. Sonra Çikirhisara hücum edib 150 kişini, 40 qadın və 95 uşağı vəhşicəsinə öldürmüş, 180 evə od vurub yandırmışlar.

**3 oktyabr 1905-ci il** - Türkün qatı düşmənlərindən biri Hamazaspın başçılığı ilə Sırxavənd kəndinə silahlı basqın edilmiş, yüzlərlə uşaq, qoca qılıncdan keçirilmiş, kəndarası yollar azərbaycanlıların meyidləri ilə dolmuşdur.

**... 10 oktyabr 1918-ci il** - Daşnak Avetisovun başçılıq etdiyi silahlı erməni quldur dəstəsi Lənkəran qəzasında müsəlman kəndlərini dağıdıb, sakinlərin var-dövləti qarət edilib.

**15 oktyabr 1920-ci il** - Türkiyənin Bayburd şəhəri ətrafındakı 99 kənddə erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş 1387 nəfərin meyidi tapılmışdır.

**17 oktyabr 1920-ci il** - Türkiyənin Pasin şəhərinin ətrafındakı 30 kənddə erməni başkəsənləri 9287 nəfəri vəhşicəsinə işgəncə ilə öldürmüşlər.

**19 oktyabr 1920-ci il** - Türkıyənin Ərzurum şəhərində Daşnaksütyün təşkilatının üzvləri tərəfindən 8439 nəfər, Tortum şəhərinin 64 kəndindən 3700 nəfər, Qars şəhərinin ətrafında da 11193 nəfər türkü qətlə yetirmişlər.

**26 oktyabr 1973-cü il** - Nyu-Yorkda Türkiyə Məlumat Agentliyi Qurgen Yanikyanın adından bağlama alır. Bağlamada olan bomba qurğusu vaxtından tez zərərsizləşdirilir.

**22 oktyabr 1975-ci il** - Avstriyanın Vyana şəhərindəki türk səfirliyinə 3 nəfər silahlı erməni terrorçusu basqın edir və səfir Danıs Tunalıcı qətlə yetirirlər.

**24 oktyabr 1975-ci il** - Fransanın Paris şəhərində ASALA təşkilatının üzvləri tərəfindən Türkiyə səfiri İsmayıl və onun sürücüsü Ener Talib qətlə yetirilib.

**28 oktyabr 1975-ci il** - Livanın Beyrut şəhərindəki Türkiyə səfirliyi raket zərbələrinə məruz qalıb və külli miqdarda ziyan





çəkmişdir. Bu terror hərəkatını ASALA təşkilatı öz boynuna alıb.

**4 oktyabr 1979-cu il** - Kopenhagen şəhərində türk avianəqliyyat kompaniyası yanında ASALA təşkilatı tərəfindən güclü bomba partlayışı olub.

**12 oktyabr 1979-cu il** - Niderlandın Haaqa şəhərində 27 yaşlı türk səfiri Özdemir Benler öz maşınında vəhşicəsinə qətlə yetirilmişdir. Qətl 10 nəfərin gözləri qarşısında baş versə də qatil gizlənə bilmişdir

**30 oktyabr 1979-cu il** - İtaliyanın Milan şəhərindəki Türkiyə avianəqliyyat kompaniyasının binasında baş verən partlayış nəticəsində bina böyük dağıntılara məruz qalmışdır. Partlayışı ASALA təşkilatı törətmişdir.

**3 oktyabr 1980-ci il** - İtaliyanın Milan şəhərində Türkiyə avianəqliyyat kompaniyasının ofisi qarşısında törədilmiş partlayış nəticəsində 2 italyalı ağır yaralanmışdır.

**6 oktyabr 1980-ci il** - Amerikanın Los-Anjelos şəhərindəki Türkiyənin baş konsulu Kamal Ərkanın evinə erməni quldurları tərəfindən yandırıcı maye doldurulmuş butulkalar atılmışdır.

**12 oktyabr 1980-ci il** - Amerikanın Nyu-York şəhərində bomba bağlanmış maşını türk mehmanxanasına səmtləşdirmişlər. Mehmanxananın qarşısında güclü partlayış baş vermiş, nəticədə ətrafdakı binalara xeyli ziyan dəymiş, 4 nəfər amerikalı ağır bədən xəsarəti almışdır.

London şəhərində də Türkiyənin turizm və informasiya bürosunun binası güclü partlayış nəticəsində dağıdılmışdır.

**25 oktyabr 1981-ci il** - Roma şəhərində erməni terrorçuları Türkiyə səfirinin müavini Gökberk Ergenekona qəsd etmişlər. Əlindən güllə yarası almış Ergenekon xidməti silahla terrorçulara atəş açsa da, onlar qaça bilmişlər.

**26 oktyabr 1982-ci il** - Amerikanın Los-Anjelos şəhərində 4 erməni terrorçusu Türkiyə səfirliyi binasına bomba qoyaraq, səfir Kanot Ərbəyi öldürmək istərkən hadisə başında yaxalanmışlar.

**5 oktyabr 1989-cu il** - Kərkicahan kənd sakinləri 11 yaşlı Nadir İbrahimov və 9 yaşlı qardaşı Nicat başlarından ermənilər tərəfindən atılan güllə yarası almışlar. Onlar Xankəndi xəstəxanasına çatdırılsalar da, erməni həkimləri onları müalicə etməmişlər.

**7 oktyabr 1989-cu il** - Erməni terrorçusu Artur Abramyan Xankəndi yaxınlığındakı Xəlifəli çayı üzərindəki körpünü partladıb.

Ermənistanın Gorus şəhərindən DQMV-nin Hadrut qəsəbəsinə gəlmiş MN-26 vertalyotunda ermənilər 52 qumbara, 100 elektrik detanatoru, 30 metr bikford qaytanı, 79 ədəd kiçik çaplı tüfəng patronu, 272 ədəd ov tüfəngi, 211 giliz, siqnal tapançası və onun üçün raket, 4 ədəd ov tüfəngi, 100 mm-lik zenit topu gətirmişdilər.





Silahlı ermənilər Xocavənd, Qaradağlı, Əmirallar kəndlərinə və 2731, 2703 saylı qatarlara basqın etmişlər.

**... 10 oktyabr 1989-cu il** - Laçın rayonunun Qaladərəsi kəndində ermənilər bir azərbaycanlını odlu silahla öldürmüşlər. Şuşa yaxınlığında Ağa körpüsünü partlatmış, Turşsu yaxınlığında dayanacaqda olan azərbaycanlılara atəş açmışlar. 14 yaşlı Kamil Axundov güllə yarasından ölmüşdür.

**2 oktyabr 1990-cı il** - Erməni quldurlarının Kərkicahan kəndində qoyduqları bomba partlayışı nəticəsində birinci sinif şagirdi E.Abbasov həlak olmuş, qardaşı A.Abbasov isə yaralanmışdır.

**5 oktyabr 1990-cı il** - Daxili qoşunların 5 qulluqçusu bir neçə zəngilanlı ilə sərhəd zonasında zirehli maşınla gəzərkən dumanda azıb Qafan rayonu ərazisinə getmişlər. Danışıqlardan sonra ermənilər hərbçiləri buraxıb maşını və azərbaycanlıları girov saxlamışlar. Zəngilan camaatı Qafan-Yerevan qatarını saxlayıb 9 ermənini girov götürmüşlər. Bundan sonra ermənilər girovları buraxmışlar.

**10 oktyabr 1990-cı il** - Krasnoselo rayonundan olan bir qrup silahlı erməni Gədəbəy rayonunun Rəsullu kəndinə basqın edərək 89 baş mal-qara aparmışdır.

**11 oktyabr 1990-cı il** - Ermənilər Laçın rayonunun kəndlərini avtomat atəşinə tutmuşlar.

**13 oktyabr 1990-cı il** - Gorusun Xanaqan kənd erməniləri

Laçın rayonunun Malıbəyli kəndinə hücum etmiş, atdıqları qumbara nəticəsində 80 yaşlı Cəfərovun evi dağılmış, özü və 2 nəvəsi ağır yaralanmışdır.

**15 oktyabr 1990-cı il** - "Simferapol-Bakı" sərnişin qatarı partladılmış, qatar qəzaya uğramış və 11 nəfər ağır bədən xəsarəti almışlar.

**2 oktyabr 1990-cı il** - Şuşa şəhəri Şuşikənd istiqamətindən aramsız minamyot atəşinə tutulmuşdur.

**6 oktyabr 1991-ci il** - Erməni yaraqlıları Qazağın Xeyrimli kəndinə basqın etmiş, bir nəfəri yaralamış, birini isə öldürmüşlər.

Goranboy rayonunun Şəfəq və Zeyvə, Qazağın Xeyrimli, Naxçıvanda Şərur rayonunun Avuş, Xocalıdakı milis postu, Şuşanın Cəmilli kəndləri aramsız atəşə tutulmuşlar.

**7 oktyabr 1991-ci il** - Yunanıstanın Afina şəhərində erməni quldunu tərəfindən Türkiyə səfirinin attaşesi Çətin Hergi qətlə yetirilmişdir.

**29 oktyabr 1992-ci il** - Xocalıdan qalxan AN-2 təyyarəsi ermənilər tərəfindən vurulmuş və 7 nəfər heyət üzvləri həlak olmuşlar.

**23 oktyabr 1993-cü il** - Daşnaksütyün təşkilatının üzvləri tərəfindən Füzuli rayonunun Horadiz qəsəbəsi işğal edilmişdir. Ölənlərin əksəriyyəti uşaqlar və qadınlar olub.

**30 oktyabr 1993-cü il** - Zəngilan rayonu Ermənistan tərəfindən işğal edilmişdir.





## TÜRK DÜNYASININ FACƏİLİ AYI - *NOYABR*

Ermənistan adlı dövlətin olmadığı zamanlarda erməni millətindən danışmaq qeyri-mümkün idi. Lakin ermənilərin nəyə qadir olduğunu bilən böyük dövlətlərin "böyük" adamları elə bir dövlətin yaradılmasını istədilər və yaratdılar da. Yaratdılar ki, ermənilərin əməlləri ilə qonşu türklərin başı həmişə münaqişədə, qeylü-qalda olsun. Onun inkişafına maneə törədilsin, xalqın qayğısına qalmaq unudulsun. Lakin Aliyə Arslan demişkən: "Biz türklər təmiz müsəlmanlarıq və bidət bilmərik. Buna görə də Allah xalis türkləri əziz tutur". Bu qonşu ermənilərin xoşuna gəlmir. Onlar harada yaşamalarından asılı olmayaraq "bura bizim torpağımızdır"-deyib sahələrini genişləndirirdilər. Elə buna görə də qırğınlar törədir, təxribatlara əl atırdılar, elə bu gün də onunla ciddi məşğul olurlar.

Ermənilərin Azərbaycanda son vaxtlar törətdikləri 30-a qədər təxribat və terrorun əksəriyyəti noyabr ayında törədilmişdir. Belə ki, hələ 1905-ci ilin noyabrında Tbilisidə erməni-müsəlman qırğınında 15 azərbaycanlı qətlə yetirilmişdir. Gəncə qubernatoru Kalasov erməniləri, Takayaşvili isə azərbaycanlıları tovlayıb qırğın törədirlər.

Başlanmış qırğını dayandırmaq üçün dövlət əsgərinə müraciət etdikdə: "Bizə atəş açmamaq əmri verilib" cavabı alındı. Yəni qoy bir-birini qırsınlar demək idi rus əsgərlərinin cavabı.1918-ci ilin noyabrında milli məsələ daha da şiddətləndi. Silahlandırılmış ermənilər silahsızlaşdırılmış azərbaycanlıların üzərinə qaldırıldı. Andranik Ozanyanın quldur dəstəsi Qafanda azərbaycanlı kəndlərini ağır toplardan da atəşə tuturdu. 30-dan artıq azərbaycanlı kəndləri tarmar edilmiş, onlarca sakinlər qətlə yetirilmişdir. Türk qoşunu qırğına məruz qalmış azərbaycanlıların köməyinə gəlmişdir. Ancaq bağlanan Mudros sülhünə əsasən türk qoşunları geri çağrılmışdır. Bundan sonra rus qoşunları Bakıya girmiş, azərbaycanlılara ermənilərin sülh şəraitində yaşamalarına məcburiyyət qoyulmuşdur. Lakin 1920-ci ilin noyabrında Andranikin dəstəsi Yeni Bəyazid qəzasında, Mehri dərəsində 200-dən artıq sakini qətlə yetirmişdir. Dronun quldurları isə Zəngəzur, Eçmiədzin və Sürməlidə 90-a yaxın kəndi talayıb yandırdı, 60-a qədər arvad-uşağı öldürdü. Bakıda, Şirvanda isə Stepan Lalayan qırğınlar törətdi. Belə faciələr Naxçıvandan da yan keçmədi. Noyabr faciəsi Krım Taborları və Ahıska türkələri də öz burulğanına saldı (1944).Bir günün içinə minlərlə türklər dədə-baba yurdlarından ilan mələyən Orta Asiya çöllərinə sürgün edildilər. İndi Ermənistan adlanan Qərbi Azərbaycanda tarixən yaşamış türklərin də başına noyabr ayında (1949) faciələr gətirilmişdir. 150 mindən çox





azərbaycanlı deportasiya edilmişdir. Sonralar onların əksəriyyəti doğma torpaqlara qayıtsalar da 1988-ci ilin noyabrında daha dəhşətli təziqlərlə üzləşdilər və bir nəfər kimi hamı ikinci deportasiyaya məruz qaldı. 216 nəfər ikti verdilər, 250 mindən çox azərbaycanlı yenidən doğma yurdundan didərgin salındı. Moskvadan isə Bakıda, Kirovabadda və Naxçıvanda erməniləri müdafiə etmək üçün xüsusi vəziyyət elan olundu...

Hadisələr zamanı erməniləri Bakıdan İrəvana aparan təyyarənin içində çaxnaşma düşür. Ermənilər paltarlarını çırır, üz-gözlərini qanadır, saçlarını dolaşıq salırlar. Bunu görən stüardessa təəccüblənib komandirə xəbər verir. Təyyarə geriyə - Bakıya səmt alır. Aeroportda yerə enir. Ermənilər qışqıra-qışqıra:

-Vay, mama can, vay asdıvats, baxın düşmən türklər bizi nə günə salıblar,-deyərək yerə enmək istəyəndə Bakıda olduqlarını görüb bağışlanmaqları üçün azərbaycanlıların ayaqlarını qucaqlayırlar...

Yenə erməni xislətindən əl çəkmirlər. Bu və ya başqa yerdə azərbaycanlılara qarşı təxribatlar törədirlər.

1989-cu ilin noyabrında Şuşada, Ağdamda, Laçında, Qubadlıda, Nüvədidə, Martunidə, Qazax-İcevan, Laçın-Vaqazin,Kərkicahan-Şuşa yollarında, Gorusun kəndlərində azərbaycanlıları qətlə yetirirdilər. Ermənilərin üzündən

Azərbaycan 4 dəfə Qarabağ müharibəsinə qatılıb.

1990-cı ilin noyabrında Simferapol-Bakı sərnişin qatarında, Xankəndində, Cəbrayılda, Qubadlıda azərbaycanlılara təcavüz edilmiş, onlarla adam qətlə yetirilmişdir.

Ağa körpüsü yanında, Qaradağı-Xankəndi, Yevlax-Laçın yollarında avtobuslar atəşə tutulmuşdur. Yalnız noyabrın 30-da Qalakəndə 6 naməlum vertalyotun endiyi müşahidə edilmişdir.

1991-ci ilin noyabrında Qarakənddə vertalyotun vurulması və 22 nəfər say-seçmə Azərbaycan oğullarının qətlə yetirilməsi də Bakı və Moskva liderlərinin gözləri qarşısında baş verdi. Cəbrayıl, Qazax və Xocavənddə 21 nəfər öldürülür, 6 nəfər yaralanır, 27 nəfər isə itkin düşür...

Ermənilərin, arxalarını Rusiya kimi bir ölkəyə söykəyərək, törətdiklərini sadalamaqla qurtarmaq olmaz. Onlara tutarlı bir cavab lazımdır. Bu yerdə yadıma Türk dünyasının öndəri Atatürkün Fransanın "La rousse ensiklopediyası"nda türklər barədə çap olunmuş böhtan xarakterli yazı üçün cavab verdiyi nota düşür: "Bu böyük xətanı düzəldib, buna bənzər iftiralarınıza son verməsəniz, ölkəmizə heç bir fransız nəşri girməyəcək. Fransız tacirləri də gəlməyəcəkdir".

Dərhal Atatürkün tələbi istədiyi kimi yerinə yetirlmişdir.





## NOYABR AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**12 noyabr 1894-cü il** -Türkiyənin Aleppo, Xarput, Urfa, Sivas, Diyarbəkir, Adana, Mərəş, Kayseri şəhərlərində "Qncaq", "Daşnaksütyün" təşkilatlarının rəhbərliyi ilə kütləvi şəkildə türklərin qırğınını təşkil etmişlər.

**15-18 noyabr 1905-ci il** - "Daşnaksütyün" təşkilatının rəhbərliyi ilə Gəncə şəhərində müsəlmanların kütləvi qırğınını təşkil etdilər. Camaatı dəstə-dəstə evlərə doldurub yandırdılar.

**21 noyabr 1905-ci il** - Tiflis şəhərində erməni saqqalqı səfilləri küçəbəküçə gəzir, azərbaycanlıları vəhşicəsinə döyüb öldürürdülər. Yalnız bir meyxanada 10 nəfər müsəlmanın cəsədi tapılmışdır. Onlarca ölənlər isə məscidlərə aparılmışdır.

**21 noyabr 1917-ci il** - Erməni quldurları Nuxa (Şəki) rayonunuda tarladan qayıdan işçilərə hücum edir, Sarı Hacalı kəndindən 3 qadını oğurlayıb aparmışlar. Sonralar qadınların döşləri kəsilmiş halda meyidləri tapılmışdır.

**24 noyabr 1918-ci il** - Erməni silahlıları Yeni Bayazidin Toxluca kəndini bombalayıb dağıtmışlar.

**26 noyabr 1918-ci il** - Erməni quldurları ? kəndinə 70, Toydə 75, Mülkdə 30, Güldə 10, Bənövşənuşda 5, Tağabildə 25

kürd və azərbaycanlı I Vartanazurda 100, II Vartanazurda 65 ev dağıdılmış, 200 nəfər sakin öldürülmüşdür.

**26 noyabr 1919-cu il** - Zəngəzurda 40-a qədər, Sürməlidə 60-dan çox kəndi Dronun qoşunu darmadağın etmişdir.

**23 noyabr 1919-cu il** - Zəngəzur qəzasında bir neçə gün ərzində 40 müsəlman kəndi məhv edilmişdir.

**23 noyabr 1920-ci il** - Silahlı ermənilər Bakıda və Şirvanda Stepan Zalayevin başçılığı ilə qanlı cinayətlər törətmişlər.

**8 noyabr 1979-cu il** - Roma şəhərində Türkiyə səfirliyinin turizm attaşesinin işlədiyi binada ASALA tərəfindən bomba partlayışı törədilmişdir.

**18 noyabr 1979-cu il** - Parisdə "Türkiyə Hava Yolları" aviakompaniyasının binası ASALA tərəfindən partladılmış bomba nəticəsində güclü dağıntıya məruz qalmışdır.

**25 noyabr 1979-cu il** - Madriddə ASALA tərəfindən törədilən bomba partlayışı nəticəsində Türkiyəyə səfər etmək istəyən İOANİ Pavelə xəbərdarlıq idi.

**9 noyabr 1980-ci il** - Fransanın Strasburq şəhərində Türkiyə konsulluğu binasında erməni quldurları tərəfindən baş verən partlayış nəticəsində bina möhkəm zədələnmişdir. Bu partlayışı ASALA öz üzərinə götürmüşdür.

**19 noyabr 1980-ci il** - İtaliyanın Roma şəhərində Türkuiyə səfirliyinin turizm bazasında erməni terrorçuları tərəfindən partlayış törədilmişdir.





**20 noyabr 1981-ci il** - ABŞ-ın Kaliforniya Ştatının Los-Ajeles şəhərindəki Türkiyə Konsulluğunda baş vermiş partlayış nəticəsində bina tamamilə dağılmışdır.

**19 noyabr 1984-cü il** - BMT-nin Sosial və Humanitar Məsələlər Mərkəzində işləyən türk Ənvər Ergün svetaforda dayanmış avtomobilində erməni ARA təşkilatı tərəfindən öldrülmüşdür.

**25 noyabr 1985-ci il** - Belçikanın Brüssel şəhərində polis işçiləri türk Osman Olçayın ətrafında (NATO-da Türkiyənin nümayəndəsi) gəzinən iki erməni torrorçusu Portuqaliya pasporu ilə həbs edilmişdir.

**28 noyabr 1985-ci il** - Həbs edilmiş Monte Melkonyanın mənzilindən çoxlu silah, partlayıcı maddə, Fransaya uçan türk təyyarələrinin gəlib-getmə haqqında informasiya, Türkiyənin Fransadakı səfiri Adnan Bulakın fotoşəkilləri tapılmışdır.

**23 noyabr 1986-cı il** - Avstraliyanın Belburq şəhərində Türkiyə Konssuluğunun maşınında partladılmış bomba nəticəsində bir nəfər həlak olub, 5 mərtəbəli bina isə zədələnib. Hadisəni erməni terrorçuları: Haqop Levonyan və Levon Dəmirçyan törətmişlər.

**12 noyabr 1988-ci il** - Spitak (Hamamlı) rayonunun partiya təşkilatının birinci katibi N.Muradyan, icra hakimiyyətinin sədri F.Abuçyan, rayonun baş həkimi R.Bağdasaryan, hakim E.Nazaryan, milis rəisi V. Sərkisyan, prokuror Araksiyanın

iştirakı ilə erməni saqqallıları azərbaycanlılara dözülməz işgəncələr verdilər: 36 nəfər işgəncəyə dözməyib dünyasını dəyişdi; 5 yaşından 12 yaşa qədər olan 70 uşaq əvvəlcədən hazırlanmış 20 metr uzunluğunda, 1,5 metrdiametrində boruya doldurulub qaynaqlanmışdır. 27 uşağı isə qeyri-məlum səmtə aparmışdılar.

**19 noyabr 1988-ci il** - 500 nəfər silahlı erməni Vedibasarın Yersax kəndinə hücum edib xeyli azərbaycanıları yaralamışlar, yaralıları Naxçıvana aparan maşınlar gülləbaran edilmiş, bir həftədə 24 min azərbaycanlı və kürd doğma yurdlarından qovulmuşlar.

**22 noyabr 1988-ci il** - Erməni ekstremisti Zori Balayan azərbaycanlıları Ermənistandan kütləvi şəkildə çıxartmağa çağırmışdı.

**24 noyabr 1988-ci il** - Erməni quldurları Kalinino, Noyemberyan, Sisyan, Qafan və digər rayonların azərbaycanlı kəndlərinə hücum ediblər. Yaralananlar və ölənlər olub.

**25 noyabr 1988-ci il** - Ermənistan respublikası kommunist partiyasında qərara alınmışdır ki, "Qarabağ" təşkilatının iştirakı ilə dekabrın 5-nə kimi azərbaycanlılar Ermənistandan çıxarılmalıdır, həmin gün Kalinino rayonunun 87 yaşlı sakini Məhəmməd Sadiqov vəhşicəsinə öldürülmüşdür.

**27 noyabr 1988-ci il** - Masis rayonunun Zəhmət kəndində 10 yaşlı qız uşağı, 60 yaşlı qadın və üç nəfər gənc azərbaycanlı





vəhişicəsinə qətlə yetirilmişdir. Masisdə olan Məscidə od vurlumuşdur. İrəvan şəhərində Mirzə Fətəli Axundov adına orta məktəb yandırılmış, azərbaycanlı qəbirsitanlığı dağıdılmışdır. Qukarq rayonunda 35 yaşlı Bəsti Əliyevanın başı kəsilib, körpüdən atılmışdır. Əhməd Qazaxəliyev öldürülmüş, meyidi yandırılmışdır. 70 yaşlı Qərib Bayramov öz həyətində qətlə yetirilib. Cəsədi yandırılıb. 45 yaşlı Mehralı İsgəndərov. 40 yaşlı həyat yoldaşı Xanım öz həyətində güllələnib. 50 yaşlı Süleyman Məmmədov öldürüldükdən sonra yandırılıb. 70 yaşlı Oruc və 50 yaşlı həyat yoladaşı Gülsüm Orucovlar vəhşicəsinə güllələniblər. 20 yaşlı Fatma Abbasova öz evində öldürülmüşdür. Qukark, Spitak və Stepanavan rayonlarında 33 nəfər azərbaycanlı qətlə yetirilmişdir. İçərisində 60 nəfər olan avtobusu yandırmaq istəmişlər, təsadüfən istəklərinə nail ola bilməmişlər.

**28 noyabr 1988-ci il** - Spitak (Hamamlı) Ermənistandan azərbaycanlılar kütləvi surətdə qovularkən 35 nəfər işgəncə, 41 nəfər döyülməklə öldürülüb, 11 nəfər diri-diri yandırılıb, 2 nəfərin başı kəsilib, 4 nəfər öldürüləndən sonra yandırılıb, 1 nəfər asılıb, 3 nəfər suda boğulub, 7 nəfər maşının altına salınıb, 16 nəfər güllələnib, 1 nəfər toka verilibdir. Öldürülənlərin 216 nəfərindən 57-si qadın, 5-i körpə, 18-i isə müxtəlif yaşlı uşaqlardır. Həmin gün Zəngibasarda 10 kənd talan edilmiş, Sabir Mehdiyev, Müşfiq Tağıyev öldürülmüş, qulaqları kəsilmişdir.

**29 noyabr 1988-ci il** - Spitak (Hamamlı) rayon milis şöbəsinin rəisi V.Sərkisyan bir neçə silahlı erməni quldurları ilə Saral kəndinə gələrək onlara maşınlar təklif edib Azərbaycana köçmələrini tapşırıblar. Saat 17 radələrində 60-a yaxın erməni quldurları Masis rayonunun Zəhmət kəndinə gəlib 2 saat ərzində kəndi tərk etmələrini tələb etmişlər.

**30 noyabr 1988-ci il** - Saral kəndinə Spitak (Hamamlı) tezdən 35-40 yükünü özüboşaldan maşınlar gətirib camaata, kim nə bacarırsa götürün,- deyərək kənddən qovmağa çalışmışlar. Avtokaloniya kənddən aralanan kimi silahlı ermənilər maşınların qarşısını kəsib əşyaların bir hissəsini yol kənarına töküb yandırmışlar, qalanlarını rayon mərkəzinə aparmışlar.

Xasaçimən kəndində qaçqın dəstəyə silahlı ermənilər hücum edib Balacayev Möhsümün ailəsini, ümumiyyətlə, 18 nəfəri öldürmüş,7 nəfəri ağır yaralamışlar. Sevan şəhərində 22 nəfər azərbaycanlını su quyusunda boğmuşlar.

**29-31 noyabr 1988-ci il** - Silahlı ermənilər Noyemberyan rayounun Körpülü kənd sakinlərinə milis rəisi Qalumyanın tapşırığı ilə təcili kəndləri boşaltmağı əmr etdilər.

Həmin gün Ayrım kənd sakinləri də qovuldular. Ölənlər və yaralananlar oldu. Quqark rayonunun Vartana kəndindən 240 nəfər uşaq, qadın və yaşlı adamlar qarlı dağlarda pusquda duran ermənilərə rast gəldilər. Ermənilər Asatryan Benikin başçılığı





ilə 100 nəfərdən çox azərbaycanlını güllələdilər. Krasnoselo rayonunun azərbaycanlı kəndlərini talan etməyə gələn erməni quldurları 7 avtobus yerli camaatı mühasirəyə aldılar.

**3 noyabr 1989-cu il** - Şuşada DİŞ tərəfindən Ermənistandan gəlmiş 25 nəfər quldurlar həbs edilmiş, onlardan çoxlu partlayıcı maddələr əldə edilmişdir.

**6 noyabr 1989-cu il** - ermənilər Ağdam-Şuşa yolunda körpünü partlatdılar. Şuşanın əlaqəsi gəlsildi. Qarqar çayı üzərindəki köprü də dağıdıldı.

**8 noyabr 1989-cc il** - Qazax-İcevan yolundakı "Zaqafqaziya xalqlarının dostluğu abidəsi"ni partladan zaman keşiş İstepan Davudyan icevanlı Aşot Məlikbekyan həlak olmuş və volqoqradlı Andrey Kozlitin yaralanmışdır.

**9 noyabr 1989-cuc il** - Laçın-Caqazur avtomobil yolunda Laçın rayon tiknti idarəsinin "ZİL"-130 markalı maşın partladılımış, 4 nəfər yaralanmışdır.

**14 noyabr 1989-cu il** - Qubalı rayonunun Seytas kənd sakinləri İnqilab və Xəyyam Əliyev ermənilər tərəfindən öldürülmüşdür.

**17 noyabr 1989-cu il** - Tuğ kəndində 9-cu sinif şagirdi Teyyub Süleymanov covet əsgərlərinin gözü qarşısında ermənilər tərəfindən qətlə yetirilib.

**20 noyabr 1989-cu il** - Ermənilər Kərkicahan-Şuşa yolunu iki yerdən dağıtmışlar. İz götürən itlər izi iki erməni evinə

aparmışdı, onlar içində 60 nəfər olan Rzaqulunun idarə etdiyi maşını partlatmaq istəmişlər. Lakin partlayış vaxtından tez olmuşdur.

**26 noyavbr 1989-cu il** - Nüvədi kəndi avtomatlardan atəşə tutulmuş, 10 nəfər yaralanmışdır.

**28 noyabr 1989-cu il** - Qubadlı rajyonunun Seytas sovxuozunun direktoru Qaçay Ələkbərovu və süprücü Telman Hümbətəliyevi quldurlar öldürmüşlər. Novlu kənd sovet sədri Mehdi Mehdievi girov götürmüşlər. Onun meyidi Xınzirey kəndində tapılmışdır.

**4-5-noyabr 1990-cı il** - Ermənilər aramsız olaraq İcevan rayonu tərəzfindən Bərxudarlı kəndini odlu silahlardan atəşə tutmuşlar.

**8 noyabr 1990-cı il** - Şuşa rayounun Erçaok erməni kəndindən Göytala kəndini aramsız atəşə tutmuşlar.

**14 noyabr 1990-cı il** - Cəbrayıl rayonunun Söyüdlü kənd sakini M.Allahverdiyev Hadrut rayonunun Dolanlar kənd erməniləri tərəfindən girov götürülmüşdür. Hadrutun Düdükçü kəndindən 13 erməni yaraqlısından sovet və xaricdən gətirilmiş avtomat, minamiyot, əl qumbaraları alınmışdır.

**15 noyabr 1990-cı il** - Yeğeqnadzor ərazisindən İliç rayonu atəşə tutulub. Ağdamdan Şuşaya gedən "QAZ 24" markalı maşın saxlanılıb, sürücüsü R.Məmmədov bıçaqlanıb, Q.Cümşüdov vəhşicəsinə döyülüb, 1700 manatlıq ehtiyat hissələri oğurlanıb.





**18 noyabr 1990-cı il** - Göytalaya ermənilər hücum edib V.Bayramovu yaralamışlar.

**5 noyabr 1991-ci il** - Qazax rayonunun Xeyrimli kəndi atəşə tutulmuş, Aşağı Əskiparada iki nəfər öldürülmüş, 4 nəfər yaralanmışdır.

**7 noyabr 1991-ci il** - Şuşanın Nəbiər kəndi ermənilər tərəfindən atəşə tutulmuş, bir nəfər azərbaycanlı qətlə yetirilmiş, biri isə yaralanmışdır.

**11 noyabr 1991-ci il** - Qazaxın Xeyrimli kəndi atəşə tutulmuş, 2 nəfər həlak olmuş, bir nəfər yaralanmışdır.

**15 noyabr 1991-ci il** - Xocavənd rayonunun Zamzur kəndndə 5 nəfər azərbaycanlı erməni quldurları tərəfindən qətlə yetirilmiş, kəndə od vurulmuşdur.

**19 noyabr 1991-ci il** - Xocavəd kəndinə silahlı ermənilərin basqını nəticəsində 4 nəfər həlak olmuş, 24 nəfər itkin düşmüş, 32 ev tamamilə yandırılmışdır.

**20 noyabr 1991-ci il** - Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığnda ermənilər tərəfindən "Mİ-8" vertoloyotu vurulmuş, T.K.İsmayılov, Z.S.Hacıyev, M.N.Əsədov, İ.İ.Qayıbov, M.D.Cəfərov, V.T.Məmmədov, O.M.Mirzəyev, Q.Q.Namazəliyev, İ.A.Plavskiy, S.S.İvanov, V.V.Kovalyov, N.V.Sinkin, R.M. Məmmədov, A.M.Mustafayev, A.İ.Hüseynzadə, F.İ.Şahbazov, M.D.Lakaşov, V.M.Koçaryov, S.D.Serikov, cəmi 22 nəfər həlak olmuşdur.

**21 noyabr 1991-ci il** – Cəbrayılda Daşbaşı və Zamzur kəndləri yandırılıb, camaat Quşçulr və Qışlar kəndlərini tərk ediblər. Zamzur və Şayaqa kəndindən 12 azərbaycanlı meyidi tapılmışdır. Abdal-Gülablı kəndi atəşə tutulub, 1 nəfər həlak olub, 6 2 nəfər yaralanıb.

**17 noyabr 1991-ci il** – Ağdamın Qalayçı kəndinin qoyun sürüsü oğurlanıb, çoban girov aparılıb. Zəngilanın Qazançı kəndi pulemiyot və avtomatlardan atəşə tutulub. Xocalının ətrafla əlaqəsi, işığı da kəsilmişdir.

**29 noyabr 1991-ci il** – Ağdama Xanabad kəndindən 30-dək raket buraxılıb. Çoxlu dağıntılar olub.





## DEKABR KÖÇKÜNLƏRİNİN QARA İLDÖNÜMLƏRİ

Bu gün dünyanın Ermənistan ərazisi kimi tanıdığı Qərbi Azərbaycandan soydaşlarımızın zaman-zaman didərgin salınmasında ötən əsrin ortalarında həyata keçirilmiş deportasiya ayrıca yer tutur. Çünki məhz 1948-1953-cü illərin deportasiyası azərbaycanlılara qarşı ondan öncə və sonra həyata keçirilmiş etnik təmizləmədən fərqli olaraq, necə deyərlər, tamamilə "sənədə-sübuta" salınmış və "xalq atası"nın şəxsən imzaladığı qərarla rəsmiləşmişdi. Təbii ki, Stalinin verdiyi bütün qərarlar kimi, bu da sovet dövlətinin "mənafeləri və ümumi rifahı naminə" verilmişdi. Gerçəkdə isə bu, illərdən bəri türk düşmənçiliyini unutmayan və etnik tənzimləmə siyasətini müxtəlif üsullarla rəsmiləşdirməyi bacaran ermənilərin növbəti keçmiş ittifaq miqyasında daha bir uğuru idi. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli qərarını da ermənilər çoxdan gözləyirdilər.

Anastas Mikoyan başda olmaqla ermənilərin Moskvada əyləşən başbilənləri "türksüz Ermənistan" uğrunda fəaliyyətə hələ İkinci Dünya müharibəsindən əvvəl başlamışdılar. Bu

xüsusda, əsas səbəb kimi, o göstərilirdi ki, əsrin əvvəlində (əsasən 1915-ci ildən sonra) Türkiyədən xaricə mühacirət etmiş və dünyanın müxtəlif ölkələrində məskən salmış ermənilər Ermənistana qayıdaraq, sovet dövlətinin inkişafı və tərəqqisi naminə çalışmaq əzmindədir, lakin onların yerləşdirilməsi ilə bağlı problemlər var. "Optimal" çıxış yolu isə Ermənistan SSR-də qeyri-ermənilərin yaşadığı torpaqların boşaldılması ola bilərdi. Təbii ki, gürcü Stalin Ermənistandakı azsaylı həmvətənlərinin və rusların köçürülməsinə razı olmazdı. Öz növbəsində ermənilərin də davası əsasən azərbaycanlılarla idi. Azərbaycan SSR-in o vaxtkı rəhbərliyi bir müddət bu fəaliyyətin önünü ala bilsə də, 1941-1945-ci illər müharibəsi ermənilərə əlamətdar şans verdi. 1943-cü ilin payızında SSRİ, ABŞ və Britaniya rəhbərlərinin Tehran konfransı keçirilən zaman İrandakı erməni diasporunun liderləri Mikoyanın yaxın dostu, SSRİ-nin xarici işlər naziri Vyaçeslav Molotovun vasitəçiliyi ilə öz niyyətlərini Stalinə yetirərək Ermənistana köçmək və sovet dövlətinin rifahı naminə çalışmaq istədiklərini onun nəzərinə çatdırmışdılar. Tehran konfransında kefi kök olan Stalin də buna şifahi razılıq vermişdi.

Amma heç kəsin ağlına gələ bilməzdi ki, üstündən 44 il keçəcək və 1987-ci ilin payızında ermənilər oxşar mahiyyətli xahişlərinə SSRİ-nin rəhbəri Mixail Qorbaçovun da beləcə şifahi razılığını alacaqdılar. Təxminən eyni vaxtda ermənilər





növbəti dəfə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsi barədə məsələ qaldırsalar da, təşəbbüs iflasa uğramışdı. Odur ki, ermənilər növbəti kartı işə salaraq azərbaycanlıların Ermənistandan köçürülməsi uğrunda fəaliyyətə başladılar.

Bunun üçün "motiv" də mövcud idi. Belə ki, dünyadakı erməni diasporunun səyləri ilə 1946-cı ildə Suriya, Yunanıstan,Livan, İran, Bolqarıstan və Rumıniyadan Ermənistana 50900 erməni köçmüşdü. Bir il sonra isə onların sırasına Fələstindən, Fransadan, ABŞ-dan, Misir və İraqdan daha 35400 erməni emiqrantı əlavə olundu. Bu "hazırlıq"dan sonra Ermənistan KP MK-nın katibi Harutyunov xaricdən gələn ermənilərin yerləşdirilməsi ilə bağlı çətinliklərin olmasından Moskvaya gileylənərək "səmərəli" təklif irəli sürdü. Ermənistandakı azərbaycanlıların bir hissəsi Azərbaycanın pambıqçılıq rayonlarına köçürülsün, boşalan torpaqlarda isə xaricdən gələn ermənilər yerləşdirilsin. Təklifə əsasən, belə bir köçürülmə həm də Azərbaycanda pambıqçılığın inkişafına və deməli, müharibədən yeni çıxmış sovet dövlətinin rifahına xidmət edərdi. Hələ Tehranda ermənilərə söz verən Stalin bu ideyanı dəstəklədi və SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarını imzaladı.

Qərara əsasən, 1948-1950-ci illər ərzində Ermənistanın dağlıq rayonlarında yaşayan 100 min azərbaycanlı "könüllü

surətdə" Azərbaycan SSR-in Kür-Araz ovalığına (İmişli, Saatlı, Sabirabad və s.) köçürülməli idi. Qərarda göstərilən qrafikə görə, 1948-ci ildə 10 min, 1949-cu ildə 40, 1950-ci ildə isə 50 min azərbaycanlı köçürülməli idi. Qərarın mətnini hazırlayan Mikoyan və həmfikirləri onun maksimum sərt olması üçün əllərindən gələni etmişdilər. Köçürülmə prosesinin təcili başlanması nəzərdə tutulmuşdu. Hətta azərbaycanlı kolxozçuların əməkgünlərinin (ilin sonu idi) tam hesablanmasına imkan verilmirdi. 10 günə haqq-hesab yekunlaşmalı idi. Ən acınacaqlısı isə o idi ki, Ermənistanın dağ rayonlarında əsasən maldarlıqla məşğul olan azərbaycanlılar bundan sonra qızmar iqlimdə pambıq becərməli idilər.

Tarixi ata-baba yurdunu, ev-eşiyini atıb köçməyə məcbur edilən azərbaycanlılara özləri ilə cəmisi 2 ton (ailə başına) yük (mal-qara, yataq, mebel və s.) götürməyə icazə verildi. Bundan əlavə, köçənlərin hər birinə 300 rubl (ailə başçısına 1000 rubl) pul verildi. Köçürülmə üçün isə mal-qara daşınan vaqonlar ayrılmışdı. Düzdür, köçürülənlərin yeni ərazilərdə yerləşdirilməsi üçün müəyyən güzəştlər (mənzil tikintisi üçün ssudalar və s.) nəzərdə tutulmuşdu. Amma deportasiya olunanları ilk vaxtlar ağır yaşayış şəraiti, aclıq, səfalət və xəstəliklər (o cümlədən iqlim dəyişikliyi ilə bağlı) gözləyirdi.

SSRİ hökumətinin belə sərt qərarı Azərbaycan SSR-in rəhbərliyində də haqlı narazılıq doğururdu. Odur ki, Mir Cəfər





Bağırov Stalinə müraciət edərək köçürülmənin qrafiki və şərtlərini bir qədər yumşaltmağı xahiş etdi. 1948-ci il martın 10-da SSRİ Nazirlər Sovetinin sədri İ. V. Stalinin imzası ilə ikinci qərar verildi. 754 saylı bu qərara əsasən, köçürülən azərbaycanlılara özləri ilə bütün daşınan əmlaklarını götürməyə (o cümlədən kolxozçular mal-qaranı, atları, kənd təsərrüfatı texnikasını götürə bilərdilər) icazə verildi. Amma ermənilər bu qərarın da normal icrasına əngəl törədir, lazımi qədər vaqon və nəqliyyat ayırmırdılar. Bir sıra yerlərdə köçmək istəməyənlərlə Ermənistanın hüquq-mühafizə orqanları arasında münaqişələr olurdu. Odur ki, Stalinin imzaladığı qərarlar da qrafikdən çıxmalı oldu. Statistik məlumata görə, 1948-ci ildə 11046 nəfər, 1949-cu ildə 10595, 1950-ci ildə isə 14361 nəfər köçürülmüşdü. Qalanlar isə 1951-1953-cü illərdə köçürüldü. 1948-1950-ci illərdə köçürülən 8 mindən artıq ailənin yalnız yarısı yaşayış yeri ilə təmin olunmuşdu, qalanları isə uzun illər dəmiryolu vaqonlarında yaşamalı oldular. Köçürülən əhalinin ağır həyat şəraitini, yerləşdirmə ilə bağlı çətinlikləri, iqlim dəyişikliyi problemini, habelə onların peşə vərdişlərini nəzərə alan Azərbaycan SSR rəhbərliyi onların bir hissəsini dağlıq və dağətəyi rayonlarda, o cümlədən Qarabağda yerləşdirməyə çalışsa da, Moskvadakı ermənilər bunun qarşısını qətiyyətlə aldılar.

Ən maraqlısı isə odur ki, 100 min azərbaycanlını köçürən Ermənistan rəhbərliyi boşalmış ərazilərdə xaricdən gələn ermənilərlə məskunlaşdırmağa tələsmirdi. Çünki gerçək

niyyətləri Ermənistanı azəri türklərindən təmizləmək idi. Xaricdən gələn əksər ermənilər isə Ermənistanın dağ rayonlarında kolxozçuluq etmək fikrində deyildilər və tezliklə SSRİ-nin şəhərlərinə, o cümlədən Moskva və Leninqrada dağılışdılar. Bu cəhət Ermənistanın özünün arxiv sənədləri ilə də təsdiqlənir. Hətta deportasiyadan 25 il sonra, 1975-ci ilin yanvarında keçirilən Ermənistan KP MK-nın plenumunda belə bir fakt vurğulanmışdı ki, azərbaycanlıların köçürülməsindən sonra boşalmış 476 kənd ermənilər tərəfindən yalnız qismən məskunlaşdırılıb. "Qolos Armenii" qəzetinin 11 noyabr 1990-cı il tarixli sayında isə sözügedən kəndlərin hələ də məskunlaşdırılmadığı barədə məqalə çap olunmuşdu.

Hərçənd bu vaxt Ermənistanda daha bir neçə yüz azərbaycanlı kəndi boşaldılmışdı. Çünki Stalinin deportasiya qərarından düz 40 il sonra, 1987-ci ilin 22 dekabrında azərbaycanlıların əzəli torpaqlarından, Ermənistan SSR ərazisindən deportasiyasının sonuncu mərhələsi başlamışdı. 1988-1989-cu il deportasiyası azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı 1989-cu il dekabrın sonunda Ermənistandan axırıncı azərbaycanlılar qovuldu.

Lakin onlar 1947-ci ildə başlanan deportasiyadan fərqli olaraq, "sənəd-sübutsuz", sadəcə azəri türkü olduğuna görə qovuldular.

*Vüqar ORXAN,*
*"525-Cİ QƏZET», 24 dekabr 2005-ci il.*





## DEKABR AYLARINDA TÜRKLƏRƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ TERRORU

**Dekabr 1904-cü il** - Bakıda azərbaycanlılara təklif olunur ki, erməni terrorçuları ilə birləşib ruslara qarşı mübarizə aparsınlar. Rədd cavabı alan ermənilər elan edirlər ki, sizin torpağı öz qanınıza bələyəcəyik. Meyidlərinizə od vuracağıq ki, tüstüsü dünyanı bürüsün.

Bu, sonralar müsəlman dünyasında öz əksini tapdı.

**Dekabr 1917-ci il** - Bağırdərəsində 5 müsəlman meyidi tapılıb, 5-i də süngü ilə dəlmə-deşik edilmişdir. Çamaxılı stansiyasında da 22 azərbaycanlı, Ərəb kəndində 8 azərbaycanlı qətlə yetirilmiş, gözləri çıxarılmış meyidlər tapılmışdır. Bunların arasında döşləri kəsilmiş qadınlar da var idi. Azaxşam kəndində 9 qadın və 9 uşaq meyidi aşkar edilmiş, Kürdlər kəndində isə 67 nəfərin meyidi kanaldan tapılmışdır. İrəmiş kəndində 8, Pöhrəli kəndində 9 adam qətlə yetirilmişdir.

**Dekabr 1917-ci il** - iyun 1918-ci il - Silahlı erməni quldurları İrəvan bölgəsində 200 azərbaycanlı kəndini darmadağın etmişlər. 100 min azərbaycanlı İrəvandan, Eçmiədzindən, Şərurdan qaçqın düşmüşlər.

**14 dekabr 1917-ci il** - Ağdaş Qutqaşen (Qəbələ) yolunda

erməni quldurları Baxşəli adında bir azərbaycanlının ailəsini vəhşicəsinə qətlə yetirmiş, özünün dərisini soyub ağacdan asmışlar.

**14 dekabr 1917-ci il** - Quldur Andranikin yaydığı müraciətdə deyilir ki, əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, məni erməni sayırsınızsa, mən sabah Ərzuruma yola düşəcəm, türkləri, kürdləri və yəhudiləri qıracağam. Bu yoldan məni heç kəs döndərə bilməz.

**29 dekabr 1917-ci il** - Sovet hökuməti "Türk ermənistanı barədə" dekret verdi. V.İ.Lenin bu sənədə dərkənar qoymaqla daşnak Stepan Şaumyana imkan verdi ki, o terrorçu erməniləri başına yığıb türklərə qarşı mübarizə aparsın. Sonralar qulaqsız Andranik, Tatevos Əmirov, Stepan Lalayan birləşərək Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda kütləvi surətdə qırğın törətdilər.

**Dekabr 1918-ci il** - Cilan kəndində Hüseyn Allahverdi oğlu qətlə yetirilib. Axıllı kəndində 2 kişi, 3 qadın, 1 uşaq qətlə yetirilib. Məlikli kəndində 1 nəfər vəhşicəsinə öldürülüb. Məzrə kəndində 6 kişi, Sirik kəndində 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirilib.

**2 dekabr 1918-ci il** - Silahlı erməni quldurları Cəbrayıl rayonunun Aşıq Məlikli kəndinə hücum edərək od vurub, talan salıb, mal-qaranı aparıblar. Rayonun Qoqa kəndində 10 nəfər öldürülüb.





**14 dekabr 1918-ci il** - Gəncə qubernatorunun teleqramına əsasən Andronikin başçılığı ilə erməni quldurları Zəngəzurun Qaladərəsi kəndinə hücuma keçib müsəlmanları vəhşicəsinə qırıblar. A.Mikoyanın göstərişi ilə Andraniklə Hamazasbın başçılığı ilə erməni quldurları Makda, Xoyda yerli silahsız insanları qılıncdan keçirmişlər.

**18 dekabr 1918-ci il** - Erməni banditləri tərəfindən Sirik kəndinə hücum edilmiş, kənd talan edilib və yandırılmışdır.

**26 dekabr 1918-ci il** - Daşnaklar Düdükçü kəndinə hücum edib, evlərə od vurub, əşyaları aparmışlar. Xələfli, Tatar və Şıxlar kəndində qırğınlar törətmiş, 200 azərbaycanlını qətlə yetirmişlər.

**Dekabr 1918-ci il** - Qaraçimən kəndində 7 azərbaycanlı, Xaştab kəndində 1 nəfər, Zəngəzurun Daştağad və Firican kəndlərində 15 nəfər, Qarakənd kəndində 2 nəfər, Basarkeçər rayonunun Qızılvəng, Subatan, Zarçalı, Şahalı kəndlərində onlarca adamı qətlə yetirmiş, 1350 qoyunu aparmışlar.

**Dekabr 1919-cu il** - Arxiv materiallarına əsasən terrorçu ermənilər tərəfindən Vedibasarda 10 kəndə basqın edilmiş, xeyli adam qətlə yetirilmiş, 100 qadın əsir aparılmışdır. İqdır və Eçmiədzində 60 kənddə bütün kişilər; Göyçə mahalında 22 kənd və 22 min nəfər; Bayazid bölgəsində 84 kənd və 15 min ailə; Sürməli mahalında 96 kənd; Zəngəzur mahalında 115 kənd və on min azərbaycanlı, o cümlədən 4472 qadın və uşaq qətlə yetirilmişdir.

**2 dekabr 1919-cu il** - Dövtanlı kəndində erməni quldurlar 3 nəfəri öldürmüşlər.

**3 dekabr 1919-cu il** - Cəbrayılda saqqallı silahlı ermənilər 10 azərbaycanlını, xüsusilə qoca Əsəd Ağa Cavanşiri əzabla qətlə yetirmişlər. Zəngəzurda 900 müsəlmanı öldürmüş, Çaylı, Oxçu kəndlərindən sakinləri məscidlərə doldurub 400 qadın və uşağı bomba ataraq tikə-tikə etmişlər.

**12 dekabr 1919-cu il** - Zəngəzurda dinc əhali işgəncələrə məruz qalıb, 10 nəfər qadın ermənilərə əsir düşmüşdür.

**20 dekabr 1919-cu il** - Silahlı erməni quldurları Xələfli, Aşıq Məlikli, Tatar və Şıxlar kəndlərini od vurub yandırmış, on evi yerlə-yeksan etmiş, 2 qadını, 6 kişini yaralamış, mal-qaranı oğurlayıb aparmışlar.

**25 dekabr 1919-cu il** - Eçmiədzinin Əkərək kəndində 8 nəfər öldürülmüş, 5 nəfər yaralanmışdır.

**14 dekabr 1920-ci il** - Türkiyənin Sarıqamış bölgəsində saqqallı ermənilər tərəfindən 5337 nəfər türk, kürd, ərəb qətlə yetirilmişdir. Ümumiyyətlə, bu ay bölgənin 21 kəndindən 8202 nəfər müsəlman qətlə yetirilmişdir.

**19 dekabr 1920-ci il** - Türkiyənin Qars bölgəsində erməni quldurları tərəfindən 18620 nəfər dinc ahali öldürülmüşdür. Zəngəzurda 26 kənd tamamilə dağıdılmışdır.

**5 dekabr 1921-ci il** - İtaliyanın Roma şəhərində erməni quldurları tərəfindən Türkiyənin keçmiş vəziri və xarici işlər





naziri Səid Xalim paşa qətlə yetirilmişdir. Erməni terrorçusu Arşavir Siracyan bu cinayəti boynuna almışdır. 48 saat sonra türk diplomatı Vyanada qətlə yetirilmişdir.

**6 dekabr 1921-ci il** - Daşnak ermənilər Berlində Sait Halit paşa adlı sabiq baş naziri qətlə yetirmişlər.

**5 dekabr 1922-ci il** - Arşavir Şirakyan adlı erməni Səid Həlimi Romada döyərək qanına qəltan etmiş, Bahəddin Şakirlə Camal Əzmini Berlində öldürmüşlər.

**Dekabr 1942-ci il** - Qaregin Njde Balkan ölkələrində türklərə və azərbaycanlılara qarşı törədilmiş qırğınlarda iştirak edib. Faşist Almaniyasının generalı vəzifəsinə yüksəlib.

**23 dekabr 1947-ci il** - A.Mikoyanın təşəbbüsü ilə SSRİ Nazirlər Soveti: "Ermənistan SSRİ-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etmişdi. Qərara əsasən 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlının doğma yurdlarından köçürülməsi nəzərdə tutulmuşdu.

**6 dekabr 1978-ci il** - "Yeni erməni müqaviməti" təşkilatı tərəfindən İsveçrənin Cenevrə şəhərində Türkiyə Konsulluğu binası qarşısında güclü bomba partlayışı törədilmişdi. Binaya xeyli zərər vurulmuşdur.

**17 dekabr 1978-ci il** - ASALA erməni təşkilatı tərəfindən İsveçrənin Cenevrə şəhərindəki Türkiyənin avianəqliyyat kompaniyasının binasında bomba partladılmışdır.

**17 dekabr 1979-cu il** - Londonda Türkiyə avianəqliyyat kompaniyasının binasında "Ermənistan Azadlıq Cəbhəsi" təşkilatı tərəfindən bomba partladılaraq külli miqdarda ziyan vurulmuşdur.

**22 dekabr 1979-cu il** - Fransanın Paris şəhərində erməni terrorçuları tərəfindən Türkiyənin turizm üzrə attaşesi Elmar Şolpan qətlə yetirilmişdir. Cinayəti ASALA təşkilatı öz üzərinə götürmüşdür. Niderlandın Amsterdam şəhərində də ASALA təşkilatı tərəfindən Türkiyə avianəqliyyat kompaniyası binası önündə bomba partladılmışdır.

**17 dekabr 1980-ci il** - Avstraliyanın Sidney şəhərində erməni terrorçuları tərəfindən 2 türk diplomatı: Baş konsul Şarik Ərşek, təhlükəsizlik attaşesi Engin Sever qətlə yetirilmişlər.

**12 dekabr 1988-ci il** - Zəlzələdən zərər çəkmiş ermənilərə kömək məqsədilə "İL-76" təyyarəsi ilə 77 nəfər könüllü azərbaycanlılar Hamamlı (Spitak) rayonu yaxınlığında erməni terrorçuları tərəfindən "Stinger" raketi ilə vurulmuşdur.

Təsadüfən sağ qalmış Fəxrəddin Balayev İrəvan xəstəxanasına aparılmışdır.

- Ermənilər arasında yaralı türkə yer yoxdur,-deyərək erməni həkimləri onu müalicə etməkdən boyun qaçırmışlar.

**Dekabr 1988-ci il** - Ermənistanda yaşayan 229 nəfər azərbaycanlı qətlə yetirilib. Onların 165 nəfəri kişi, 64 nəfəri





qadın, 60 nəfəri 65 yaşından yuxarı, 4 nəfəri isə bələk uşağı idi.

**24 noyabr - 7 dekabr 1988-ci il** - Ermənistanın 22 rayonunda ermənilər eyni gündə və eyni hiyləgərliklə hücuma keçərək 250 mindən artıq azərbaycanlını qovub çıxarmışlar. Həmin qanlı əməliyyat vaxtı 165 kolxoz əmlakı, 31 min azərbaycanlı evi, 22 min ailənin əmlakı, mal-qarası, min üç yüz dəyişdirilməmiş yaşayış evi ermənilərə qalmış, 110 köç maşını qarət edilmiş, 100 nəfər işgəncə ilə öldürülmüşdü... 6 min kvadrat kilometr torpaq ermənilərin əlinə keçmişdi. Hamamlı rayonunun Qursalı kəndinə Zəlzələdən sonra 10 gün ərzində bir nəfərə də köməklik edilməmişdi.

**Dekabr 1989-cu il** - Martuni rayonunun Qaradağlı kənd sakini Tofiq Məmmədovun evi bomba ilə partladılıb. Şuşadan gecə ermənilərin basqını nəticəsində Kərkicahanda iki nəfər ağır yaralanmış, Çaykənddə 2 nəfər ağır xəsarət almışdır. Məmməd Vəliyevin idarə etdiyi "UAZ-469" 93-93 AQR markalı maşın minaya toxunur, sürücü ilə 4 nəfər ağır yaralanır.

**2 dekabr 1990-cı il** - Ermənilər Çaykənd və Kamo kəndlərində 11 azərbaycanlını qətlə yetirmiş, Ağdamın Gülablı, Şuşanın Göytala kəndləri ermənilərin hücumuna məruz qalmışdır.

**3 dekabr 1990-cı il** - Vardenis, Gorus, İcevan, Noyemberyan rayonları erməni quldurlarının basqınına məruz qalmış, Malıbəyli, Kosalar kəndləri güllləbaran edilmişdir.

**4 dekabr 1990-cı il** - Şuşanın Göytala kəndi Qaladərəsi ermənilori tərəfindən, Xanların Sarısu kəndi Şaumyan kənd rayonunun Mənəş və Buzluq kəndindən atəşə tutulmuşdur.

Əsgəranda ermənilər 20 maşından ibarət karvanı daş-qalaq edərək 12 sürücüyə ağır bədən xəsarəti yetirmişlər.

**5 dekabr 1990-cı il** - Stepanakertdə 42-41 AQA markalı maşının sürücüsünü döymüş, maşını qaçırmışlar. İdarələrin Azərbaycan dilində yazılmış bütün lövhələrini qoparıb atmışlar.

**7 dekabr 1990-cı il** - Martuni rayonunun Mirşen kənd erməniləri Ağdamın Gülablı, Şəmşəddin rayonundan isə Tovuzun Koxanəbi, Ağdamın Əlibəyli kəndləri atəşə tutulmuşdur.

**14 dekabr 1990-cı il** - Mirbəşir rayonunun Umudlu kəndinə tikinti materialı aparan 6 maşın karvanı atəşə tutulmuşdur. Sürücü A.Məmmədov həlak olmuş, əsgər D.Şakirov və sürücü S.Əmirov yaralanmışlar.

**15 dekabr 1990-cı il** - Erməni quldurları Cəmilli kəndi yaxınlığında "ZİL" maşınına basqın etmişər. Milis baş leytenantı M.Cəbrayılovu, mühafizə şöbəsinin əməkdaşı A.Əliyevi, kənd sakini A.Cavadovu qətlə yetirmişlər. Sırxavənd kənd sakini 18 yaşlı A.Həsənovu da güllə ilə yaralamışlar. Əsgəran rayonundan S.Babayan və A.Ayrumyan Cəmilli və Kosalar stansiyaları arasında üç nəfər azərbaycanlını qətlə yetirmişlər.





**17 dekabr 1990-cı il** - Şərur rayonunda pusqu quran ermənilər 23 yaşlı milis işçisi F.Əliyev və İ.Hacıyevi vəhşicəsinə öldürmüş, F.Abdullayevi yaralamışlar.

**18 dekabr 1990-cı il** - Ermənilər Daşkəsən rayonunun Lenin adına sovxozundan 500 baş qoyun aparmış, 27 yaşlı R.İsmayılovu girov götürmüşlər.

**1 dekabr 1991-ci il** - Rus əsgərlərinin köməyi ilə ermənilər Kərkicahana hücum edib kəndi qranatatan, minaatan, raket və BMP silahları ilə atəşə tutmuşlar. 1 nəfər həlak olmuş, 3 nəfər itkin düşmüş, 5 nəfər yaralanmışdır. 21 ev yandırılmışdır.

**2 dekabr 1991-ci il** - Topxanadan Şuşa şəhəri top və raket atəşinə tutulmuş, 8 ev dağıdılmış, 2 nəfər yaralanmışdır.

**8 dekabr 1991-ci il** - Xankəndindən BMP və BTR-lə Kərkicahan atəşə tutulmuş, nəticədə 8 nəfər yerli sakin ağır yaralanmışdır.

**10 dekabr 1991-ci il** - Goranboyun Todan kəndi Mənəş və Buzluq erməniləri tərəfindən atəşə tutulmuş, 80 ev dağıdılmış, 5 nəfər yaralanmış, 1 döyüşçü həlak olmuşdur.

**14 dekabr 1991-ci il** - Gecə ermənilər Cəmilli kəndinə basqın edib, 110 evi yandırıb, xeyli adam öldürmüşlər.

**23 dekabr 1991-ci il** - Ermənilər Hadrut rayonunun Daşbaşı kəndinə hücum edib 2 azərbaycanlını öldürmüş, 1 nəfəri yaralamışlar. Əsgəranın Meşəli kəndi yandırılmış, 12 nəfər diri-diri oda atılmışdır. Ümumiyyətlə, 50-dən çox adam yaralanmış,

25 nəfər isə qətlə yetirilmişdir. Axullu kəndində 40 ev yandırılmış, bir nəfər yaralanmışdır. "Qarabağ" təşkilatının terrorçu üzvləri Əsgəranın Meşəli kəndinə qəflətən hücum edib, 6 nəfəri öldürmüş, 15 nəfəri isə yaralamışlar.

**25 dekabr 1991-ci il** - Xankəndi şəhərindən son azərbaycanlılar çıxarılmışdır.

**27 dekabr 1991-ci il** - Ermənilər Kərkicahanı atəşə tutublar, 50 ev dağıdılıb, 14 nəfər itkin düşüb.





## BESLAN TERRORUNDA ERMƏNİ ƏLİ

Beslanda törədilmiş qanlı hadisənin səbəbi müəmmalı görünsə də, nəticə müəyyən versiyaların üzərində "baş sındırmağ"ın əbəs olmadığını təsdiqləyir. Törədilən faciənin istintaqı ilə bağlı Rusiya Federal Təhlükəsizlik Xidmətinin son açıqlaması təkcə ona maraq doğurmayıb ki, Maqas Yevlayev (xatırladaq ki, onun əsl adının Əli, soyadının Taziyev, milliyyətinin isə inquş olduğu bildirilir-M.N) 1998-ci ildə həlak olsa da, "xortlayaraq" bu qanlı olayı törədənlərə başçılıq edib.

Rusiya-Çeçenistan münasibətlərinə rəğmən Rusiyanın xüsusi xidmət orqanları terror aktının Aslan Məshədovla Şamil Basayevin göstərişləri əsasında törədilməsi versiyasını istisna etməsələr və bu terrorla bağlı məsuliyyəti Şamil Basayev öz üzərinə götürsə də burada "üçüncü əl"in olması şəksizdir ki, bu da ümumiyyətlə, daha böyük iddiaların gerçəkləşdirilməsinə hesablanmış planın tərkib hissəsidir. Bu qənaətə gəlməyə də məhz Rusiya FTB-nun açıqlamaları səbəb olub. Bu barədə bir qədər sonra.

Beslan aksiyasının məqsədi eyni zamanda Çeçenistan-Rusiya münasibətlərində bir qayda olaraq Moskvaya loyallığı

ilə seçilən osetinlərin çeçen və inquşlarla toqquşmasına və nəticədə Şimali Qafqazda etnik zəminində geniş aspektdə münaqişəyə rəvac vermək kimi də yozula biləndir.

Hər şey deyəsən, Priqorodnı rayonunda ərazi mübahisəsi zəmnində 1992-ci ildə baş vermiş qanlı münaqişədən başlayıb. Bu rayon Şimali Osetiyanın İnquşetiya ilə sərhəddində yerləşir və mübahisəli ərazi adlandırılır. Yeri gəlmişkən həmin toqquşmada 1000 nəfərədək osetin və inquş həlak olmuşdu. Bu münaqişənin yaranma tarixi isə ötən əsrin əvvəllərinə, daha doğrusu, Stalinin SSRİ xalqlarına "tarix və coğrafiya dərsləri" keçdiyi vaxtlara - 20-ci illərə gedib çıxır...

Sovetlər dönəmində oxunmamış qalan tarixi faktların üzə çıxmasından sonra baş verən milli münaqişələrin yaranmasının səbəblərinə və nəticəsinə dönə-dönə qayıtmağa ona görə ehtiyac duyulmaqdadır ki, "közərən ocaqlar"ın söndürülməsi üçün tarixi reallığa söykənilməlidir.

Söhbət Beslanda 1 sentyabr 2004-cü il tarixdə baş vermiş terakt törədənlərin etnik və ya milli tərkibindən deyil, insanlığa yabançı canlı olmasından gedir. Təbii ki, burada maraqlı tərəflərin öz siyasətlərinə uyğun versiyaları səsləndirilməkdədir. Şimali Qafqaz xalqlarını üz-üzə qoyan "qara əllər" kimin diktəsi ilə qana batır? Bu sualın cavabını verməkdə tələsməyən Rusiya Federasiyası Təhlükəsizlik Xidmətinin hələlik son açıqlamasında diqqəti özünə cəlb edən





ermənilərin bu aksiyada da vasitəçilik etməsidir. Bu da təbii ki, Beslan hadisələrində çeçenlərin rolunun indiki kimi böyük olması versiyasını zəiflədir.

"Qafqaz-sentr" agentliyinə A.Məshədovun verdiyi məlumat da bir daha özlüyündə bu versiyanın üzərində dayanmağa məcbur edir. O, adıçəkilən agentliyə bildirib ki, Beslanda baş verən olayın çeçen mücahidlərinin adı ilə bağlanması Rusiya xüsusi xidmət orqanlarının səriştəsizliyini ört-basdır etməkdən savayı bir şey deyildir...

Kimdir Qafqaz xalqlarını bir-birinə vuruşduran? Ermənilər?! Onlar doğrudanmı rusların, çeçenlərin əli ilə, qətlamına fərman verməkdən belə çəkinmirlər? Ən azı ona görə ki, Rusiya ermənilərin Qafqazdakı "şıltaqlığın"a "ərköyün uşağ"a olan münasibətini sərgiləyir. Dağlıq Qarabağ ətrafında yaradılmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın tutduğu mövqe də dolayısı ilə bunları təsdiqləyir. Beslan məktəbinin darmadağın edilməsi üçün terrorçularla separatçı danışıqlara gedən Aram Geğemyanla Vardan Haritunyanın əməlləri isə erməni-rus münasibətləri ilə bir araya sığmır. Rusiya Federasiyası Təhlükəsizlik Xidmətinin məlumatına əsasən, terrorçulara məxsus partlayıcı maddələr hadisədən bir neçə həftə öncə məhz adları yuxarıda çəkilən ermənilərin idarə etdiyi yük maşınlarında gətirilərək məktəbin zirzəmisində yerləşdirilib. Həbs olunan ermənilərin isə hansı

terror təşkilatının üzvü olmasının əhəmiyyəti yoxdur. Bu, istər "ASALA", istərsə də "Əl-Qaida" olsun.

Beslan hadisələrindən sonra Rusiya Federasiyası prezidenti V.Putinin terrorçulara qarşı amansız mübarizənin vaxtının çatması barədə verdiyi bəyanat düşünməyə vadar edir: görəsən, bu qanlı olaylar nəhayət ki, Şimali və Cənubi Qafqazın milli zəmin üzərində "qalanmış gözərən ocaqla"rını söndürəcəkmi, yoxsa, bu, bir daha Rusiyanın MDB məkanında təsir dairəsinin gündən-günə azalmasından xəbər verir?

Bu, bəlkə də son şansın itirilməsidir...





## SOYQIRIMINA MƏRUZ QALAN KİMDİR...

Xəstə təfəkkürün məkrli bəhrəsi olan bu mif qonşu xalqların ata-baba torpaqları hesabına "dünya boyda Ermənistan" yaratmaq məqsədilə uydurulmuşdur. Belə bir xülyanın gerçək faktı kimi bütün ölkələr və xalqlar tərəfindən etiraf olunması uğrunda çoxdan başlanmış qorxunc mübarizə indi də çox ifrat miqyasda vüsət almaqdadır. Qaynaqlar, faktlar saysız-hesabsızdır. Mövzuya ağırlıq gətirməmək üçün tək bir qaynağın-Ermənistan İnformasiya Agentliyinin yaydığı bəzi faktlarla kifayətlənək. 24.04.2003. «Osmanlı Türkiyəsində 1915-ci ildə baş vermiş «erməni soyqırımı» erməni xalqının tarixində ən dəhşətli səhifədir. Dünyanın 20-dən çox ölkəsi bu faktı etiraf etmişdir. Planetimizin bir çox ölkələrində bu münasibətlə matəm mərasimləri keçirilməkdədir».

Agentlik bu fikri tamamlamaq üçün bir-birinin ardınca üç xəbər yaymışdır. Birinci xəbərdə İrəvanda keçirilən matəm mərasimində respublikanın baş naziri AndrOnik Markaryanın «erməni soqırımı»na münasibəti belə şərh olunub: "Osmanlı Türkiyəsində 1915-ci ildə törədilmiş erməni soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən etiraf olunması təkcə erməni xalqının deyil, dünyanın bütün millətlərinin istəyidir. Bu faktın etirafı dünya ermənilərini və dünya millətlərini yeni soyqırımı təhlükəsindən xilas edir".

Baş nazir daha "cəsarətlə" öz ürəyini açaraq deyib:" Qarabağ hərəkatı xalqın əzmi və qüdrətini, silahlı qüvvələrin nələrə qadir olduğunu bütün dünya qarşısında nümayiş etdirdi... Erməni soyqırımı faktını inkar edənlərin cinayət məsuliyyətinə cəlb olunmasına dair qanun layihəsi hazırlanıb və parlamentin təsdiqinə təqdim olunub".

Şərhə ehtiyac qalmasa da, bir məqamı da nəzərdən qaçırmaq olmaz. Baş nazir bir güllə ilə bir neçə dovşan vurmaq istəyir. Erməni soyqırımı faktının etiraf edilməsini bəşəriyyət üçün taleyüklü bir məsələ səviyyəsinə qaldırmaq məqsədilə bildirir ki, bu faktın etiraf olunması dünya ermənilərini, dünya millətlərini yeni-yeni soyqırımları təhlükəsindən xilas edəcəkdir. Bu diplomatik gedişlə o, dünya ermənilərini, planetin müxtəlif millətlərini Ermənistanın xarici siyasətini, milli doktrinasını müdafiə etməyə çağırır, digər tərəfdən də onları inandırmağa çalışır ki, qoşulduqları mübarizədə Ermənistanın silahlı qüvvələrinə bel bağlaya bilərlər. Bu qədərə qane olmayan baş nazir hətta erməni soyqırımı faktını inkar etmək istəyənləri hədələməkdən də çəkinmir.

Baş nazir Andranik Markaryan, heç şübhəsiz, haqqında söhbət gedən məsələ barəsində öz hökumətinin mövqeyini açıqlayıb.

Burada yenilik, qeyri-adilik axtarmağa ehtiyac qalmır.

Qeyri-adilik ancaq bundadır ki, bəzi politoloqlar və





diplomatlar, şərhçilər və icmaçılar nədənsə hələ də bu fikirdədirlər ki, "erməni soyqırımı hərəkatının" kükrəyib coşmasına təkan verən həlledici qüvvə ancaq erməni lobbisi, erməni diasporudur, həqiqətdirmi bu? Əsla yox! Görün, Ermənistanın müdafiə naziri Serj Sarkisyan bu suala necə cavab verib: "Ötən illərdə erməni soyqırımı faktının beynəlxalq aləmdə etiraf etdirilməsi istiqamətində xeyli iş görülüb. Düzdür, Türkiyə tarixi tərsinə çevirməyə cəhd edir. Lakin buna baxmayaraq dünyanın əksər ölkələri qarşıdakı, lap yaxın illərdə Ermənistanın səsinə səs verərək, 1915-ci ildə baş vermiş erməni soyqırımı faktını etiraf edəcəkdir".

Elə həmin gün (24.04.2003), həmin matəm mərasimindən verdiyi üçüncü xəbərdə «Armeninform» Ermənistan parlamentinin o vaxtkı sədri Armen Xaçatryanın erməni soyqırımı məsələsinə mövqeyini ustalıqla oxuculara təqdim etmişdir: " Ermənistan ancaq insanpərvərlik naminə çalışır ki, 1915-ci ildə Osmanlı Türkiyəsində ermənilərə qarşı törədilmiş soyqırımı faktını bütün dünya etiraf eləsin. Biz istəyirik ki, dünya bizi başa düşsün. Biz öz tariximizi, öz faciəmizi bu yolla dünya ictimaiyyətinə çatdırırıq..." Ermənistan hökumətinin bu məsələyə münasibətini xarici işlər naziri Vardan Voskanyan daha dəqiq şərh edərək, elə həmin mərasimdə jurnalistlərin suallarını cavablandırarkən demişdir: "1915-ci ildə Osmanlı Türkiyəsində ermənilərə qarşı törədilmiş soyqırımı faktının hər

hansı bir yeni mərhələsindən söhbət gedə bilməz, ona görə ki, bu, daim fəaliyyətdə olan bir prosesdir. Burada rəsmi Yerevanın vəzifəsi erməni soyqırımı faktının təkcə beynəlxalq ictimaiyyət deyil, həm də Türkiyənin özü tərəfindən etiraf olunmasınadək məsələni ardıcıllıqla izləməkdən ibarətdir".

Ermənistanın rəsmiləri dönə-dönə bəyan etmişlər ki, erməni soyqırımının etiraf etdirilməsi məsələsi respublikanın xarici siyasətində daim ən aktual məsələ kimi ön sırada saxlanılacaqdır. Deməli, erməni soyqırımı məsələsini körükləyib alovlandıran qüvvələri ancaq Ermənistandan uzaqlarda axtarmaq cəhdi əbəsdir!

Lakin bu heç də kənarda, xaricdə erməni məsələsi, erməni soyqırımı xülyasından məharətli istifadə edən qanla sərxoş qüvvələrin olmaması demək deyildir. Yenə həmin agentliyin eyni gündə yaydığı xəbərləri xatırladaq: "Bu həftə Kaliforniyanın Pleasant Hill şəhərinin rəhbərləri erməni soyqırımı faktını etiraf etməyə dair qərar verdilər". Başqa xəbərdə deyilir: "Erməni soyqırımı qurbanlarının xatirəsini anma günü Fransanın paytaxtı Paris şəhərinin mərkəzində, Eyfel qülləsindən 500 metr aralı "Konada" adlı meydanda Komitasın abidəsi ucalmaqdadır".

03-07-2003. Amerika ermənilərinin milli Komitəsi, ABŞ-ın erməni gənclər federasiyası Talerant muzeyinin direktoru Liebe Qeftlə danışıqlar aparmış və erməni soyqırımına dair





eksponatları qəbul edərək muzeydə nümayiş etdirməyə də razılıq verməsini xahiş etmişlər. Erməni təşkilatları aclıq aksiyası vasitəsilə də buna nail ola bilmədiklərindən ABŞ vətəndaşlarına, bütün ermənilərə müraciət qəbul etmişlər...

Bəlkə bu müraciətlər, bu təklif və tələblər doğrudan da insanpərvərlik naminə edilir? Bəlkə, həqiqətən də, erməni soyqırımı faktının dünya tərəfindən etiraf edilməsi ülvi məqsədlərə xidmət etmək imkanı yaradacaq? Bu suala da cavab vermək üçün yenə Ermənistan İnformasiya Agentliyinin 04.06-2003-cü il tarixli xəbərinə müraciət edək: "Moskvada "Miabanutyun" (həmfikirlik) adlı erməni milli klubu Rusiya Federasiyası Dövlət Dumasına məktub göndərib. Məktubda 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsini dondurmaq və yaxud etibarsız elan etmək tələb və təklif olunur. Göstərilir ki, bütün müqavilə əsasında çar Rusiyasının 23 MİN 600 kv.km. ƏRAZİSİ Türkiyəyə qatılmışdır. Qars, Ərdəhan, Kağızman, Artvin, Elmi, Batumun cənub hissəsi və Sürməli bu əraziyə daxil olunubmuş. Erməni milli klubunun lideri Smbat Qaraxanyan politoloqların, arxiv əməkdaşları və beynəlxalq münasibətlər üzrə mütəxəssislərin bir qrupu adından Dövlət Dumasına təqdim etdiyi sənədlər vasitəsi ilə sübut etmək istəyir ki, haqqında söhbət gedən müqavilə qanuni hüquqa malik deyil. Ona görə ki, müqavilə imzalanarkən Türkiyədə iki hökumət olub. Biri İstanbulda, biri Ankarada. Rusiya ilə müqaviləni imzalayan Atatürk hökuməti dünya dövlətləri

tərəfindən tanınmayan bir hökumət olduğundan müqavilə gərək qüvvəsini itirmiş hesab edilsin.

Erməni mənşəli rusiya politoloqu, Boris Yeltsinin sabiq köməkçisi, professor Andranik Mihranyan da ötən il bu qənaətlə çıxış edirdi ki, 1915-ci ildə Osmanlı Türkiyəsində törədilmiş erməni soyqırımı zamanı oradan dünyanın müxtəlif guşələrinə səpələnmiş ermənilərin övladları indi guya 25 milyon nəfərdir. Soyqırımını etiraf edən Türkiyə gərək bu ermənilərin "öz vətənlərinə" qaytarılmasını, onların ata-babalarının itib-batmış əmlaklarının əvəzinin ödənilməsini də təmin etsin. Bəzi erməni şovinistləri ipi daha da uzadaraq təkidlə tələb edirlər ki, Türkiyənin 23 min deyil, 300 min kv.km. ərazisi Ermənistana qaytarılmalıdır. 15.07-2003-ci ildə "Azadlıq" radiosu erməni xidmətinin müxbiri Ermənistan parlamenti sədrinin müavini, "Daşnaksütyun" partiyasının liderlərindən sayılan Vahan Hovhannisyanla müsahibəsini yenə "erməni soyqırımı", Türkiyə ilə münasibətlər, sərhədlərin açılması məsələlərinə həsr etmişdir. Daşnak liderinin qənaəti belədir: "Türkiyə tərəfi erməni soyqırımı faktını rəsmi qaydada etiraf etməlidir. Bizim bütün tələblərimizi yerinə yetirməsə münasibətlər haqqında danışıqlara başlamaq olmaz. İndiki şəraitdə sərhədlərin açılması erməni xalqına xəyanət etmək deməkdir. Ona görə ki, Türkiyə malları Ermənistan bazarını işğal edə bilər..."

Hadisələrin inkişaf meyli, "Erməni soyqırımı" məsələsi, mifi





ətrafında coşub daşmaqda olan qışqırıqlar bir daha sübut edir ki, **ərazi iddiası, torpaq davası, indiki ermənistan iqtidarının əlində sehirli çubuq rolunu oynayır.**

Beynəlxalq aləmdə mötəbər kürsülərdən erməni siyasətçiləri Türkiyə ilə münasibətləri qaydaya salmağa hazır olduqlarını, sərhədlərin açılmasına çalışdıqlarını bəyan edir, daxildə "sabitlik" yaratmaq üçün "erməni soyqırımı" məsələsini meydana atırlar. Ermənistan prezidenti Robert Köçəryanın erməni soyqırımının 90 illiyini qeyd etmək barəsində fərman verməsi də bu baxımdan əsla təsadüfi addım deyil. İndi idrak əhli, zəka sahibi olan hər kəsi düşündürən başqa bir məqam var:

**Olubmu belə bir soyqırımı**?

Olmayıbsa necə və nə üçün uydurublar bu əfsanəni? Səhih cavab almaq üçün ən ədalətli hakim olan tarixin hökmünü dinləyək. 1500 il idi ki, davakar ermənilər müstəqil dövlət yaratmağa can atırdılar. XVII əsrin sonuna yaxın, hətta belə bir dövlət yaratmağa dair plan, proqram - layihə də hazırladılar. Avropada döymədikləri qapı qalmadı. Qayıtdılar əliboş, üzü qara. Hətta Bismark, -

**Ölmüş bir əsgərimin çürümüş sümüklərini bütün ermənilərə dəyişmərəm**,-degərək keşiş Mkırtıçı şillələyib geri qaytardılar. İsrail Ori, Minas Vartapet Rusiya imperatoru I Pyotrun hüzuruna gedib,- əl bizim, ətək sizin, ümidimizi kəsmə,- dedilər...

Osmanlı Türkiyəsində törətdikləri qətl və qarətlər, Sasun, Zeytun, Qars silahlı üsyanları, ardı - arası kəsilməyən terror aksiyaları, fitnə - fəsadlar da kara gəlmədi. San- Stefano, Berlin danışıqları (1878) "erməni məsələsi"nə beynəlxalq status verdi. Müstəqil, dənizdən - dənizə, həm də "Böyük Ermənistan" yaratmaq xülyası xülya olaraq qaldı. "Erməni məsələsi"ni reallığa çevirmək, davakar dairələrin istədiyi kimi həll etmək üçün müxtəlif partiyalar ("Armenakan", "Hnçak", "Daşnaksütyun", "Ramkavar" və s.), təşkilatlar, komitələr, cəmiyyətlər də yaratdılar. Lakin "erməni məsələsi" yenə də göydən asılı qaldı. Bəli, qaldı! Ona görə ki, nəhəng dövlətlər bu məsələni özlərinin diplomatiya cəbhəxanasında ən təsirli vasitə, hədəfi sərrast, həm də səssiz döyən silah kimi saxlayırdılar. Əslində ram edilməsi çox asan başa gələn işlək bir qapıya dönmüşdü bu məsələ. İstəyəndə bu qapını açır, istəməyəndə örtürdülər. Beləcə, XX əsrin əvvəlində bir müddət örtülü qalan qapı birinci dünya müharibəsi ərəfəsində taybatay açıldı və

**«Erməni məsələsi» yenidən meydana atıldı.**

Müharibədə nəhəng dövlətlərdən hər birinin öz mənafeyinə uyğun "nəhəng" də proqramı, planı, məqsədi var idi. Almaniya "geniş dünya təkcə İngiltərə və Fransa üçün, yalmz ruslar üçün deyil",- deyir və İngiltərənin, Fransanın müstəmləkələrinin bir hissəsini qoparıb ələ keçirmək, Rusiyanı məğlub etmək, Polşa





və Ukraynanı, Pribaltika və Finlandiyanı öz ərazisinə birləşdirmək, Yaxın və Orta Şərqdə hökmran olmaq niyyətindəydi. Avstriya - Macarıstan Balkan yarımadasında öz mövqeyini möhkəmləndirmək, Serbiya və Çexoslovakiyanı tutmaq istəyirdi.

1907-ci ildə yaranan İngiltərə- Fransa- Rusiya hərbi ittifaqının da öz planları var idi. İngiltərənin başlıca məqsədi Almaniyanın əl- qolunu bağlamaq, öz imperiyasının hüdudlarını daha da genişləndirmək, Aralıq dənizinə, Fələstinə sahib olmaq, Misiri qeyd - şərtsiz öz hökmranlığı altında saxlamaq idi. Fransa hələ 1871-ci ildə əldən verdiyi Elzas-Lotarengiyanı geri qaytarmaq, Saar hövzəsini zəbt etmək, Yaxın Şərqdə möhkəm kök salmaq, hətta Afrikadakı müstəmləkələrinin hüdudlarını xeyli genişləndirmək qənaətindəydi. Yaxın Şərqdə boğazlar uğrunda mübarizə Rusiyanın fasiləsiz yeritdiyi təcavüzkarlıq siyasətinin başlıca istiqaməti idi. Avstriyanı qarət etmək və Türkiyəni soymaq, İstambulu, Qərbi Ermənistan deyilən vilayətləri onun əlindən almaq, bütün İranı ələ keçirmək Rusiyanın hərbi strategiyasının son məqsədinə çevrilmişdi. Beləliklə, BÖLÜNMÜŞ DÜNYANI YENİDƏN BÖLÜŞDÜRMƏK ÜÇÜN İKİ CƏBHƏ YARANMIŞ VƏ ÜZ-ÜZƏ DAYANMIŞDI.

Almaniya, Avstriya, Macarıstan və İtaliya bir cəbhədə, digərində isə İngiltərə, Fransa və Rusiya əldə silah vuruşa tam

hazır idilər. 1914-cü il avqustun 1-də Birinci dünya müharibəsi başlandı. Çox keçmədi bu müharibəyə qoşulan dövlətlərin sayı 28-ə çatdı. Orta və Yaxın Şərq qanlı vuruşların, barışmaz ziddiyyətlərin əsas məkanı oldu. Qarşı - qarşıya duran müttəfiq dövlətlərin hər biri öz mənafeyi, öz məqsədinə çatmaq üçün ilk növbədə və başlıca olaraq Türkiyəni parçalamağa, heç olmasa, güclü təsir altında saxlamağa qalxdı. Məhz bu şəraitdə "erməni məsələsi" yenidən meydana atıldı. Meydana atıldı ki, Türkiyənin daxili işlərinə bu yolla təzyiq göstərilsin. Əvvəllər olduğu kimi, yenə də "imperialist Avropası bu məsələdən öz qəsbkarlıq niyyətləri üçün istifadə etməyə" başladı. Hüquq elmləri doktoru, tanınmış diplomat Ağasi Yesayan bu fikri daha açıq, bir qədər də kobudcasına inkişaf etdirərək yazırdı: "Erməni məsələsi" gərək əcnəbilərin əlində Türkiyənin boynuna sancılan neştər olmasın, əksinə, elə həll olunsun ki, talançı və qəsbkar qoşunların boyunduruğundan azad olmuş türk və erməni xalqlarının dostluğunun möhkəmlənməsinə xidmət etsin".

Öz məkrli işğalçılıq siyasətini həyata keçirmək üçün müharibəyə qalxan böyük dövlətlər isə milli ədavəti yetərincə körükləyir, ermənilərə saysız - hesabsız vədlər verir, onları türklərə arxadan ölümcül zərbə vurmağa təhrik edirdilər. Müharibədə Antanta (İngiltərə, Fransa, Rusiya) ittifaqına qoşulan ABŞ rəsmi bəyanatla ermənilərə bildirirdi: "Biz maddi





mənafe güdmürük, azlıqda qalan xalqların hüququ və azadlığı uğrunda, onların müstəqilliyi uğrunda vuruşuruq" (Vudro Vilson). Fransa hökumətinin başçısı, xarici işlər naziri gurultulu ibarələrlə erməniləri şirnikdirib yazırdı: "Fransa öz dərd - kədərini unudaraq sizin halınıza yanmaqdadır". Prezident Raymon Püankars Kilikiya ermənilərinin patriarxı Petros 13-cü Terzyana ürək-dirək verib deyirdi: "Dünyada haqqın və ədalətin təntənəsi yolunda birgə əzab çəkmiş Ermənistanın Fransadan, öz növbəsində Fransanın da Ermənistandan şübhə etməyə haqqı yoxdur". Şərq legionunda erməni könüllülərinin axını, fransız zabitlərin sərkərdəliyi altında vuruşması, şəksiz, ermənilərdə qələbə əzmini, müstəqilliyə qovuşmaq inamını xeyli artırmışdı.

Erməniləri şirnikləşdirməkdə İngiltərənin rolu əvəzsiz idi. Bu ölkə qədər Avropada heç bir dövlət ermənilərə vədlər verməmişdi. Lakin ermənilər və Ermənistan məsələsində İngiltərənin verdiyi vədlərin gerçəkləşməsi prosesini ölkədə uzun illər baş nazir olmuş Lloyd Corc belə qiymətləndirmişdir:

"ERMƏNİSTAN BİZİM QURBANIMIZDIR".

Antantanın digər şəriki Rusiyanın mövqeyi də bəlli idi. "Erməni məsələsi"ndə hələ 1914-cü ilin noyabrında çar 2-ci Nikolay deyirdi: "Kiçik Asiyada mən, təbii olaraq, erməni məsələsi ilə məşğul olmalıyam. Əlbəttə, onların türk zülmü altında qalmasına yol vermək olmaz. Ermənistanı Rusiyaya

birləşdirəcəyəmmi? Əlbəttə, mən onu ermənilərin ayrıca tələbi əsasında birləşdirəcəyəm. Yox, baş tutmasa, mən onlar üçün müstəqil dövlət yaradacağam..." Rusiyanın xarici işlər nazirinin bir raportunda deyilirdi: "Bu ağır günlərdə erməni xalqına kömək etmək Rusiyanın mənəvi borcudur". Elə həmin raportda çar hökumətinin yeritdiyi siyasətin məqsədi açıq-aşkar şərh olunur: "Tədbirlər görmək lazımdır ki, ermənilər pərakəndə halda Qafqaza və Rusiyaya yayılmasınlar, belə olarsa, onları Ermənistanda məskunlaşdırmaq çətinləşər.."

Məhz bu şəraitdə Türkiyədə ermənilər Avropanın böyük dövlətlərinin himayəsinə arxalanıb Birinci dünya müharibəsində yenidən ayağa qalxaraq silahlı üsyan vasitəsilə altı vilayətdə, ayrı - ayrı şəhərlərdə Türkiyə hökumətini devirmək, yerində müstəqil, "Azad Hayastan" yaratmaq xülyasını reallaşdırmaq üçün kütləvi surətdə ayağa qalxdılar. Silahlı dəstələri nəhəng dövlətlərdən heç biri öz ordusuna cəlb etmək, onlardan bələdçilər, casuslar, tərcüməçilər, həm də türklərə qarşı müstəsna qəddarlıqla vuruşan döyüşçülər kimi istifadə etmək fürsətini əldən vermədi. Qafqaz canişinin rəvacı ilə ermənilər silahlı könüllü dəstələr, drujinalar yaratmağa başladılar. Rusiya ordusunun tərkibində 250 min, Avropa dövlətləri ordularında 50 min erməni Türkiyə sərhədlərini keçərək türklərə qarşı amansız qəddarlıqla vuruşmağa başladılar. Şəksiz, Türkiyənin öz ərazisində də ermənilər





yüzlərlə silahlı könüllü dəstələr düzəltmişdilər.

Sual olunur: xaricdə 300 min erməni ölümsaçan silahla Türkiyəyə qarşı hücum etdiyi, daxildə az qala bütün ermənilərin hökumətə, xalqa qarşı silahlı üsyana qalxdığı bir vaxtda

TÜRKİYƏ HÖKUMƏTİ NƏ ETMƏLİ İDİ? DÖVLƏTİ, ƏRAZİNİ ERMƏNİLƏRƏ GÜZƏŞTƏMİ GETMƏLİYDİ?

Hələ 1916-cı ildə Sankt - Peterburqda ermənilərin çap etdirdikləri bir topluda Rusiya ərazisindən Türkiyəyə hücum çəkmiş erməni könüllü silahlı dəstələri haqqında deyilir: "Könüllülər Türkiyə ərazisinə daha tez, hamıdan qabaqda daxil oldular. Döyüş meydanını, yer-yurdu, yolu - bərəni əla tanıdıqlarından, düşmənin dilini, psixologiyasını, döyüş vərdişlərini yaxşıca bildiklərindən, eyni zamanda türk dövlətinə qarşı ürəklərində dərin və barışmaz bir nifrət hissi göyərtdiklərinə görə, rus hökuməti onların bu üstünlüklərindən məharətlə istifadə edirdi. Dəstələr ön cəbhəyə böyük inamla atılır, fədakarlıqla vuruşur, geri çəkilmək lazım gələndə də düşmənə ölümcül zərbələr endirirdilər".

Dinc əhaliyə qarşı erməni silahlı dəstələrinin törətdikləri vəhşilikləri toplunun müəllifləri xüsusi iftixarla qələmə almışlar: "Alaşgert, Salmas, sonra da Van... geri çəkilərkən dəstələrimizin erməni xalqı qarşısında göstərdikləri qəhrəmanlıq hamıya məlumdur. Dəstələrimiz uğrunda vuruşduqları hər iki məqsəd və vəzifəni şərəflə yerinə yetirir,

xalq qarşısında özlərini doğruldurdular. Dilmanda, Vanın alınmasında, Bitlisdə gedən vuruşlar könüllü dəstələrin rəhbərləri və döyüşçülərinə şərəf gətirdi".

Görünür, dinc əhalini qırmaq, uydurma "azadlıq hərəkatı"nda iştirak etməyi müəlliflər "məqsəd" və "vəzifə" kimi qələmə vermək istəmişlər.

Döyüşlər gedir, dinc əhalini erməni silahlı dəstələri qırır, kəndi, şəhəri yerlə-yeksan edirdilər. Lakin hələ "erməni soyqırımı" sədası eşidilmirdi. Çünki, soyqırımına məruz qalan ermənilər deyildi...





## "ERMƏNİ VANDALİZMİ" FOTO-SƏRGİSİ NƏLƏRİ ANLATDI

Erməni vandalizminin canlı şahidi olan, Qarabağ döyüşlərində qaniçən cəlladların yüzlərlə şəhidlərimizin cəsədlərinin başına min bir vəhşilik nümunəsi gətirilməsini fotolentə köçürən, həmin şəhidlərin öz yiyələrinə çatdırılmasında misilsiz xidmətlər göstərmiş "General Əli bəy" ləqəbi ilə tanınan Əlövsət Qasımovun vətənpərvərlik nümunəsi sayılan fəaliyyətinə həsr olunmuş foto-sərgi və erməni vəhşilikləri barədə çox danışmaq olar, çünki bu barədə istənilən qədər faktlara və sübutlara malikik. Lakin çox təəssüf ki, əsrlərlə davam edən bu vandalizm aktına görə, dünya ictimaiyyəti erməniləri nəinki qınayır, əksinə, yeri gəldikcə onlara havadar çıxır, ikili standartlar nümayiş etdirir, işğala məruz qalan Azərbaycanla terrorçu, təcavüzkar Ermənistana eyni münasibət göstərir və yaxud Qarabağ dərdlərindən xilas olmaq üçün bəzi güzəştlərə - "kompromis variant"lara vadar edirlər. Əslində nə baş verdiyini çox yaxşı bilirik. Zaman-zaman bu vəhşiliklər barəsində susduğumuzdan və ya susdurulduğumuzdan, saxta "erməni soyqırımı" ilə dünyanın diqqətini özlərinə cəmləşdirən erməni lobbisi bununla öz vandalizm siyasətlərini ört-basdır etməyə çalışırlar...

O da məlumdur ki, artıq ermənilər öz çirkin niyyətlərinin qurbanına çevrilirlər. Belə olmasaydı, Ermənistan "müstəqillik" qazandıqdan sonra iqtisadi-siyasi məngənədə sıxılmaz, düşmən kəsildiyi, torpaqlarının 20 faizini işğal etdiyi, 1 milyona yaxın insanını doğma ev-eşiyindən qaçqın-köçkünə çevirdiyi Azərbaycandan kömək istəməz, Türkiyə ilə sərhədlərinin açılmasına çalışmazdı.

Təbii ki, Ermənistanın işğalçı dövlət kimi tanınması, Azərbaycan həqiqətlərinin bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənməsi dövlət başçısının yürütdüyü daxili və xarici siyasətinin, diplomatiyasının nailiyyətidir.

Bu gün bizə lazım olan siyasi uğur və nailiyyətdir ki, indi biz pilləni keçirik. Artıq Avropa Şurası, BMT, ATƏT, NATO, eləcə də bir sıra digər beynəlxalq təşkilatlar Ermənistanı bu zorakılığa, terrorçuluğa son qoymağa çağırır, əks təqdirdə aqibətinin necə olacağı məlum olmayan Ermənistanın daha böyük iqtisadi-siyasi sanksiyalara məruz qalacağı istisna olunmur.

Aprelin 24-də Bakının Xətai Rayon İcra Hakimiyyəti, Bakı şəhər Veteranlar Şurası və akademik Zərifə xanım Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun birgə keçirdiyi "Erməni vandalizmi" foto-sərgisi və konfransı da məhz "erməni soyqırımı" ilə dünyanı aldatmağa çalışan ermənilərin xalqımızın başına açdığı dəhşətlərə həsr edilmişdi.





Xətai adına mədəniyyət sarayının foyesində sərgilənən foto-şəkillər əsl vandalizm nümunələri idi. Burada əks olunan mənzərə təkcə insanlığa, bəşəriyyətə qarşı amansız ölüm hökmü deyil, vəhşiliyin, qəddarlığın, erməni daşnaklarının türklərə qarşı törətdiyi əsl genosid, soyqırım faktları idi; sinəsi parçalanmış qadının qucağındakı körpəyə, bədəninin yarısı olmayan, başının dərisi soyulmuş, diri-diri od vurulub yandırılmış şəhidlərimizin foto-şəkillərinə baxmaq o qədər də asan deyildi.

Konfransı açıq elan edən Xətai Rayon İH-nin siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Pənah Xəlilovun sərginin mahiyyəti barədə ətraflı məlumatından sonra çıxış edən Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrasına Nəzarət Baş İdarəsinin şöbə müdiri Niyazi Məmmədov, politoloq, Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlu, ASAM Qafqaz Masasının eksperti Hatəm Cabbarlı, Bakı Şəhər Veteranlar Şurasının sədr müavini, ehtiyatda olan polkovnik, Əlövsət Qasımovun döyüşçü dostu və fəaliyyətinin canlı şahidi Yaşar Süleymanov alovlu vətənpərvərin Əlövsət Qasımovun şahidi olduğu dəhşətlərdən bəhs edən foto-şəkillərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasının əhəmiyyətindən söz açdılar və belə tədbirlərin nəinki rayon səviyyəsində, respublika və beynəlxalq miqyasda keçirilməsini zəruri

saydılar.

Xətai RİH-nin başçısı İbrahim Mehdiyev isə tədbir barəsində bunları söylədi:

-Tədbiri biz təşkil etsək də, əsas məsələləri Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrasına Nəzarət Baş İdarəsinin rəisi, general-mayor Aydın Qasımov həll edib. Biz bu sərgi-konfransla, dövlət siyasətinin yerlərdə həyata keçirilməsi üçün bir addım atmışıq. Ancaq bu elə məsələdir ki, tutduğu vəzifəsindən və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, hər kəs bu sahədə müəyyən iş görməlidir. Ermənilər soyqırım barəsində danışırlar, lakin faktlar göstərir ki, onlar bizə qarşı soyqırımı törədiblər. Gənclərə, uşaqlara birdəfəlik başa salmalıyıq ki, dünənimizdə nə olub, sabahımız necə olacaq. Biz daha heç zaman müdafiə mövqeyi tutmamalıyıq. Gərək icra orqanları yaradıcı qurumlarla, onlar isə icra orqanları ilə əlbir işləyərək, insanlarda vətənpərvərlik hisslərinin möhkəmləndirilməsinə töhfə versinlər.

"General Əli bəy" ləqəbi ilə tanınan Əlövsət Qasımovun da adıçəkilən tədbirdəki çıxışı zaman-zaman yaddaşlardan silinməyəcək:

-Dünya şöhrətli siyasətçi, Ümummilli liderimiz Heydər Əliyevlə 1992-ci ildə, Qarabağ savaşlarının qanlı-qadalı günlərində 8 dəfə görüşüb, verdiyi tövsiyələr və tapşırıqları yerinə yetirməklə, bütün bu şəkillərdə əks olunan erməni vəhşiliklərini sənəd-sübutla bu günə çatdırmışam. Bildiyimiz kimi, həmin illər (1991-92-ci il) Azərbaycan hakimiyyətində





özbaşınalıq, hərc-mərclik hökm sürürdü. Mən Ermənistandan qaçqın düşüb, Tərtər rayonunun Bəyimsarov kəndində məskunlaşdığımdan, Ağdərə, Goranboy, Ağdam ərazilərində gedən döyüşlərin canlı şahidi idim. Döyüş meydanlarında qalan şəhidlərimizin cəsədlərinin çıxarılıb öz doğmalarına çatdırılmaması məni olduqca narahat edirdi. Odur ki, Naxçıvana gedib o zaman Naxçıvan MR Ali Məclisinin sədri işləyən Heydər Əliyevlə görüşüb, bütün bunlar barəsində ona məlumat vermək qərarına gəldim. Əliyev tərəfdarlarının yaxından köməkliyi ilə biz beş nəfər-kəndimizin ziyalı ağsaqqalı Cəmşid Quliyev, Zakir Əliyev, Mərdan Şabanov və Xəqani Əliyevlə Naxçıvana getdik. Biz orada bir saatdan artıq söhbət etdik. Tərtərin ağır günlərindən xəbər tutan Naxçıvan MR Ali Məclisinin sədri, ümid və pənahımız olan Heydər Əliyev müavini Asif Kələntərlini yanına çağırıb, ehtiyaclarımızın ödənilməsini tapşırdı. Biz sevincimizdən onu bağrımıza basdıq. Tərtərə qayıtdıqdan sonra birbaşa rayon polis şöbəsinə, daha doğrusu, şöbə rəisinin müavini Aydın Qasımovun yanına gedib, onun sərhəddə yaratdığı polis postlarına yollandıq...

Gördüyümüz və şahidi olduğumuz o vəhşiliklər bu gün sərgilənən foto-şəkillərdə əks olunub. Döyüş meydanlarında qalmış erməni silahlılarının atıb qaçdıqları 1079 ədəd silah və hərbi-sursatı toplayıb, "N" saylı hərbi hissəyə verməyim də sərgidə göstərilən sənədlərlə (qəbz) təsdiq edilir. Mən taleyimdən razıyam ki, gördüyüm işlər barədə böyük şəxsiyyət Heydər Əliyev vaxtilə müsbət fikirlər - "sən əsl generalın işini

görürsən",-söyləyib. Yazıçı-jurnalist Məhəmməd Nərimanoğluna minnətdaram ki, mənim çəkdiyim əzabların bir hissəsini 1998-ci ildə "Gənclik" nəşriyyatında "Qanlı köynəklər" kitabında çap etdirməklə, öz çiyinlərinə götürdü.

Konfransda iştirak edən Avrasiya Siyasi Araşdırmalar Mərkəzi Qafqaz Masasının eksperti Hatəm Cabbarlının fikirləri də maraqlı idi:

– Bu sərgi erməni vandalizminin süqutuna səbəb olacaq qədər tarixi faktlardan ibarətdir. Belə faktlar ermənilərdə olsaydı, hər il bir ölkədə sərgi keçirərdilər. Avropaya çıxmaq lazımdır. Bu tarixi sənədlər və faktlar əsasında hazırlanmış foto-sərgilərin Avropada nümayişi dünya ictimaiyyətinə çox söz deyə bilər.

Tədbirdə də xüsusi vurğulandığı kimi, foto-sərgiyə dəvət olunan 200-ə yaxın təşkilat, qurum rəhbərlərinin və ayrı-ayrı yüksək vəzifəli məmurların təəssüf ki, heç də hamısı iştirak etmirdi. Buna baxmayaraq, rayon təhsil şöbəsinin, 55,95,171,261,265 saylı orta məktəblərin pedaqoji və şagird kollektivləri, bir sıra idarə-müəssisə işçiləri tədbirə qatılmış Xətai RİH Aparatının da sərginin keçirilməsində xüsusi fəallıq göstərdikləri qeyd edildi.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev çıxışında Əlövsət Qasımovun vətənpərvərlik fəaliyyətini əks etdirən foto-faktlarla çap olunan kitabların çoxaldılıb, yayılacağını və bu cür tədbirlərin gələcəkdə də davam etdiriləcəyini bildirdi.


































188




















## SAXTA SOYQIRIM

### Bunun arxasında nə dayanır?

Məlum olduğu kimi, II Dünya müharibəsindən sonra yəhudilərin soyqırım məsələsi gündəmə çıxarılmış və beynəlxalq məhkəmələrdə faşizmin törətdiyi soyqırım öz təsdiqini tapmışdır. Buna baxmayaraq artıq neçə illərdir Almaniya ilə İsrail arasında qarşılıqlı anlaşma və ılıq münasibətlər var. Bəs, bəşəriyyətin məkrli düşməni rolunu "məharətlə" oynayan ermənilərin "soyqırımı" nədir və bunun arxasında nə dayanır?

Məlumdur ki, ermənilər Cənubi Qafqaza gəlmədirlər. XIX əsrin əvvəllərində Cənubi Qafqazın, o cümlədən Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı uğrunda aparılan müharibələr 1813-cü ilin oktyabr ayında Gülüstan müqaviləsi ilə birinci mərhələni başa vurdu. Bundan sonra çar Rusiyası İran və Türkiyə ərazisində məskunlaşmış ermənilərin İrəvan və Qarabağa köçürülməsi üçün tədbirlər görməyə başladı. Rusiya-Türkiyə müharibəsi də bu işin sürətləndirilməsinə səbəb oldu. Rusiya-İran arasındakı uzun müharibələr isə son nəticədə "Türkmənçay müqaviləsi" ilə və faktiki olaraq Azərbaycanın Çar Rusiyasının işğalı altına düşməsi ilə yekunlaşdı. Bundan sonra Cənubi Qafqazda hökmranlıq edən çar Rusiyası İrandan

və Türkiyədən ermənilərin İrəvan və Qarabağ xanlıqları ərazilərinə köçürülməsini daha da genişəndirdi.

Çar hakimlərinin himayəsi ilə silahlandırılan ermənilər yerli əhalini incidir, imkan düşdükcə onları məhv edirdilər. "Böyük Ermənistan" xülyası ilə fəaliyyət göstərən daşnaklar heç nədən çəkinmədən Türkiyə və Azərbaycanda yerli əhalinin, daha doğrusu, türk və azərbaycanlıların tamamilə məhv edilməsinə başladılar. I Dünya müharibəsində Osmanlı imperiyasının süqutundan sonra daşnaklar daha da quduzlaşmışdılar. 1905-06-cı, eləcə də 1918-20-ci illərdəki qırğınlar bilavasitə çar Rusiyasının himayəsi altında həyata keçirilirdi.

Daşnakların torpaq iddiaları və qırğınları Türkiyədə də dəhşətli həddə çatmışdı. Andranikin qulağının kəsilməsindən sonra isə hadisələr daha fəlakətli şəkil aldı. Təkcə onu demək kifayətdir ki, minlərlə kənd və yaşayış məntəqələri tarixin səhifələrindən silinib xarabalığa çevrilmişdir. Yüz minlərlə türk övladı vəhşicəsinə qətlə yetirilmişdir.

Daşnakların türk övladlarına qarşı soyqırımı bu gün də davam edir. İkili standartlarla fəaliyyət göstərən beynəlxalq təşkilatlar, həmçinin bəzi nüfuzlu dövlətlər, bu işdə "əllərinidən gələni" əsirgəmirlər. Bu gün Ermənistanla əməkdaşlıq edən İranda da (Urmiya, Xoy, Səlmas) soyqırım törədən ermənilər 150 mindən artıq azəri türkünü vəhşicəsinə məhv etmişdir.





Güclü erməni lobbisi sayəsində bir neçə dövlətin qondarma 1915-ci il "erməni genosidi"ni tanıması heç də hər şey demək deyil. Baxmayaraq ki, bəzi dövlətlər də bu məsələdən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirlər, amma həqiqət həmişə qalib gəlir. Belə ki, hamı yaxşı bilir ki, belə bir soyqırım olmayıb, olubsa da daşnaklar türkləri qırıblar. Türkiyədə, Zəngəzurda, Göyçədə hər bir daş, hər bir xaraba kənd, yaşayış məntəqəsi bunu sübut edir.

Elə ona görə də yəhudi soyqırımını tanıyan dünya, qondarma erməni genosidini tanımır, sadəcə olaraq lazım gələndə kiminsə üstünə qısqırtdıqları mənfur erməni daşnaklarını saxta soyqırım kimi saxta vədlərlə də şirnikdirirlər. Başqa cür də ola bilməz, axı, dünya həqiqət üzərində bərqərardır. Yalan isə ayaq tutsa da yeriməz.

## ONLARIN MƏQSƏDİ TÜRKSOYLULARI MƏHV ETMƏKDİR

Son 15 əsr ərzində müsəlmanları mənfi obrazda təqdim etmək üçün böyük səylər sərf edən ermənilər təxminən özləri xristiandan çox, yarıya qədər türk mənşəlidilər. Müvafiq olaraq Ermənistan əhalisinin yarıdan çoxu xristian deyil, müsəlman mentalitetinin daşıyıcılarıdır.

Həqiqətdə onlar lap əvvəldən xristian aləmindən özlərini təcrid etməyə başlayıblar. Xristianlıqda müstəsnalıq uğrunda canfəşanlıq onların pravoslav kilsəsindən ayrılmasına və dinə dönük çıxmalarına gətirib çıxardı. Buna görə xristian aləmi 451-ci ildə Xalkidonda keçirilən Bəşəri yığıncaqda ermənilərin dini təlimini küfr və özləri dönük elan edildi. «...ermənilərin pravoslavlıqdan kənarlaşması xüsusi maraq kəsb edir... Bu proses tam olaraq IV əsrdə, ermənilərin İran şahı Xosrovun xeyrinə Xalkidon yığıncağının formulunu rədd edərək, monofizitlərə qoşulmasından sonra başa çatıb. Bu, farslara xristian dünyasını parçalamaq və Bizans imperiyasını zəiflətmək üçün lazım idi».

Erməni terrorunun xarakteri ermənilərin özlərinin xarakteri əsasında kök atıb. Onlar daim türklərə, romalılara





nifrət bəsləyib, parfiyalılara qibtə edib, lakin qeyd-şərtsiz Rusiyaya meyilləniblər.

Erməni terrorizmi haqqında təqdim edilən siyahı Rusiya İmperiyasının istilasından başlayaraq (XIX əsrin ortalarında) Azərbaycan torpaqları hesabına erməni dövlətinin yaradılmasını göstərir.

Dünyada 9 beynəlxalq terror qruplaşmaları sırasında erməni terror təşkilatları üçüncü yeri tutur. Təəssüf ki, erməni terrorçularının ABŞ, Fransa, Yaponiya, Rusiya və Türkiyədə, həmçinin dünyanın digər ölkələrində həyata keçirdikləri terror aktlarına hələ də dünya ictimaiyyəti tərəfindən lazımi qiymət verilməyib. 1973-1987-ci illər ərzində erməni vandalları tərəfindən dünyada 200, təkcə Dağlıq Qarabağda 1988-1994-cü illər ərzində 32 terror aktı həyata keçirilib.

Son 200 ildə Türkiyə, İran (Cənubi Azərbaycan), indiki, müasir Azərbaycanda (Dağlıq Qarabağ da daxil olmaqla) erməni terror təşkilatları bir milyon azərbaycanlı və milyondan artıq türk (1.600.000) qətlə yetirilib, bir çoxlarının yaşadıqları ərazilər isə yer üzündən silinib.

Dünyanın aparıcı ölkələri bu regionda öz maraqlarını həyata keçirmək məqsədi ilə Britaniyanın köhnə siyasətinə əl atır və qədim Roma strateqlərinin «bölüşdür və hökümranlıq et!» prinsipindən istifadə edirlər. Ağ Ev, Ronald Reyqan və

daha sonra ata Corc Buş uydurulmuş «erməni məsələsini» prioritet kimi irəli sürməklə İraqdan Əfqanıstana və İsrailə, həmçinin Cənubi Qafqazadək olan əraziləri nəzarət altında saxlamağa can atmaqdadır.

Məhz bununla da izah olunur ki, ABŞ erməni millətçiliyini və təxribatçılığını mənəvi və maddi cəhətdən dəstəkləyir. Bu ünsürlər isə türksoylu digər xalqlara, o cümlədən ermənilərin özlərinə də geniş şovinizm, rasizm və terrorizmlə davam olunur.

Mən 80-ci illərin sonunda Azərbaycanın növbəti parçalanmasının şahidi olan qurbanlardan biriyəm. Həyatımın əsas amalı, əslində, siyasət yox, qadın üzərinə düşən öhdəliklər olmalı idi. Bu elan olunmamış müharibədə mən həyatın çox acılarını görməyimə baxmayaraq, arzum budur ki, bütün dünyada insanlar birləşsin və dostluq işəraitində yaşasın. Mənim mübarizəm zorakılıq və şərə qarşı davam edir.

Mən dünyada sülh və əmin-amanlıq tərəfdarıyam!





## ERMƏNİ TERROR TƏŞKİLATLARI

**«Vətən müdafiəçiləri»** - təşkilat XIX əsrin əvvəllərində Osmanlı İmperiyası dövründə Ərzurumda katolik-ruhanilər tərəfindən yaradılıb. Hələ 1880-ci ildə nəşr olunan «Rusiya xalqları - etnoqrafik oçerk» kitabında ermənilərin xisləti açılır və bu xalqın bədbəxtliklərinin səbəbləri göstərilirdi.

**«Armenakan»** - partiya 1885-ci ildə Türkiyədə yaradılıb. Təşkilat İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edib.

**«Qnçak»** - 1887-ci ildə Cenevrədə yaradılıb. Partiyanın əsas məqsədi Türkiyə Anadolusunu Rusiya və İran Ermənistan adlanan ərazilərin birləşdirilməsi yolu ilə «Böyük Ermənistan» yaratmaq olub. Təşkilatın rəsmi proqramının 4-cü bəndində yazılıb: «Qarşıya qoyulan məqsədə nail olmaq üçün təbliğat, terrorizmin təşviqatı və terror təşkilatlarının yaradılması üsullarından istifadə olunmalıdır».

**«Daşnaksütyun»** - 1890-cı ildə Tiflisdə yaradılıb. Ermənistan Federativ İnqilab Partiyasıdır. Partiyanın 1892-ci ildə keçirilən I qurultayında qərara alınıb: «Hər yerdə, istənilən şəraitdə türkləri, kürdləri, erməni satqınlarını öldür, qisas al!».

**«Xofyaratma Təşkilatı».**

**«Terrora Hazırlıq Komitəsi».**

**«Dehli» hind terror qrupu.**

**«Nemezida»** təşkilatı 1919-cu ildə İrəvanda yaradılıb. «Daşnaksütyun» partiyasının IX qurultayında, ARFD rəhbəri Şaqen Natalinin təkidilə təşkilatın üzərinə «ermənilərin əzablarına görə qisas almaq» kimi xüsusi missiya qoyulur.

Bunun üçün məsul orqan (rəhbəri Armen Qaro) və xüsusi fond (rəhbəri Şaqen Satçaklyan) yaradılır.

**DRO gizli terror qruplaşması və onun bölmələri:**

**DRO-8**

**DRO-88**

**DRO-888**

**DRO-8888**

Hazırda daşnakların bu qruplaşmalarda fəaliyyəti davam etdirilir. «Dro» (Drozdomat Kananyan) 1884-cü ildə İqdırda doğulub. O, 19 yaşında daşnakların partiyasına qoşulub. Knyaz Nakaşidze və general Əlixanovu qətlə yetirib. 1918-ci ildə o, qonşu ölkələrə hücum edən erməni ordusuna rəhbərlik, 1920-ci ildə isə Terteryanla birgə «öz vətəninin» bolşeviklərə təslim edilməsində iştirak edib. Dronun gürcü Cuqaşvilinin (Stalinin) həyatını xilas etdiyi də göstərilib.

Rumıniyada o, nasistlərə qoşularaq Krım və Qafqazda vəhşiliklər törədib. 1945-ci ilin aprelində o, Amerikada həbs edilib, lakin tezliklə Boston daşnaklarının təzyiqi altında azadlığa buraxılıb. Dro erməni xalqının qanlı tarixində mövcud olmuş ən qəddar fiqurlardan biri olub.

**«Ermənilərin Qabaqcıl Birliyi»** 1940-cı ildə Amerikada yaradılıb. Məqsəd İran (Cənubi Azərbaycan), Türkiyə və müstəqil Azərbaycan ərazisində erməni dövləti yaratmaqdır.

**«Qarabağ»** Komitəsi 1940-cı ildə gizli şəkildə bolşevik daşnak A.Mikoyan tərəfindən Moskvada yaradılıb. O, 1924-cü ildə sovet hakimiyyəti tərəfindən süni şəkildə yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsilə bağlı Ermənistanın milliyyətçi dairələrinə yardım edib.





**1947-1954-cü illərdə** Ermənistandan Azərbaycana 165 min azərbaycanlı deportasiya edilib, onların 53 min nəfəri Kür-Araz düzənliyi ərazilərində məskunlaşıb. Azərbaycanlıların mənzərəli və səfalı dağlıq ərazilərdən deportasiyasının acı nəticələri ermənilər tərəfindən çoxdan nəzərə alınmışdı. Birincisi, gəlmə hindavropalı-semit qaraçı haylar Ermənistanı yerli azəri türklərindən təmizləməyə çalışıblar. İkincisi, onlar hesab edirdilər ki, əsrlərlə dağlıq ərazilərdə yaşayan türklər həyat üçün yaramayan Kür-Araz düzənliyində yaşaya bilməyəcəklər.

**«Ermənilərin Milli Birliyi»** 1943-cü ildə Amerikada yaradılıb. Təşkilatın məqsədi Azərbaycan torpaqlarını işğal etmək üçün Dağlıq Qarabağ ermənilərini dəstəkləməkdir. Azərbaycan torpaqlarının təmizlənməsi ötən əsrin 50-60-cı illərində də davam etdirilib. Diqqətçəkən məqam ondan ibarətdir ki, azərbaycanlılar, yəhudilər, gürcülər və ruslarla yanaşı erməni katoliklər də Ermənistandan qovulmuşlar.

**«1970-ci illərdə»** Gürcüstan Kommunist Partiyasının birinci katibi Mjavanadzenin dövründə milliyyətcə erməni olan, lakin xaricdə yaşayan erməniləri Gürcüstana (Ermənistanla sərhəd Samtsxe-Cavaxetiya) köçürmək məqsədi daşıyan Çurkin tərəfindən yaradılıb. Bu ərazidə erməni milliyyətçi daşnakları Qafqazda ikinci Qarabağ cəbhəsi yaratmaq istəyirlər.

**«Vardanovi»** ermənilərin Amerikada ümumi birliyidir. Amerikada «Nor-Aşxar» («Yeni dünya»), «Huşaran» («Yaddaş») kimi qəzetlər buraxır, Dağlıq Qarabağ və onun ətrafında baş verən münaqişə haqqında dezinformasiya yayırlar.

**«Bölmələr (Komandos)»** - «Daşnaksütyun» partiyasının 1972-ci ildə Vyanada (Avstriya) keçirilən XX qurultayında uydurma «erməni soyqırımı»nı təbliğ etmək məqsədilə yaradılıb.

**«Qisasçılar»** - «Daşnaksütyun» daxilində terror qrupudur. 1973-cü ildə fəaliyyət göstərməyə başlayıb. 1980-ci illərdə Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirib.

**Gizli Erməni Azadlıq Ordusu** (ACOA) - 1975-ci ildə Beyrutda (Livan) yaradılıb. Qərargahı Dəməşq (Suriya) şəhərində yerləşir. ACOA-nın tərkibində Suriyanın Fələstin hərbi düşərgələrində təlim keçmiş 1000-dən artıq fəal silahlısı var.

**Ermənistan Azadlığı uğrunda Gizli Erməni Ordusu (ASALA)** - 1975-ci ildə Beyrutda yaradılıb. Təlim-məşq bazaları Suriyada yerləşir. Təşkilatın məqsədi yalnız Türkiyənin şərq, İranın şimal və Azərbaycanın hazırda işğal olunmuş torpaqları hesabına deyil, həm də Azərbaycana, Gürcüstana və Rusiyaya qarşı yeni torpaq iddiaları ilə «Böyük Ermənistan» yaratmaqdır. ASALA-nın əsas fiqurlarından biri «Abu Nidal» və «Qara Sentyabr» terror təşkilatları ilə əməkdaşlıq edən Akop Akopyandır. Akopyan 1980-ci ildə Afinada türk diplomatının qətlilə bağlı məsuliyyəti üzərinə götürdükdən sonra «Nyu-York Times» qəzetinə müsahibəsində bildirib: «Bizim düşmənlər türk rejimi, NATO və bizimlə olmayan ermənilərdir».

**ASALA-nın tərkibində «Erməni Azadlıq Cəbhəsi»** 1979-cu ildə yaradılıb.

**1980-ci ilin aprelində ASALA təşkilatı PKK** ilə müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə, ASALA





terrorçuların maliyyələşdirilməsini öz üzərinə götürür, PKK isə açıq terrora keçir.

**«Orli» qruplaşması** - 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. 1987-ci ilədək qrup dünyanın müxtəlif ölkələrinin hava limanlarında 10 terror aksiyası həyata keçirib.

**«Ermənilərin Birliyi»** - 1988-ci ildə Moskvada yaradılıb. ASALA ilə sıx əlaqələr qurub, keçmiş SSRİ ərazisində terrorçuların fəaliyyətini təmin edir, onlara saxta sənədlər hazırlayır. Dağlıq Qarabağa silah və muzdluların gətirilməsini təmin edir.

**«Fədainlər» qrupu** 1988-ci ildən 1992-ci ilədək Ermənistanın azərbaycanlı və qeyri-erməni əhalisinə divan tutub. Nəticədə yarım milyondan artıq azərbaycanlı, 64 min rus (onların 14 mini Azərbaycanda məskunlaşıb), 22 min kürd, 11 min gürcü və digər millətlər qovulub, 744 nəfər isə öldürülüb.

**«55-lərin» Komitəsi** 1988-ci il martın 2-də Dağlıq Qarabağda yaradılıb. Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətinin böyük müəssisələrinin nümayəndələri komitənin üzvləri olub.

**1990-cı illərdə sərhədyanı ərazilərdə «Erməni Milli Ordusu»** və «Daşnaksütyun»un tərkibində kiçik terror qrupları fəaliyyət göstərib. Onlar aşağıdakılardan ibarətdir: **«Nard», «Muş», «Hay-dat», «Tiqran-Mets».**

**«Erməni Azadlıq Hərəkatı»** (AOD) - 1991-ci ildə Fransada yaradılıb. ASALA ilə sıx əməkdaşlıq edərək terror fəaliyyətilə məşğuldur.

**«Məhbusların Müdafiə Komitəsi»** həbsdə olan erməni terrorçuları və siyasi məhbusların müdafiəsi məqsədilə yaradılan

**«Demokratik cəbhə»** ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Əsas məqsədi Türkiyə dövlətinin süqutudur.

**«Apostol»** 2001-ci ilin aprelin 29-da Ermənistan, Suriya, Livan vətəndaşlarından ibarət Erməni Müdafiəsi Birliyi tərəfindən yaradılıb.

**«Gegaron»** ASALA tərəfindən 2001-ci ildə yaradılıb. Əsas məqsədi Cənubi Qafqaz və Orta Asiyada türkəsilli siyasi liderlər, diplomatlar və biznesmenlərə qarşı terror aktları həyata keçirməkdir.

**«Krunk»** 1985-ci ildə Dağlıq Qarabağa yaradılıb və uzun müddət «Qarabağ» komitəsi və «Daşnaksütyun» partiyası ilə əməkdaşlıq edib. 1988-ci il fevralın 13-də «Krunk» terror qrupunun rəhbərlərindən biri Arkadi Manuçarovun başçılığı altında Moskvada – İrəvanda mitinq təşkil olunub.

**«Artsax»** yenidən 1989-cu ildə Dağlıq Qarabağda yaradılıb. Təşkilatın məqsədi Azərbaycanın işğal olunmuş torpaqlarını müdafiə etmək üçün dünya üzrə erməni terror təşkilatlarını birləşdirməkdir. *(«Vəfa» jurnalı, 1-2 (23) 2006)*

Venesiyanın Mxitaryan ruhani idarəsinin atası Komitas Manukyanın təşəbbüsü ilə 1894-cü ildə «Artsax» adlanan medal təsis edilib. Medalın üz tərəfində «Qarabağ bizimdir» və «Qarabağ bizim Artsaxdır» kəlmələri yazılıb. Medalın arxa tərəfində isə belə sözlər həkk edilib: «Ey erməni xalqı, sənin yeganə xilasın sənin erməni gücündür. Mətin olaq ki, tərəfdarlarımızın sayı da çoxalsın». Bu medalın şəkli





Azərbaycanın 12 rayonunun işğalına qədər 1989-cu il avqustun 25-də «Sovet Qarabağı» qəzetində erməni dilində dərc olunub. Medalın üz tərəfində Ermənistanın hazırki xəritəsi ilə yanaşı Dağlıq Qarabağ və Naxçıvan Muxtar Respublikası həkk olunub. Naxçıvan tünd rəngə boyanıb, görünür, bunun siyasi çalarları var.

Medal «Böyük Ermənistan»nın qurulmasına töhvə vermiş mədəniyyət, incəsənət, ədəbiyyat və həmçinin keçmişin, indinin və gələcəyin dövlət xadimlərinə və hərbçilərə verilir.

**«Miatsum»** - erməni terror təşkilatıdır, 1980-ci illərin əvvəllərində Ermənistan SSR-də yaradılıb. *(«Vəfa», 3-4 (24) 2006)*

1981-ci ildə Bakı Soyuducu Kombinatının məhsulu olan «POLYUS» adlı dondurmadan istifadə edən azərbaycanlıların heç birinin ağlına belə gəlməzdi ki, bu qida məhsulu «Miatsum» təşkilatına birbaşa eyhamdır və ermənilər bir-birlərini məhz bu kombinatın məhsulları ilə məlumatlandırırlar. Dondurma kağızı üzərindəki rəsmin müəllifi isə həmin vaxtlar kombinatda işləyən dizayner-rəssam Boris Nikolayeviç Karpenko olub. Onun atası ukraynalı, anası və arvadı isə erməni olub. Üç övladı var. B.Karpenko qanlı yanvar hadisələrinin olacağını əvvəlcədən bilərək, 1990-cı il yanvarın 2-də Bakıdan qaçıb.

Dondurma üçün kağız Qazaxıstan SSR-nin Semipalatinsk şəhərində sifariş olunub. Kağıza diqqətlə baxdıqdan sonra mən, azərbaycanlılardan ilk olaraq, onun üzərində «Miatsum» sözünü oxudum. Bundan sonra mən «POLYUS» «QÜTB» gizli əməliyyatının tədqiqatına başladım. İlk dəfə bu söz aktrisa Janna Qaltsyan tərəfindən bəyan

edilib. Sonradan bu söz bütün dünya ermənilər üçün onların haqları olmayan torpaqlar uğrunda mübarizədə şüara çevrilib.

**Erməni Genosidi naminə Ədalət Diversiya Desant Dəstəsi;**
**Yeni Erməni Müqavimət Qrupu;**
**28-ci Erməni Qrupu;**
**Yeni Erməni Müqaviməti;**
**Genosid əleyhinə Erməni Döyüşçü Diversiya Desant Dəstəsi;**
**Erməni Gizli Ordusunun Yeni Erməni Müqaviməti;**
**«Qara Aprel»;**
**«3 Oktyabr»;**
**«Doqquz İyun» təşkilatı;**
**Altıncı Erməni Ordusu;**
**«24 Sentyabr» Sui-qəsd Diversiya Desant Dəstəsi;**
**Erməni Dünya Təşkilatı (Hay dat);**
**Erməni Qızıl Ordusu;**

**Daşnaklar-kommunistlər** - SSRİ DTK-nın kommunistləri ermənilərin bütün ideoloji təşkilatlarının başında durublar. Onların mərkəzi Moskva, İrəvan, Xankəndi və Daşkənddə yerləşib.

**«Erməni Ekspedisiya Korpusu»** Ermənistanın və Dağlıq Qarabağın bütün hərbiləşmiş qüvvələri erməni ekspedisiya korpusuna tabe idi. Bütün qərarlar və addımlar Moskva ilə razılaşdırılırdı.

**Sənubər SARALLI,**
«Oğurlanmış tarix. Soyqırım»
kitabının müəllifi, müstəqil tədqiqatçı





## Mündəricat

Son yüz ildə 86 dəfə törədilmiş soyqırımı ..... 4
Yanvar aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 10
Fevral aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 19
Mart aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 30
Ermənilərin niyyətləri hardan qaynaqlanır ..... 36
Ermənilərin siyasi şəraitə uyğun manevrləri ..... 39
Azərbaycanlıların soyqırımına dünya hələ də göz yumur ..... 44
Andronik Özanyan və onun quldur dəstələri ..... 49
Aprel aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 54
May aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 62
İyun aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 70
İyul aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 79
Avqust aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 84
Sentyabr aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 92
Oktyabr aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 101
Türk dünyasının faciəli ayı – noyabr ..... 107
Noyabr aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 111
«Dekabr köçkünləri»nin qara ildönümləri ..... 121
Dekabr aylarında türklərə qarşı törədilmiş erməni terroru ..... 127
Beslan terrorunda erməni əli ..... 137
Soyqırımına məruz qalan kimdir ..... 141
«Erməni vandalizmi» foto-sərgisi nələri anlatdı ..... 155
Saxta soyqırım ..... 161

**Məhəmməd NƏRİMANOĞLU**

**Bilal ƏNSƏR**

**«Türklərə qarşı törədilmiş
erməni terrorunun qısa xronikası»**

**Dizayner:** Rahilə MƏMMƏDOVA

**Tərtibatçı:** Sədaqət KƏRİMOVA

**Kompüter yığıcısı:** Kənan NƏRİMAN

Çapa imzalanıb:15.10.2009
Kağız formatı: 60x90 1/16
Həcmi: 11,75 ç.v.
Sifariş: 16
Sayı: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmışdır və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Şərifzadə 202
Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;
Web: www.adiloglu.az;
E-mail: info@ adiloglu.az